Xalqın qəzeti!

# Xalq qəzeti

№ 102 (31071) 12 iyun 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanda rəqəmsəl iqtisadiyyata irimiqyaslı keçid uğurla davam edir



**Bu gün Azərbaycanda süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar ölkənin gələcək inkişafını müəyyən edir. Bu istiqamətdə müəyyən işlər görülüb. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir.**

**Bizim bir çox üstünlüklərimiz var. Transmilli böyük şirkətlərlə iş təcrübəmiz də böyük üstünlükdür. Rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir.**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasını Prezidenti*

## Lavrovun mesajları: Ermənistanın Aİ-yə və KTMT-yə üzvlüyünün taleyi



Səhifə ⇨ 4

## Miqrasiya siyasətində balans axtarışı



Səhifə ⇨ 5

## TANAP layihəsi: Azərbaycandan Türkiyəyə “mavi axın”




Səhifə ⇨ 11

## Torpağın diriliyi sudadır



Səhifə ⇨ 12

## Texnoloji tərəqqi və çağdaş peşə təhsilinin hədəfləri



Səhifə ⇨ 14

## Azərbaycanın siyasi aləmdə öz imzası var



**Bəzən beynəlxalq siyasətə kənardan baxanda belə bir təsəvvür yaranır ki, dünyanı yalnız böyük güclər idarə edir. ABŞ, Çin, Rusiya, Avropa İttifaqı və digər qlobal aktorlar. Qalan dövlətlər isə, sadəcə, həmin qərarların təsiri altında fəaliyyət göstərirlər.**

Lakin tarix bizə başqa həqiqəti də öyrədib: beynəlxalq münasibətlər sistemində həmişə elə dövlətlər olub ki, ölçülərinə görə böyük olmasalar da, siyasi çeviklikləri, strateji baxışları və düzgün zamanlama qabiliyyətləri sayəsində öz çəkilərindən qat-qat böyük rol oynaya biliblər. Bu gün Azərbaycan məhz belə dövlətlər sırasında göstərilir. Əgər 10 il əvvəl beynəlxalq ekspertlər Azərbaycanın adını ilk növbədə enerji layihələri ilə əlaqələndirirdilərsə, bu gün vəziyyət tamamilə fərqlidir. Artıq söhbət yalnız neftdən, qazdan və boru kəmərlərindən getmir. Azərbaycan regional təhlükəsizlikdən tutmuş qlobal nəqliyyat marşrutlarına, enerji təhlükəsizliyindən iqlim diplomatiyasına qədər bir çox sahələrdə söz sahibi olan ölkəyə çevrilib. Dəyişikliklər təsadüfi deyil. Bunlar uzun illər ərzində formalaşdırılmış siyasi kursun, strateji səbrin və milli maraqlar üzərində qurulan dövlət siyasətinin nəticəsidir.

*(ardı 3-cü səhifədə)*

## Trans-Xəzər tərəfdaşlığında inteqrasiyanın yeni mərhələsi



Səhifə ⇨ 3

## Hay cəmiyyəti hələ də ağıllanmayıbsa...



Səhifə ⇨ 4

## Zərərsizləşdirilən hər mina bir insanın ölümdən xilasıdır



Səhifə ⇨ 5

## Azərbaycan – ABŞ elm və innovasiya əməkdaşlığı



Səhifə ⇨ 11

## Bakıya sürücüsüz avtomobillər gətiriləcək



Səhifə ⇨ 14

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Qambiya Respublikası Hökuməti və xalqı adından Sizə, Azərbaycan Respublikası Hökumətinə və xalqına ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Qambiya Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı hörmətə, ortaq dəyərlərə və beynəlxalq əməkdaşlığın, inkişafın təşviqi ilə bağlı birgə səylərə əsaslanan uzunmüddətli dostluq münasibətləri inkişaf etmişdir.

Qəti şəkildə əminəm ki, müdrik rəhbərliyinizlə ölkələrimiz və xalqlarımız arasında təhsil, gənclərin inkişafı və bu sahələrdə potensialın artırılması istiqamətlərində əməkdaşlıq qarşılıqlı fayda naminə dərinləşməkdə davam edəcək.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsində Sizinlə işləməyə hazır olduğumu bir daha təsdiq edirəm.

Bu əlamətdar bayram münasibətilə Sizə və Azərbaycan xalqına rifah arzulayıram.

**Hörmətlə,**

***Adama BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

*

**Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.**

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Respublikası Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam.

Bruney-Darüssalam ilə Azərbaycan Respublikası arasında otuz ildən artıqdır mövcud olan səmimi dostluq münasibətlərini çox yüksək qiymətləndirirəm. Ölkələrimizin bu mühüm əlaqələrinin həm ikitərəfli əsasda, həm də beynəlxalq səviyyədə, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində daha da inkişaf edəcəyinə ümidvaram.

Allah-taala Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah nəsib etsin.

Vəssalamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruney-Darüssalamın Sultanı***

*

**Zati-aliləri!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında mükəmməl səviyyədə olan əməkdaşlığa görə Sizə minnətdarlığımı bildirirəm. İkitərəfli əlaqələrimizin daha da genişləndirilməsinə həmişə hazır olduğumuzu bir daha təsdiqləyirəm.

Ölkənizə davamlı tərəqqi arzulayır, Zati-alinizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Edi RAMA,***
***Albaniya Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, Azərbaycanın Fələstin məsələsinə göstərdiyi prinsipial dəstəyə, həmçinin ölkələrimiz arasında qarşılıqlı hörmət, həmrəylik və əməkdaşlıq əsasında formalaşmış davamlı dostluq münasibətlərinə görə dərin minnətdarlığımı bildirirəm.

Qarşılıqlı maraqlarımıza və dost xalqlarımızın rifahına xidmət etmək məqsədilə ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsinə, həmçinin bütün sahələr üzrə əməkdaşlığın və əlaqələndirmənin genişləndirilməsinə sadiqliyimizi bir daha təsdiq edirik.

Zati-aliləri, Azərbaycan Respublikasına davamlı tərəqqi və firavanlıq arzulayır, Sizə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Hüseyn əl-ŞEYX,***
***Fələstin Dövlətinin vitse-prezidenti***

# Azərbaycan–Avstriya konsulluq məsləhətləşmələri



**İyunun 10-da Bakı şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Xarici İşlər və Avropa Nazirliyi arasında ilk konsulluq məsləhətləşmələri keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Konsulluq idarəsinin rəisi Emil Səfərov, Avstriya nümayəndə heyətinə isə Konsulluq məsələləri üzrə baş direktorun müavini Rene Amri rəhbərlik edib.

Konsulluq məsləhətləşmələri zamanı Avstriya Respublikası ilə konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin sahə üzrə yeni ikitərəfli sənədlərin imzalanması və konsulluq xidmətlərinin rəqəmsallaşdırılması imkanları nəzərdən keçirilib, habelə baxılmaqda olan bir sıra sənəd layihələrinə dair ətraflı müzakirələr aparılıb.

Konsulluq sahəsində həyata keçirilmiş son yeniliklər barədə məlumat mübadiləsi aparılıb, o cümlədən Azərbaycan və Avstriya arasında hüquqi yardım, təhsil, miqrasiya, əmək və digər sahələrdə əlaqələrin gücləndirilməsi istiqamətində təkliflər barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# Qərb Qafqazdan Mərkəzi Asiyaya birbaşa çıxış əldə edir

**Mərkəzi Asiya ölkələri və Azərbaycan hələ də uzun müddətdir qüvvədən düşmüş "Cekson–Vanik" düzəlişinin qalıqları ilə üzləşirlər.**

Bu sözləri ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deyns Vaşinqtonda Trans-Xəzər Forumunda deyib. O bildirib ki, Nümayəndələr Palatası və Senat ikipartiyalı əsasda bu düzəlişin aradan qaldırılması istiqamətində birgə çalışır.

Senator "Soyuq müharibə"dən qalan bu mirasın ləğv edilməsinin vacibliyini vurğulayıb və Amerikanın real dəyişikliklərə nail olması üçün zəruri olan uzunmüddətli investisiyaları həyata keçirə bilməsinin önəmini qeyd edib.

ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü vurğulayıb: "Bjezinskinin Qafqazda sülh yolu ilə Mərkəzi Asiyanı açmaq arzusu, nəhayət, gerçəkləşir. Mərkəzi Asiyanın ilk dəfə olaraq Rusiya və İrandan keçməyən, Qərbə dayanıqlı alternativ çıxış yolu formalaşacaq. Bu yeni əlaqələr Qərblə daha geniş iqtisadi tərəfdaşlığa, eləcə də Mərkəzi Asiya ilə Qafqaz arasında regional əməkdaşlığın gücləndirilməsinə təkan verəcək".

Onun sözlərinə görə, Mərkəzi Asiyada və Qafqazda artan iqtisadi inteqrasiya birgə maraqlara xidmət edəcək, əhali üçün daha geniş iqtisadi inkişaf imkanları yaradacaq və ümumi təhlükəsizliyi gücləndirəcək.

***XQ***

# İqtisadi Şuranın növbəti iclası

**İyunun 11-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın iclası keçirilib.**

İclasın gündəliyində Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili ilə bağlı görülmüş işlər, həlli vacib infrastruktur məsələləri, strateji baxış və inkişaf perspektivləri, həmçinin xidmət sektorunun iqtisadi artımda rolu və inkişaf potensialı, xidmət sektorunda müəyyən edilmiş prioritet istiqamətlər, təkliflər və digər cari məsələlər ətraflı müzakirə olunub.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun gündəlikdəki məsələlər üzrə təqdimatları dinlənilib. İqtisadi Şuranın üzvləri və Ələt Azad İqtisadi Zonası İdarə Heyətinin sədri Valeh Ələsgərov təqdim olunan məsələlərə dair çıxış ediblər.



İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

# Hikmət Hacıyev: Qarabağ müharibəsində 4 min 9 Azərbaycan vətəndaşı itkin düşüb



**Birinci Qarabağ müharibəsindən 30 ildən artıq vaxt keçməsinə baxmayaraq, 4009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş şəxs kimi qeydiyyatdadır.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial media hesabında yazıb.

Onun sözlərinə görə, itkin düşmüş şəxslər məsələsi Ermənistan-Azərbaycan münaqişəsinin nəticəsində ən ağrılı humanitar problemlərdən biri olaraq qalır.

"Birinci Qarabağ müharibəsindən otuz ildən çox vaxt keçməsinə baxmayaraq, 4009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş kimi qeydiyyatda qalır. Minlərlə ailə qeyri-müəyyənlik içində yaşamağa davam edir, yaxınlarının taleyi və yerləşdiyi barədə məlumat almaq kimi fundamental hüquqdan məhrum edilir.

Davam edən axtarış, qalıqların çıxarılması və identifikasiya səyləri nəticəsində 889 insan qalığı ekshumasiya edilmiş, 313 itkin düşmüş şəxs DNT və məhkəmə-tibbi ekspertiza yolu ilə müəyyən edilmiş və 226 nəfərin qalıqları layiqli dəfn üçün ailələrinə təhvil verilmişdir".

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın azad olunmuş ərazilərində 32 kütləvi məzarlığın aşkar edilməsi humanitar faciənin miqyasının əlavə sübutu olmaqla yanaşı, itkin düşmüşlərin taleyinin aydınlaşdırılması istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayır.

"İtkin düşmüş şəxslər məsələsinin həlli yalnız humanitar öhdəlik deyil. Bu, ədalət, insan ləyaqəti, barışıq və davamlı sülh məsələsidir. Hər müəyyən edilmiş şəxs bir ailəni cavablara yaxınlaşdırır. Hər tapılan qalıq həqiqətin bərpasına və yaddaşın qorunmasına kömək edir".

***XQ***

# Uşaqlara təhlükəsiz internet!

**Azərbaycan Mətbuat Şurasında İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin ictimai müzakirəsi keçirilib.**

Şuranın sədri Rəşad Məcid qanun layihəsinin müasir rəqəmsal çağırışlardan irəli gəldiyini qeyd edərək bildirib ki, uşaqların informasiya təhlükəsizliyinin təmin olunması, onların dünyagörüşünün zərərli məzmunlu materialların təsirindən qorunması və sağlam informasiya mühitində formalaşması dövlət və cəmiyyət qarşısında duran vacib vəzifələrdəndir. Təklif olunan dəyişikliklər bu istiqamətdə hüquqi mexanizmlərin təkmilləşdirilməsinə xidmət edir.

Mətbuat Şurası İdarə Heyətinin üzvləri Hacıbəy Heydərli, Fərid Pərdəşünas də söyləyiblər ki, son illərdə sosial media platformalarında paylaşılan qorxu, vəhşilik saçan, əxlaqsızlığı yayan materialların sürətlə artması bütün dünyada ciddi ictimai narahatlıq yaradıb.

Bildirilib ki, Azərbaycanda uşaqların ən çox istifadə etdiyi sosial şəbəkə məhz "TikTok" platformasıdır. Qanunvericiliyə əsasən, 16 yaşına çatmayan uşaqların sosial



şəbəkələrdən istifadəsinə qadağa qoyulması nəzərdə tutulur. Eyni zamanda, 16–18 yaşarası yeniyetmələr yalnız hüquqi əsaslarla təmin edilən valideyn icazəsi ilə sosial şəbəkələrdə hesab aça biləcəklər.

Qanun layihəsinin əsas məqsədi 16 yaşınadək uşaqların internetə çıxışını deyil, sosial platformalara girişini məhdudlaşdırmaqdır. Bu tələb birbaşa uşaqlara deyil, sosial platformalara yönəlib. Nəzarət məsələsində valideynlərin də üzərinə məsuliyyət və düşür. Onlar uşaqlarının rəqəmsal mühitdə fəaliyyətinə nəzarət etməli, övladlarının internetdən təhlükəsiz istifadəsini diqqətdə saxlamalıdırlar.

Müzakirələrdə Şuranın digər üzvləri, media nümayəndələri və mütəxəssislər də qanun layihəsi ilə bağlı fikir mübadiləsi aparıb, təklif və rəylərini səsləndiriblər.

Sonda qeyd olunub ki, ölkədə davam edən ictimai müzakirələrin əsas məqsədi qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin mahiyyətinin ictimaiyyətə çatdırılması, media və informasiya mühitinə mümkün təsirlərinin dəyərləndirilməsi, eləcə də maraqlı tərəflərin rəy və təkliflərinin öyrənilməsidir.

***T.RÜSTƏMLİ***
***XQ***

# Astara terminalı genişləndirilir

## *Şimal–Cənub dəhlizindən İrana ildə 4 milyon ton yük keçəcək*

**"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov İran İslam Respublikasına səfəri çərçivəsində bu ölkənin dəmiryol administrasiyasının rəhbəri Cabbar Əli Zakeri ilə birlikdə Astara terminalında aparılan tikinti işləri ilə tanış olub.**

Terminala baxış zamanı layihənin icra vəziyyəti, görülən işlər və növbəti mərhələlər barədə ətraflı məlumat təqdim edilib. Bildirilib ki, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas infrastruktur elementlərindən olan Astara terminalında tikinti-quraşdırma işləri tamamlanmaq üzrədir.

Görüş zamanı tərəflər Azərbaycan və İranın dəmir yolları arasında əməkdaşlığın cari vəziyyətini, Şimal–Cənub dəhlizi üzrə yükdaşımaların inkişaf perspektivlərini və yük həcmlərinin artırılması imkanlarını müzakirə ediblər. Qeyd olunub ki, Astara terminalı tam istifadəyə verildikdən sonra illik 3,5-4 milyon ton yükötürmə qabiliyyəti ilə əməliyyatların daha səmərəli təşkilinə və regionun tranzit potensialının gücləndirilməsinə mühüm töhfə verəcək.

İki ölkə arasında nəqliyyat-logistika



əməkdaşlığının strateji komponentlərindən biri olan Astara terminalının fəaliyyəti qarşılıqlı yük dövriyyəsinin artırılmasına, beynəlxalq yükdaşımaların sürətləndirilməsinə və Şimal–Cənub dəhlizinin rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət edəcək.

Sonda Astara terminalının tikintisinin tamamlanması və Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların artırılması sahəsində əməkdaşlığa dair protokol imzalanıb.

Qeyd edək ki, 2026-cı ilin 5 ayında Astara terminalında 345 min tondan çox yük aşırılıb. Bu isə ötən ilin eyni dövrünün göstəricisindən 26 faiz çoxdur.

***XQ***

# Azərbaycanın siyasi aləmdə öz imzası var

(əvvəli 1-ci səhifədə)

## Qlobal təhdidlər və Azərbaycanın yüksəlişi

"Soyuq müharibə"dən sonra formalaşmış beynəlxalq sistem artıq əvvəlki kimi işləmir. BMT-nin effektivliyi ilə bağlı suallar artır, beynəlxalq hüququn selektiv tətbiqi açıq görünür, qlobal güclər arasında rəqabət isə yeni mərhələyə daxil olub. Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdə davam edən qarşıdurmalar, ABŞ–Çin rəqabəti, enerji və ərzaq təhlükəsizliyi problemləri beynəlxalq sistemin nə qədər kövrək olduğunu nümayiş etdirir. Belə bir dövrdə dövlətlərin dəyəri yalnız malik olduqları resurslarla deyil, böhranlar zamanı nə qədər etibarlı tərəfdaş olduqları ilə ölçülür.

Azərbaycan son illər beynəlxalq münasibətlər sistemində ən dəyərli siyasi kapital hesab olunan amillərdən birini – etibarlı tərəfdaş imicini formalaşdırmağa nail olub. Bu gün qlobal siyasətdə resurslara sahib olmaq vacibdir, lakin ondan da vacibi həmin resursları sabit, proqnozlaşdırılan və uzunmüddətli şəkildə tərəfdaşların istifadəsinə təqdim edə bilməkdir. Məhz bu xüsusiyyət Azərbaycanın Avropa üçün strateji əhəmiyyətini artıran əsas amillərdən birinə çevrilib.

2022-ci ilin iyul ayında Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri zamanı imzalanan "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" Aİ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcı oldu. Səfər zamanı Lyayen Azərbaycanın Avropa üçün "etibarlı, güvənilən və strateji enerji tərəfdaşı" olduğunu xüsusi vurğulamışdı. Rəqəmlər də bunu təsdiqləyir. Əgər 2021-ci ildə Azərbaycan Avropaya təxminən 8 milyard kubmetr təbii qaz ixrac etmişdisə, sonrakı illərdə bu həcm sürətlə artdı. Azərbaycan qazı Avropa ölkələrinin enerji mənbələrinin şaxələndirilməsi siyasətinin mühüm komponentinə çevrilib. Bakının təşəbbüsü ilə reallaşdırılmış Cənub Qaz Dəhlizi XXI əsrin ən iri enerji layihələrindən biri hesab olunur. Təxminən 3500 kilometrlik bu nəhəng sistem "Şahdəniz" yatağından hasil olunan qazın Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Avropaya çatdırılmasını təmin edir.



## Enerji, üstəgəl dəhlizlər

Əslində, Azərbaycanın son illərdə qazandığı geosiyasi mövqe daha çox nəqliyyat və logistika imkanları ilə bağlıdır. Qlobal iqtisadiyyatın əsas qanunlarından biri belədir: ticarət yollarına nəzarət edənlər geosiyasi təsir imkanlarını da artırırlar. Məhz bu baxımdan Orta Dəhliz layihəsi xüsusi əhəmiyyət daşıyır. Çindən başlayan, Mərkəzi Asiya üzərindən Xəzər dənizini keçərək Azərbaycana, buradan isə Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan marşrut son illər dünya iqtisadiyyatının ən çox müzakirə olunan istiqamətlərindən birinə çevrilib.

Dünya Bankının və digər beynəlxalq qurumların hesabatları göstərir ki, yaxın illərdə Orta Dəhlizlə yükdaşımaların həcmi bir neçə dəfə arta bilər. Təbii ki, marşrutun mərkəzində Azərbaycan dayanır. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, Şərq–Qərb nəqliyyat dəhlizi və yeni logistika layihələri ölkəmizi Avrasiyanın əsas tranzit qovşaqlarından birinə çevirir.

## Qarabağda "ağıllı" dirçəliş

Azərbaycanın siyasi imzasını fərqləndirən başqa bir məqam Qarabağda həyata keçirilən quruculuq prosesidir. Müharibələr tarixdə çox olub. Lakin müharibədən sonrakı inkişaf modelləri hər zaman diqqət çəkib. Bu gün işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələrin miqyası dünyanın bir çox ekspert dairələrinin diqqət mərkəzindədir. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları, Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan və Laçın hava limanları, yeni avtomobil və dəmir yolları, enerji infrastrukturu və yaşayış məntəqələrinin bərpası Azərbaycanın müharibədən sonrakı siyasi fəlsəfəsini nümayiş etdirir.

Dünyaya ötürmək istədiyimiz isə sadədir: qələbənin ən böyük təsdiqi dağıntılar deyil, quruculuqdur. Məhz buna görə Qarabağ bu gün təkcə Azərbaycanın beynəlxalq auditoriyaya ünvanlanan siyasi mesajdır.

## Çağdaş diplomatiya məkanı

Diqqət edin. Son illər dünyanın ən müxtəlif siyasi qüvvələri, beynəlxalq təşkilatları və hökumət nümayəndələri mütəmadi olaraq Bakıda görüşürlər. Qoşulmama Hərəkatının Zirvə Toplantısı, Türk Dövlətləri Təşkilatının tədbirləri, müxtəlif beynəlxalq forumlar, qlobal enerji və iqlim müzakirələri Azərbaycanın diplomatik çəkisinin artdığını göstərir.

Xüsusilə COP29-un və Dünya Urban Forumunun Azərbaycanda keçirilməsi mühüm hadisə oldu. Çünki belə tədbirlərə ev sahibliyi etmək üçün yalnız infrastruktur kifayət etmir. Bunun üçün siyasi etibarlılıq və beynəlxalq tərəfdaşlarla işləmək bacarığı da tələb olunur.

## Azərbaycan modelinin özəlliyi nədədir?

Bəlkə də əsas sual budur. Azərbaycanı bir çox digər dövlətlərdən fərqləndirən nədir? Fikrimizcə, cavab balans anlayışındadır. Müasir beynəlxalq münasibətlərdə bir çox dövlətlər böyük güclər arasında seçim etmək məcburiyyətində qalırlar. Azərbaycan isə uzun illərdir çoxvektorlu xarici siyasət yürüdür. Azərbaycan Türkiyə ilə strateji müttəfiqdir.

Eyni zamanda, Aİ ilə əməkdaşlığı genişləndirir, Türk dünyasının inteqrasiyasını dəstəkləyir, İslam Əməkdaşlıq Təşkilatında fəaldır, Qoşulmama Hərəkatına sədrlik edib, Mərkəzi Asiya dövlətləri ilə əlaqələri inkişaf etdirir. Bu qədər müxtəlif istiqamətləri eyni vaxtda idarə etmək ciddi diplomatik bacarıq tələb edir. Məhz buna görə bir çox beynəlxalq analitiklər Azərbaycanı "orta güc diplomatiyasının uğurlu nümunəsi" kimi xarakterizə edirlər.

## Yeni dünya nizamında Azərbaycanın yeri və rolu

Bu gün dünya yeni geosiyasi arxitekturanın formalaşması mərhələsindədir. Qlobal güc mərkəzləri dəyişir, yeni iqtisadi marşrutlar yaranır və enerji bazarları transformasiya olunur. Texnologiyalar beynəlxalq münasibətlərin xarakterini dəyişir. Belə dövrlərdə bəzi dövlətlər proseslərin arxasınca gedir, bəziləri isə həmin proseslərin formalaşmasında iştirak edirlər. Azərbaycanın son illərdəki fəaliyyəti göstərir ki, Bakı ikinci yolu seçib.



Ölkə yeni təşəbbüslər irəli sürür, dialoq platformaları yaradır və əməkdaşlıq mexanizmlərinin formalaşmasına töhfə verir. Bu gün Azərbaycanın siyasi səhnədə seçilən imzasından danışarkən söhbət yalnız uğurlu xarici siyasətdən getmir. Söhbət öz milli maraqlarını qoruya-qoruya beynəlxalq əməkdaşlığa töhfə verməyi bacaran, regional liderliklə qlobal məsuliyyət arasında tarazlıq qurmağa çalışan dövlət modelindən gedir.

Son olaraq qeyd edək ki, bizim imzamız neftdən, qazdan və ya coğrafiyadan daha böyük anlayışı ifadə edir. Bu imza milli maraqlara söykənən müstəqil qərarvermə, çevik diplomatiya, etibarlı tərəfdaşlıq və quruculuq fəlsəfəsinin birləşməsidir. Və görünən odur ki, qlobal siyasətin yeni xəritəsi çəkildikcə, həmin imzanın çəkisi daha da artacaq.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---

# Trans-Xəzər tərəfdaşlığında inteqrasiyanın yeni mərhələsi

*ABŞ-ın Xəzər regionuna yönəlik uzunmüddətli strateji maraqları*

**Vaşinqtonda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi Trans-Xəzər Forumu Avrasiya məkanında formalaşan yeni güc balansının və strateji ittifaqların nümayişi baxımından mühüm göstəricidir. Yaranmasının 10-cu ildönümünə təsadüf edən forum qlobal güclərin, xüsusilə Amerika Birləşmiş Ştatlarının regiona yönəlik uzunmüddətli strateji maraqlarının rəsmiləşdirildiyi platformadır.**

Yaxın Şərq və Körfəz regionunda münaqişələrin kəskinləşdiyi, ənənəvi təhlükəsizlik arxitekturasının ciddi sınaqlarla üzləşdiyi indiki şəraitdə Xəzər hövzəsi və Cənubi Qafqaz sabitlik və strateji keçid zonası kimi ön plana çıxır. Forumun "Orta Dəhliz dönüş nöqtəsində: Trans-Xəzər regionu üçün gələcək nəslin inkişafı" mövzusunda təşkil olunması bəhs edilən coğrafiyanın gələcək onilliklərdə beynəlxalq münasibətlər sistemində oynayacağı rolu qabaqcadan müəyyən edir.

Vaşinqtonun təhlükəsizlik, enerji şaxələndirilməsi, texnoloji tərəfdaşlıq və kritik mineralların tədarükü sahələrində Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərinə marağı son illər xeyli dərəcədə yüksəlib. Xüsusilə keçən ilin avqust ayında ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi və şəxsi iştirakı ilə Ağ Evdə Azərbaycan və Ermənistan rəhbərlərinin tarixi görüşünün keçirilməsi, Vaşinqtonun regional sülhün əldə olunmasında nə dərəcədə qətiyyətli rol oynadığını sübuta yetirir. Həmin müstəvidə imzalanan Birgə Bəyannamə Cənubi Qafqazda uzun illər davam edən qarşıdurmanı sonlandırmaqla bərabər, regionun təhlükəsizlik koordinatlarını tamamilə yeniləyib. Eyni zamanda, C5 formatında Mərkəzi Asiya dövlətləri başçılarının Vaşinqtonda yüksək səviyyədə qəbulu Ağ Evin regionu vahid geosiyasi məkan kimi qəbul etdiyinin göstəricisidir.




Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin forumda onlayn çıxışı Azərbaycanın xarici siyasət fəlsəfəsinin və regional inteqrasiya baxışının geosiyasi mənzərəsini təqdim edir. H.Hacıyevin vurğuladığı kimi, Orta Dəhliz Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və digər mühüm bölgələri birləşdirən strateji geoiqtisadi və geosiyasi sistemə keçid mərhələsindədir. Hazırda müşahidə olunan transformasiya, qitələrarası əlaqələrin təhlükəsizlik və siyasi qarşılıqlı asılılıq kontekstində yenidən formalaşmasını tələb edir.

Qlobal miqyasda cərəyan edən qarşıdurmalar, xüsusilə Körfəz bölgəsində və Yaxın Şərqdə münaqişə ocaqlarının alovlanması qlobal təchizat və kommunikasiya xətlərinin zəifliyini ortaya çıxardı. Belə kritik şəraitdə Orta Dəhlizin təhlükəsiz və dayanıqlı alternativ kimi strateji əhəmiyyəti qat-qat artır. Süveyş kanalı, Qırmızı dəniz, yaxud Fars körfəzi kimi ənənəvi dəniz keçidlərində yaşanan hərbi-siyasi risklər, dünya ölkələrini Şərqlə Qərb arasında daha etibarlı quru və dəniz marşrutları axtarmağa sövq edir. Cənubi Qafqaz və Mərkəzi Asiya coğrafiyası dənizdən kənarda yerləşən, lakin quru və dəniz əlaqələrinin optimal kəsişməsini təmin edən təhlükəsizlik adasına çevrilib. Azərbaycan rəhbərliyi tərəfindən irəli sürülən geosiyasi təşəbbüslər isə Avrasiya məkanında yeni təhlükəsizlik kəmərinin formalaşmasına kömək edir.



Milli təhlükəsizlik və regional bağlantı memarlığının mühüm komponentlərindən bəhs edərkən, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin və Azərbaycanın Naxçıvan bölgəsi ilə əlaqələrinin xüsusi çəkisini qeyd etmək lazımdır. Formalaşmaqda olan Zəngəzur dəhlizi region dövlətləri tərəfindən Orta Dəhlizin mühüm strateji seqmenti kimi qəbul edilir. Bu dəhlizin açılması Şərq–Qərb əlaqəsini əsaslı şəkildə gücləndirməklə yanaşı, Azərbaycanın Türkiyə və daha geniş coğrafiyada yerləşən Avropa ölkələri ilə vasitəsiz quru əlaqəsini təmin etmək potensialına malikdir. Siyasi baxımdan yanaşdıqda, bu layihə Cənubi Qafqazda daimi sülhün və çoxtərəfli əməkdaşlığın təminatçısı rolunu oynayır.

Təhlükəsizlik və strateji müstəqilliyin digər vacib elementi isə rəqəmsal suverenlikdir. Qazaxıstan Prezidentinin ABŞ ilə danışıqlar üzrə xüsusi nümayəndəsi Ercan Kazıxanın forumda səsləndirdiyi fikirlər regionun rəqəmsal gələcəyinə baxışı nümayiş etdirir. Qazaxıstanın regional tərəfdaşlar, xüsusilə Azərbaycan ilə müştərək şəkildə Orta Dəhlizin rəqəmsal komponentini inkişaf etdirməsi Avrasiya məkanında rəqəmsal asılılığı aradan qaldırmaq məqsədi daşıyır. Xüsusilə Xəzər dənizinin dibi ilə çəkiləcək Trans–Xəzər fiber-optik kabel layihəsi hər iki dövlətin rəqəmsal suverenliyini təmin edəcək tarixi addımdır. Layihənin cari ilin sonunadək tamamlanması region dövlətlərinin siyasi iradəsinin göstəricisidir.

Qlobal güc mərkəzləri arasında rəqabətin kəskinləşdiyi dövrdə Cənubi Qafqaz və Mərkəzi Asiyanın orta güc dövlətləri xarici siyasətdə tarazlaşdırma kursunu uğurla davam etdirirlər. Azərbaycan tərəfindən həyata keçirilən xarici siyasət kursu təktərəfli asılılıqlardan qaçaraq çoxvektorlu tərəfdaşlıq modelləri qurmağa imkan verir. Orta güc statusu dövlətlərə beynəlxalq gərginliklər zamanı neytrallığı qorumaq və regional sülhün tərəfdarı kimi çıxış etmək imkanı tanıyır. Bakının və Astananın Vaşinqtonla münasibətləri bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə söykənir. ABŞ Xəzər regionu dövlətlərini qlobal təhlükəsizlik arxitekturasının suveren dayaqları kimi qiymətləndirir. Trans–Xəzər Forumunda nümayiş etdirilən mövqe göstərir ki, Vaşinqton və regional paytaxtlar arasında maraqların üst-üstə düşməsi uzunmüddətli strateji xarakter daşıyır.

Türkiyənin Trans-Xəzər əməkdaşlıq formatındakı iştirakı Orta Dəhlizin qərb qanadının geosiyasi təhlükəsizliyini möhkəmləndirən mühüm amildir. Ankara Azərbaycanın strateji müttəfiqi kimi, Şərq-Qərb dəhlizinin Avropa qitəsi ilə tam inteqrasiyasına dəstək verir. Bakı–Tbilisi–Qars dəmir yolunun səmərəli istifadəsi, Türk dünyasının coğrafi bütövlüyünü təmin edən nəqliyyat infrastrukturunun əsasını təşkil edir. Türkiyənin regional fəallığı bölgədə balansın qorunmasına və kənar hərbi-siyasi təhdidlərin qarşısının alınmasına kömək edir. Forumda iştirak edən digər regional və qlobal tərəfdaşlar da Ankaranın rolunu yüksək qiymətləndirirlər. Türkiyə, Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında qurulan müttəfiqlik əlaqələri Avrasiyanın mərkəzində yeni güc mərkəzinin formalaşdığına dəlalət edir.

Vaşinqtonda keçirilən Trans-Xəzər Forumu regional dövlətlərin və onların tərəfdaşlarının gələcəyə yönəlmiş geosiyasi vizyonunu ortaya qoyur. Azərbaycan balanslaşdırılmış xarici siyasəti, suverenliyinə sadiqliyi və müttəfiqlik şəbəkəsi ilə regionun təhlükəsizlik memarlığında mərkəzi mövqe tutur. Orta Dəhliz isə Avrasiyanın geosiyasi gələcəyini müəyyən edən strateji sistemdir. Hazırkı qlobal gərginliklər şəraitində, Xəzər hövzəsinin sabitlik zonası kimi qorunması qlobal təhlükəsizliyə xidmət edir. İnanırıq ki, dövlətlərin müştərək addımları bölgənin suverenliyini gücləndirərək gələcək nəsillərə daha sabit, təhlükəsiz və inteqrasiya olunmuş Trans-Xəzər regionu miras qoymağa imkan verəcək.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Lavrovun mesajları: Ermənistanın Aİİ-yə və KTMT-yə üzvlüyünün taleyi

## *Sərt ritorikadan mədəni şantaj taktikasına qədər*



**Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan mövzusundakı səssizliyini pozdu. Başqa sözlə desək, XİN rəhbəri ölkəsindəki anti-Ermənistan ab-havasına əlavə səs-küy gətirdi. Təbii ki, Lavrov təcrübəlidir və Ermənistana münasibətdə Rusiyanın dövlət telekanalını zəbt etmiş Vladimir Solovyovun şivən ritorikasını təkrarlamaz.**

Bəli, Kremlin baş diplomatı konkretdir. Onun konkretliyinin iki müstəvisi var. Söhbət Ermənistanın Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) və Avrasiya İqtisadi İttifaqına (Aİİ) üzvlüyü məsələlərindən gedir. Əvvəlcə birinci məqamdan söz açacağıq. Ümumən isə onu bildirək ki, Rusiyada bütün sferalarda özünü göstərən anti-Ermənistan isterikası ən müxtəlif təzahürlərə malikdir. Ancaq İrəvanın Aİİ-yə üzvlüyü məxsusi məqamdır. Axı üzvlüyün faydaları var. O faydalar ki, onların real kompensasiya ehtimalı azdır.

* * *

Bəli, Ermənistanda iyunun 7-də keçirilən parlament seçkilərinin nəticələri rus ictimai-siyasi rəyini qeyzləndirib. Əslində, S.Lavrovun söylədikləri bu tendensiyadan qaynaqlanır. O, İrəvanın Aİİ-yə üzvlüyü məsələsinin artıq kəskin şəkildə gündəmdə olduğunu deyib, ən əsası, duruma operativ aydınlıq gətirilməsinin vacibliyindən söz açıb: “İrəvanda bəyan edirlər ki, Avrasiya İqtisadi İttifaqından çıxmaq məsələsi gündəmdə deyil. Çünki hələ Avropa İttifaqına daxil olmayıblar. Bilirsiniz ki, Ermənistanda artıq Avropa İttifaqına üzvlüklə bağlı qanun qəbul edilib. Məsələ olduqca kəskin şəkildə qoyulub. Təbii ki, burada operativ aydınlıq gətirmək lazım gələcək”.

Qeyd edək ki, Lavrov mətbuat konfransı zamanı, eyni zamanda, Prezident Vladimir Putinin və Rusiya hökuməti üzvlərinin Ermənistanın Aİİ-də təmsilçiliyinə dair bir müddət əvvəl səsləndirdikləri fikirləri xatırladıb: “Ermənistanın üzvlüyü məsələsinə kifayət qədər operativ şəkildə baxmalı olacağıq. Bu, erməni xalqının seçiminə hörmət etmədiyimiz üçün deyil. Biz, sadəcə, bu seçimin nə olduğunu bilmək istəyirik. Çünki əks halda, Ermənistanın Avropa İttifaqına qoşulmaq haqqında qanununu həyata keçirməsi və eyni zamanda, Avrasiya İqtisadi İttifaqında qalması mümkün deyil. Bu iki birliyin fəaliyyət normaları bir-birini inkar edir”.

Yada salaq ki, 7 iyun seçkisindən əvvəl Rusiya rəsmiləri, eləcə də ölkənin hakim dairələrinə yaxın şəxslər Ermənistan, Aİİ və Aİ mövzusu ətrafında, bilavasitə, seçkiyə fokuslanaraq söz açırdılar. Onlar sırf erməni xalqının seçimi məntiqini irəli sürürdülər. Belə təəssürat yaranırdı ki, söylədikləri fikirlər hay cəmiyyətini yönləndirməkdir. Təxminən belə: seçkidə Aİ-yə qoşulmağı hədəfləyən qüvvəyə etimad göstərsəniz, Aİİ ilə yollarınız ayrılacaq. Mövcud xüsusda Aİİ-nin Ermənistana faydaları, Aİ-nin isə sözdə dəstək mahiyyəti qabardılırdı. Bu prizmadan yanaşsaq, Lavrovun erməni xalqının seçiminə hörmətlə bağlı dedikləri, əslində, həmin xalqın Rusiyanın gözləntilərini doğrultmadığının dolayı formada bildirilməsidir. Hər halda, başqa cür düşünməyə əsas yoxdur.

* * *

Xatırladaq ki, bir müddət əvvəl Prezident Putin Rusiya-Ermənistan münasibətlərinin Aİİ seqmentindən, həmçinin, İrəvanın Aİ-yə can atmasının onun Aİİ-də təmsilçiliyinin mümkünsüzlüyündən söz açarkən, “boşanma” ifadəsini işlətmişdi. O demişdi ki, Ermənistan mümkün qədər tez qərar verməlidir və bundan sonra tərəflər “yumşaq, ağıllı və qarşılıqlı faydalı boşanma” yolunu tuta bilərlər. İndi Lavrovun söylədikləri onu göstərir ki, Rusiya Ermənistanla “boşanma”nın bütün aspektlərini nəzərdən keçirir. Aİİ-dən sonrakı vacib aspekt isə KTMT-dir.

Məlum olduğu kimi, Ermənistan-KTMT münasibətləri 2022-ci ildən pisləşmə mərhələsinə qədəm qoyub və tərəflər arasındakı gərginlik fazası hər il artmaqdadır. Sonuncu dəfə Baş nazir Nikol Paşinyan bildirmişdi ki, ölkəsi qurumdakı fəaliyyətini dondurur. Səbəb isə dəyişilməzdir: KTMT Ermənistanın təhlükəsizlik təminatlarına cavab vermir və bu deyimin yaranma tarixçəsi var.

Deməli, 2022-ci ilin sentyabrında Azərbaycan-Ermənistan sərhədində hərbi eskalasiya yaşandı. Rəsmi İrəvan həmin vaxt KTMT-ni “Azərbaycanın suveren Ermənistanın ərazilərinə qəsb gerçəkləşdirməsinə” siyasi qiymət verməyə çağırdı. KTMT-dən isə bildirildi ki, iki Cənubi Qafqaz ölkəsi arasında sərhədlər dəqiqləşmədiyindən, qurumun səlahiyyət dairəsini müəyyənləşdirmək mümkünsüzdür. Belə bir münasibət, obrazlı desək, barıt çəlləyini ildırımın vurması effektini yaratdı.

...Paşinyan bir qədər də məsxərəli şəkildə bildirdi ki, KTMT özünün Ermənistan üzrə məsuliyyət dairəsini müəyyənləşdirdikdən sonra ölkənin qurumda təmsilçiliyi davam etdiriləcək. Aydındır ki, hansısa müəyyənləşdirmədən söhbət gedə bilməz və Nikolun gözlədiyi də bu deyil. Baş nazir ölkəsinin Rusiyanın hakim rol oynadığı hərbi blokda qalmasını istəmir. Yəni, ayının min oyunu bir armudun başındadır.

Ancaq, necə deyərlər, səni sevəcəyəm, sən sevməsən də. Rusiya bu “sevgiyə” görə artıq 4 ilə yaxındır ki, Ermənistanın KTMT müstəvisindəki şıltaqlıqlarına dözür. Lavrovun İrəvanın Aİİ ilə yanaşı, KTMT-yə üzvlüyü məsələsindən kateqorik söz açması isə onu göstərir ki, Kreml daha dözmək niyyətində deyil. Ola bilər, diplomat Rusiyanın anti-Ermənistan köklənişinin total xarakterli olduğunu göstərmək istəyir və hesab edir ki, bu mesajı erməni cəmiyyətində təlaş və əndişə doğuracaq. Amma...

Beləliklə, Rusiya XİN rəhbəri bildirib ki, Ermənistan KTMT-yə üzvlük haqqını ödəmir. Buna görə də qurum özünün nizamnamə maddəsinin işə salınması məsələsini nəzərdən keçirəcək: “Bu vəziyyətdə nə etmək lazımdır? Bu məsələni bu gün müzakirə etdik. Ermənistanın KTMT büdcəsinə olan borcu artıq iki ildən çoxdur ki, qalmaqdadır. Bu isə qurumun Nizamnaməsində nəzərdə tutulmuş vəziyyətdir. Bu gün KTMT Nizamnaməsinin müvafiq maddəsinin tətbiqi imkanlarına baxmaq barədə razılığa gəldik”.

Haşiyə çıxaq ki, KTMT nizamnaməsinin 20-ci maddəsinə əsasən, üzv dövlət təşkilata yaranmış borcunu iki il ərzində ödəmədiyi təqdirdə, öz vətəndaşlarını təşkilatda kvota üzrə vəzifələrə namizəd irəli sürmək, eləcə də borc tam ödənilənədək qurumun orqanlarında səsvermə hüququndan məhrum duruma düşür. Bundan əlavə, həmin maddədə qeyd olunur ki, nizamnamənin müddəalarını, KTMT Şurasının qərarlarını və onların icrası üçün təşkilatın digər orqanları tərəfindən qəbul edilmiş qərarları yerinə yetirmədiyi halda, üzv dövlətin qurumdakı fəaliyyəti dayandırıla və ya həmin dövlət üzvlükdən çıxarıla bilər.

Əvvəldə də bildirdiyimiz kimi, S.Lavrovun dedikləri Ermənistan üzərinə konkret mexanizmli demarşdır. Əlbəttə, demək olmaz ki, Rusiya İrəvanı Aİİ-dən və KTMT-dən tam uzaqlaşdırmağı hədəf seçir. Kreml, sadəcə, erməni ictimai rəyini qıcıqlandırmaq yolu tutur. Niyəsə Rusiyada belə düşünürlər ki, bu yolla hay cəmiyyətinin Paşinyana və komandasına qarşı total hücumu baş qaldıracaq. Halbuki, əks proselər yaşanır. Hay ictimaiyyətində anti-Rusiya qəzəbi güclənir.

Əvvəllər Rusiyaya münasibətdə loyal mövqe tutan erməni kəsimi də qəzəblilərin sırasında təmsil olunur. Hər halda, kimsə öz ölkəsinin aşağılanmasına biganə qalmaz. Aşağılanma isə var. Hərçənd, Lavrov aşağılamır, sadəcə, prosedurları yada salır. Doğrudur, bir qədər sərt şəkildə. Yəni, XİN rəhbərinin barəsində əvvəldə söz açdığımız konkretlik həm də onun sərtliyindədir.

***Ə.CAHANGİROĞLU***
***X Q***

# Hay cəmiyyəti hələ də ağıllanmayıbsa...

## *Azərbaycanın sülh qətiyyəti və Ermənistanda seçkilərin ziddiyyəti*

**Ermənistanda 7 iyun parlament seçkilərinin nəticələri elan olunar-olunmaz təkcə region mediası yox, habelə, dünyanın bir sıra KİV-i, eləcə də siyasi ekspert və müşahidəçilər Baş nazir Nikol Paşinyan iqtidarının ölkədə konstitusion islahatlar keçirmək imkanlarının məhdudluğu barədə fikirlər yaydı. Bu fikirlərin tez bir zamanda dövriyyəyə buraxılması adi məsələ sayıla bilməz. Həm də ona görə adi sayıla bilməz ki, irəli sürülmüş ayrı-ayrı tezislərdə Azərbaycan–Ermənistan sülhünün institsionallaşmasına maneənin yarandığı düşüncəsi tirajlandı. Baxmayaraq ki, Paşinyanın seçkidən sonrakı ilk fikri barış mühitinin fundamentallaşması prioriteti ilə bağlı idi.**

Bəli, söhbətin məğzi Ermənistanın indiki parlament strukturu ilə yekun sülh müqaviləsinin imzalanması üçün Bakının irəli sürdüyü şərtin yerinə yetirilməsinin mümkünsüzlüyü üzərindədir. Şərtin əhatəli mahiyyəti isə belədir: Ermənistan konstitusiyasının preambulasında ölkənin 1990-cı il İstiqlaliyyət Bəyannaməsinə istinad olunur. Bəyannamədə göstərilir ki, müstəqil Ermənistan Respublikasının yaranması Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1989-cu il 1 dekabr tarixli “Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsi haqqında” birgə qərarından qaynaqlanır. Azərbaycan dövləti məhz bu bəndi ölkəmizə ərazi iddiası olaraq qiymətləndirir və bəyan edir ki, sülhün fundamentallığı baxımından belə bir müddəadan uzaq durulmalıdır. Ancaq məsələnin digər – birbaşa Ermənistanın özü ilə əlaqəli tərəfi də var və bu barədə sonda söz açacağıq.

Hələlik onu bildirək ki, xaricdəki bəzi qüvvələr Azərbaycan dövlətinin sülh üçün Ermənistanda konstitusiya dəyişikliyi tələbini maksimalist mövqe kimi qiymətləndirməyə başlayıblar. Yəni Ermənistanda parlament seçkilərinin nəticələri xüsusunda yayılmış və Paşinyan iqtidarının konstitusiya ishalatları keçirməsinin çətinliyini



nəzərdə tutan ritorikanın tərkib hissəsində bu cür qiymətləndirmələr yer almaqdadır. Hələ bəziləri daha “irəli gedərək” rəsmi Bakının çətin şərt irəli sürməsini doğru olmayan addım kimi dəyərləndirirlər. Halbuki, heç də belə deyil.

Azərbaycan dövlətinin hər addımı düşünülüb və strateji xarakter daşıyır. Ölkəmiz Ermənistan qanunvericiliyində qonşulara qarşı istənilən formada ərazi iddiası məntiqini, hətta, şübhəsini yolverilməz prinsipial məqam sayır. Çünki xalqımız bu iddianın gətirdiyi ağrı və acıları, məşəqqət və məhrumiyyətləri yaşayıb. Ona görə də bizə möhkəm təminat lazımdır. Təminatı erməni xalqı və cəmiyyəti verməlidir. Bunun üçün isə referenduma gedilməli, konstitusiyanın İstiqlaliyyət Bəyannaməsinə istinadı aradan qalxmalıdır.

Fikrimizi qüvvətləndirmək məqsədilə onu da bildirək ki, hazırda Ermənistan dövləti Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirir. Ancaq biz son seçkilərdə ayrıca Azərbaycan mövzusunun ortada olduğunu, geniş müzakirə predmetinə çevrildiyini gördük. Belə bir qəti təəssürat yarandı ki, parlament seçkiləri Azərbaycanla sülh, Türkiyə ilə normallaşma istəyənlərlə istəməyənlərin mübarizəsidir. Mübarizədən birincilər qalib ayrıldılar. Ancaq bu qalibiyyət inamlı olmadı.

Deməli, hay cəmiyyətində sülhə münasibətdə vahid baxış istisnadır. Aydındır ki, belə bir mühit dayanıqlı sayıla bilməz. O da aydındır ki, Paşinyan və tərəfdarları, loru dildə desək, azacıq büdrəsələr, Bakı-İrəvan sülhü istiqamətində irəliləyişlər sıradan çıxacaq, regionun inkişafı baxımından nəzərdə tutulan perspektiv fəaliyyət konturları puç olacaq. İlk növbədə, Azərbaycan və Ermənistan liderlərinin ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə imzaladıqları Birgə Bəyannamənin Naxçıvana maneəsiz yolla bağlı TRIPP məntiqi kağız üzərində qalacaq.

Əlqərəz, Azərbaycan sülhün fundamentallığı egidasını rəhbər tutur və bu baxımdan hazırkı erməni iqtidarının seçkinin nəticəsindən, yaxud vəlvələdən, ya zəlzələdən yerinə yetirə bilmədiyi hansısa məsələ onun öz məsuliyyəti kimi qəbul ediləcək. Ermənistanda, yaxud kənarda kimsə barış mühitinin fundamentallığını istəmirsə, ərazi iddiası məntiqinin qorunub saxlanmasına çalışırsa, nəzərə almalıdır ki, Azərbaycanın buna qarşı adekvat tədbirləri mütləq olacaq və bu tədbirləri Ermənistan dövləti ciddi şəkildə hiss edəcək. Ona görə də heç kəs əsas mahiyyətdən kənar durmamalı, loru dildə desək, əl-üz yumağa çalışmamalıdır.

Hamı bilməlidir ki, Azərbaycanın baxışı sülh müqaviləsinin paraflanması ilə onun tam şəkildə imzalanması arasında ciddi fərqi nəzərdə tutur. Yəni müqavilənin ərsəyə gəlməsi Ermənistan üçün daha böyük dividend vəd edir, nəinki paraflanması. Mövcud trayektoriyada Ermənistan demokratik dövlətdir və sair bu kimi təqdimatlar keçərli deyil. Çünki bizim anlayışımızda demokratik ölkənin ərazi iddiası və avantürizmi olmamalıdır. Əgər varsa, deməli, onun demokratiyası topal və şildir. Hesab edirik ki, erməni iqtidarı kimi, erməni cəmiyyəti və xaricdəki ermənipərəstlər də bu barədə düşünsələr, daha yaxşıdır. Kimsə ağlına gətirməsin ki, indiki şərtlərlə Azərbaycanı yekun sülh müqaviləsinin imzalanmasına razı salmaq mümkündür.

Sonda söz açacağımız məqama keçid alaq. Məsələ ondadır ki, Ermənistan konstitusiyasının İstiqlaliyyət Bəyannaməsinə istinadı Ermənistan Respublikasının müstəqil dövlət kimi varlığını şübhə altına alır. Ortaya elementar sual çıxır: Bir halda ki, Ermənistan dövlətinin varlığı başqa dövlətin, indiki halda, Azərbaycanın ərazisində hazırda mövcud olmayan muxtar qurumun hansısa qondarma qərarına əsaslanır, belə varlıqdan danışmağa dəyərmi? Bu, nə dərəcədə legitimdir?

...Muxtariyyət, habelə, bu qurum üzərində qərarlaşmış separatçı rejim yoxdursa, Ermənistan dövləti də yox kimidir. Üstəlik, vurğuladıq ki, rəsmi İrəvan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır. Bu tanımada separatizmi xarakterizə edən Qarabağ məntiqi yoxdur. Deməli, ortada yazılı formadakı ziddiyyət də aradan qalxmalıdır. Digər tərəfdən, Ermənistan hakimiyyəti ölkə üçün “Qarabağ hərəkatı”nın bitdiyini bəyan edir. Bu mənfur hərəkat bitibsə, onun adını simvolizə edən heç bir ifadəyə və cümləyə erməni qanunvericiliyində yer olmamalıdır. Başqa sözlə desək, münaqişə məntiqi hansısa formada saxlanılmamalıdır. Çünki bu məntiq sülhün perspektivini ciddi şəkildə şübhələndirir.

Sözümüz ondadır ki, Azərbaycanın irəli sürdüyü tələb həm də vurğuladıqlarımız baxımından yerindədir. Hələlik yerində olmayan erməni cəmiyyətinin sülh yolundakı qətiyyətidir. 7 iyun parlament seçkilərində Paşinyan iqtidarının qalib gəlməsinə baxmayaraq, revanşist və şovinistlərin Ermənistan parlamentində geniş təmsilçiliyi onu söyləməyə əsas verir ki, hay cəmiyyəti sülh yolunda yetəri qədər qətiyyətli deyil. Xaricdə kimlərin seçkini nə cür qiymətləndirməsindən, təriflər yağdırmasından asılı olmayaraq, durum məhz belədir. Paşinyan da seçkidən əvvəl bildirmişdi ki, mübarizə müharibə və sülh tərəfdarları arasında gedəcək. Nəticə onu göstərdi ki, ikincilər birincilərdən ciddi şəkildə üstün deyillər. Halbuki...

***Ə.RÜSTƏMOV***
***XQ***

# Zərərsizləşdirilən hər mina bir insanın ölümdən xilasıdır

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkədəki mina təhlükəsi ilə bağlı paylaşım edib: "Hələ də minalar Ermənistan–Azərbaycan münaqişəsinin ən ağır nəticələrindən biri olaraq qalır və aktiv döyüş əməliyyatlarının dayandırılmasından uzun müddət keçməsinə baxmayaraq, insan həyatına son qoymağa davam edir".**

Doğrudan da, müharibələr yalnız imzalanmış sənədlərlə bitmir. Silahların döyüş meydanlarında susmasından sonra belə, onların yaratdığı fəsadlar uzun illər insan həyatına, iqtisadi inkişafa və cəmiyyətlərin sosial sabitliyinə təsir göstərməkdə davam edir. Azərbaycan üçün bu təhdidlərin ən ağır və uzunmüddətli forması mina və partlamamış hərbi sursatlarla çirklənmiş ərazilərdir. Ermənistan–Azərbaycan münaqişəsinin başa çatmasından illər keçməsinə baxmayaraq, bu təhlükə hələ də insan həyatına son qoyur.




**ARAYIŞ:** *İkinci Qarabağ müharibəsi başa çatandan – 2020-ci il 10 noyabr tarixindən sonra mina partlayışları nəticəsində 427 nəfər vətəndaşımız zərər çəkib. Onlardan 73 nəfər həlak olub, 354 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Zərərçəkənlərin 231 nəfəri mülki şəxslərdir. 1991-ci ildən bu günə qədər isə mina qurbanlarının ümumi sayı 3500 nəfəri ötüb, onların arasında 362 uşaq və 38 qadın var.*



Bu, sadəcə, statistika deyil, rəqəmlərin arxasında yarımçıq qalmış ömürlər, dağılmış ailələr və dəyişmiş həyat hekayələri dayanır. Mina qurbanları arasında doğma yurdlarına qayıdan sakinlər, fermerlər, tikinti və xidmət sahələrində çalışan işçilər və digər mülki şəxslər var. Bu isə mina təhlükəsinin cəmiyyətin bütün təbəqələri üçün hələ də ciddi və davamlı risk olduğunu göstərir.

Hikmət Hacıyev paylaşımında onu da vurğulayıb ki, mina problemi yalnız insan itkisi ilə məhdudlaşmır: "İnsan itkiləri ilə yanaşı, ərazilərin geniş miqyasda minalarla çirklənməsi məcburi köçkünlərin təhlükəsiz şəkildə geri qayıtması, azad edilmiş ərazilərin bərpası, iqtisadi inkişaf və kənd təsərrüfatı işlərinin aparılması üçün ciddi maneə olaraq qalır. Aşkar edilərək zərərsizləşdirilən hər bir mina yalnız potensial olaraq xilas edilmiş bir həyat deyil, həm də bərpa prosesinə doğru atılmış addımdır".

Bəli, geniş ərazilərin minalarla çirklənməsi həm də məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışını ləngidən əsas maneələrdəndir. Həm insanların həyatını risk altında saxlayır, həm də azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma proseslərinin sürətinə birbaşa təsir göstərir.

İqtisadi inkişaf baxımından da mina problemi ciddi məhdudiyyətlər yaradır. Azad edilmiş ərazilərin zəngin təbii və iqtisadi potensialının reallaşdırılması, yeni investisiyaların cəlb olunması, sənaye və xidmət sektorlarının inkişafı birbaşa təhlükəsizlik məsələsi ilə bağlıdır. Sahibkarlar və investorlar üçün sabit və təhlükəsiz mühit əsas şərtlərdən biridir. Mina təhlükəsinin mövcudluğu isə bu imkanların tam şəkildə reallaşmasını ləngidən amillərdən biri olaraq qalır.

Kənd təsərrüfatı sahəsində vəziyyət daha aydın görünür. Vaxtilə ölkənin mühüm aqrar bölgələri hesab edilən geniş torpaq sahələrinin bir hissəsi uzun illər ərzində istifadədən kənarda qalıb. Əkin və biçin işlərinin aparılması, heyvandarlığın inkişafı, suvarma sistemlərinin bərpası və kənd təsərrüfatında istehsalın genişləndirilməsi üçün həmin ərazilərin minalardan təmizlənməsi həyati əhəmiyyət daşıyır. Torpaqlar təhlükəsiz olmadığı müddətdə onların iqtisadi dövriyyəyə qaytarılması və regionun aqrar potensialından tam istifadə edilməsi mümkün deyil.

Məhz buna görə, Hikmət Hacıyevin vurğuladığı kimi, hər zərərsizləşdirilmiş mina yalnız potensial bir təhlükənin aradan qaldırılması deyil, həm də bərpa prosesi istiqamətində atılan konkret addım sayılır. Təmizlənən hər sahə bir ailənin doğma yurduna qayıtmasına, yeni yaşayış məntəqələrinin salınmasına, sosial infrastrukturun qurulmasına və iqtisadi fəaliyyətin genişlənməsinə imkan yaradır. Bu mənada, mina təmizlənməsi həm humanitar, həm də inkişafyönümlü strateji prosesdir.

* * *

Azərbaycanın mina problemi beynəlxalq səviyyədə diqqət mərkəzindədir. Son illərdə ölkə bu məsələnin qlobal gündəlikdə saxlanılması və mina təhlükəsindən əziyyət çəkən dövlətlərə dəstəyin artırılması istiqamətində fəal diplomatik təşəbbüslərlə çıxış edir. Bu fəaliyyət beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və çağırışlara daha geniş diqqət ayrılmasına xidmət edir.

Bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi diplomatik addımların mühüm nümunələrindən biri BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyasının iştirakçı dövlətlərinin XIX Konfransında 19 ölkədən ibarət regionlararası qrup adından çıxış etməsidir. Həmin bəyanatda münaqişələr nəticəsində mina və partlayıcı qurğulardan zərər çəkmiş insanların hüquqlarının qorunmasının vacibliyi vurğulanıb, beynəlxalq ictimaiyyət isə mina təhlükəsinə qarşı mübarizədə daha güclü və operativ dəstəyə çağırılıb.

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev** XQ-yə açıqlamasında bildirdi ki, bu gün minalar təkcə keçmiş münaqişənin ağır mirası deyil, həm də insanların həyat və təhlükəsizliyi, Böyük Qayıdış prosesi və regionun sosial-iqtisadi inkişafı qarşısında ən ciddi maneələrdən biridir: "İşğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər edən, ANAMA yanında İctimai Şuranın üzvləri ilə birlikdə mina təhlükəsinə qarşı maarifləndirmə tədbirlərində iştirak edən bir şəxs kimi deyə bilərəm ki, problemin miqyası çox böyükdür. Bəzi ərazilərdə minalar və partlamamış hərbi sursatlar yaşayış məntəqələrinin, yolların, qəbiristanlıqların, əkin sahələrinin, hətta su və enerji xətlərinin ətrafında geniş şəkildə yerləşdirilib. Xüsusilə qeyd etmək lazımdır ki, mina təhlükəsi yalnız hərbi məsələ deyil. Bu problem insanların öz doğma torpaqlarına təhlükəsiz qayıdışı, kənd təsərrüfatının bərpası, yeni yaşayış məntəqələrinin salınması və ümumilikdə Qarabağın yenidən qurulması prosesinə birbaşa təsir göstərir".

Bu gün Azərbaycanın mina çirklənməsinin miqyasına görə dünyanın ən çox zərər görən ölkələrindən biri olduğuna diqqət çəkən U.Mirzəyev beynəlxalq ictimaiyyətin bu məsələyə daha həssas yanaşmasının



və humanitar minatəmizləmə fəaliyyətinə dəstəyin artırılmasının vacibliyini bildirdi: "Hər zərərsizləşdirilən mina bir insan həyatının xilasına, bir ailənin öz yurduna dönüşünə və Qarabağın bərpasına doğru atılan növbəti addımdır. Hikmət Hacıyevin səsləndirdiyi fikirlər Azərbaycan üçün son dərəcə aktual və həyati əhəmiyyət daşıyan bir məsələnin mahiyyətini əks etdirir".

Belə bir reallıq fonunda "Hər zərərsizləşdirilmiş mina bərpa yolunda atılan bir addımdır" fikri, sadəcə, bəyanat deyil, Azərbaycanın postmünaqişə dövrünə yanaşmasını ifadə edən strateji mövqedir. Buna görə də minatəmizləmə fəaliyyəti yalnız təhlükəsizlik tədbiri deyil, həm də humanitar missiya, sosial məsuliyyət və milli inkişaf strategiyasının mühüm istiqamətlərindəndir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

# Miqrasiya siyasətində balans axtarışı

## *Təhlükəsizlik, yoxsa saxta humanizm?*

**Son on ildir ki, Avropa ardıcıl şəkildə miqrasiya təzyiqi ilə üzləşir. Xüsusilə 2015-ci ildə Yaxın Şərqdəki müharibələr, Afrikanın müxtəlif bölgələrində siyasi qeyri-sabitlik və iqtisadi problemlər milyonlarla insanı daha təhlükəsiz həyat axtarışına çıxmağa məcbur edib. Avropanın cənub sərhədlərində yerləşən ölkələr prosesin əsas yükünü daşıyan dövlətlərə çevrildi. Coğrafi mövqeyinə görə Yunanıstan həm Aralıq dənizi, həm də Türkiyə üzərindən Avropaya keçmək istəyən insanların ilk dayanacaqlarından biri oldu. Minlərlə insan Egey dənizi vasitəsilə bu ölkəyə daxil olur, daha sonra Avropa İttifaqının (Aİ) digər dövlətlərinə getməyə çalışırdı.**

Miqrasiya axınının intensivləşməsi Yunanıstanın qəbul imkanlarını ciddi şəkildə sınağa çəkdi. Sığınacaq prosedurlarının uzanması, qəbul mərkəzlərində sıxlıq, maliyyə yükünün artması və yerli əhalinin narahatlığı hökumətləri daha sərt addımlar atmağa sövq etdi. Ona görə hakimiyyətə gələn mühafizəkar siyasi qüvvələr sərhəd nəzarətinin gücləndirilməsini və qanunsuz miqrasiyaya qarşı daha sərt tədbirlərin görülməsini əsas prioritetlərdən biri elan ediblər. Elə bu günlərdə Yunanıstan parlamenti sığınacaq müraciəti rədd olunmuş şəxslərin daha sürətli deportasiyasını nəzərdə tutan yeni qanun qəbul etdi. Rəsmi Afinanın bu addımı Avropada miqrasiya siyasəti ətrafında gedən müzakirələrin yeni mərhələyə keçdiyini göstərdi.

Hökumətin Aİ-nin hüdudlarından kənarda "qayıdış mərkəzləri" yaratmaq ideyasını da gündəmdə saxlaması Avropada formalaşan daha sərt miqrasiya yanaşmasının tərkib hissəsi kimi qəbul edilə bilər. Sözügedən qərar qeyri-qanuni miqrasiyanın qarşısını almaq və dövlətin inzibati imkanlarını gücləndirmək məqsədi daşısa da, digər tərəfdən beynəlxalq hüquq və Avropanın uzun illər müdafiə etdiyi humanitar dəyərlər ətrafında yeni suallar yaradır.

Yeni qanunun məntiqi sığınacaq almaq hüququ əldə etməmiş şəxslərin ölkədə uzun müddət qalmasının qarşısını almaqdır. Hökumət hesab edir ki, müraciəti rədd olunmuş şəxslərin illərlə ölkə ərazisində qalması həm hüquqi sistemin fəaliyyətini çətinləşdirir, həm də qeyri-qanuni miqrasiyanı təşviq edən amilə çevrilir. Rəsmi Afinanın mövqeyinə görə, sığınacaq proseduru başa çatdıqdan və müraciət rədd



edildikdən sonra həmin şəxslərin ölkədən çıxarılması daha operativ həyata keçirilməlidir. Bununla dövlət resurslarının daha səmərəli istifadə ediləcəyi və sığınacaq sisteminin etibarlılığının qorunacağı düşünülür.

Lakin insan hüquqları təşkilatları və bir sıra beynəlxalq qurumlar bu yanaşmanın potensial nəticələri ilə bağlı narahatlıqlarını ifadə edirlər. Onların fikrincə, deportasiya prosesinin sürətləndirilməsi fərdi işlərin hərtərəfli araşdırılması imkanlarını məhdudlaşdıra, bəzi hallarda şəxsin ölkəsinə qaytarılması onun təhlükəsizliyi üçün risk yarada bilər. Bu səbəbdən hüquq müdafiəçiləri sürət amilinin hüquqi təminatları zəiflətməməsinin vacibliyini vurğulayırlar.

Yunanıstan hökumətinin gündəmə gətirdiyi "qayıdış mərkəzləri" ideyasına gəldikdə, qərar Avropada daha geniş müzakirələrə səbəb olub. Konsepsiya mahiyyət etibarilə sığınacaq almaq hüququ qazanmayan şəxslərin Aİ-dən kənar ərazilərdə yerləşən xüsusi mərkəzlərdə saxlanılması və sonrakı deportasiya proseslərinin oradan həyata keçirilməsini nəzərdə tutur. Bu modelin tərəfdarlarının fikrincə, qeyri-qanuni miqrasiya marşrutlarının cəlbediciliyini azalda və Avropa ölkələri üzərindəki təzyiqi yüngülləşdirə bilər. Əleyhdarlar isə bunun məsuliyyətin üçüncü ölkələrə ötürülməsi anlamına gəldiyini və hüquqi baxımdan mürəkkəb problemlər yaradacağını bildirirlər.

Yeri gəlmişkən, Aİ-nin özündə də miqrasiya siyasətinin gələcəyi ilə bağlı ciddi dəyişikliklər baş verir. Uzun müddət üzv ölkələr arasında yükün bölüşdürülməsi, qaçqınların yerləşdirilməsi və sərhəd təhlükəsizliyi məsələlərində fikir ayrılıqları mövcud olub. Cənub ölkələri daha çox həmrəylik tələb etdiyi halda, bəzi şimal və şərq ölkələri əlavə miqrant qəbul etmək istəmədiklərini bildirirdilər. Son illər qəbul edilən yeni miqrasiya və sığınacaq paktları bu balansı yenidən qurmağa yönəlib. Bununla belə, praktiki səviyyədə əsas prioritetlərdən birinin qeyri-qanuni girişlərin azaldılması olduğu açıq şəkildə görünür.

Miqrasiya siyasətinin sərtləşdirilməsinə təsir edən əsas amillərdən biri də ictimai rəydə baş verən dəyişikliklərdir. Avropanın bəzi ölkələrində aparılan sorğular göstərir ki, vətəndaşların əhəmiyyətli hissəsi nəzarətsiz miqrasiyanın sosial xidmətlər, mənzil bazarı və əmək bazarı üzərində əlavə yük yaratdığını düşünür. Siyasi partiyalar da bu narahatlıqları seçki kampaniyalarında fəal şəkildə gündəmə gətirirlər. Nəticədə hökumətlər daha sərt siyasət tətbiq etməklə həm dövlət nəzarətini gücləndirmək, həm də seçicilərə problemlərin həll olunduğunu nümayiş etdirmək istəyirlər.

Bundan əlavə, Avropanın demoqrafik vəziyyəti daha mürəkkəb mənzərə yaradır. Əhalinin qocalması və işçi qüvvəsinin azalması bir çox ölkələrdə xarici əmək resurslarına ehtiyacı artırır. Bu səbəbdən hökumətlər bir tərəfdən qeyri-qanuni miqrasiyanı məhdudlaşdırmağa çalışarkən, digər tərəfdən qanuni miqrasiya kanallarını genişləndirmək istiqamətində siyasət həyata keçirirlər.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, hüquqşünas**



Artıq Avropa İttifaqına üzv dövlətlər öz daxili qanunvericiliyində miqrasiya siyasətini sərtləşdirməyə, miqrantlara münasibətdə müxtəlif məhdudiyyətlər tətbiq etməyə başlayıb. Ümumən Aİ-nin dəfələrlə digər dövlətlərin, həmçinin Rusiyanın miqrasiya siyasətində məhdudlaşdırıcı addımlar atmasına sərt münasibət göstərdiyinin şahidi olmuşuq. İndi Avropa özü bu cür addımları heç də onlardan az atmır. Yunanıstan kimi dövlətlərin bu istiqamətdə fəaliyyəti təsadüfi deyil. Aİ-nin cənub sərhədlərində yerləşən Yunanıstan Afrikadan və ərəb ölkələrindən Avropaya miqrasiya etmək istəyən şəxslərin əsas keçid nöqtələrindən biridir. Buna görə Yunanıstan bu prosesdə aktiv rol oynayır. Bu isə təbii olaraq Aİ-nin digər üzv dövlətlərinin istəyi ilə həyata keçirilən siyasətdir.

Ümumilikdə, hesab edirəm ki, belə addımlar Avropanın uzun illər təbliğ etdiyi dəyərlərlə ziddiyyət təşkil edir. İnsan hüquq və azadlıqları, demokratiya, hüququn aliliyi və digər prinsiplər insanların daha yaxşı həyat axtarmaq hüquqlarını da əhatə edir. Hazırda həmin hüquqların açıq şəkildə məhdudlaşdırıldığını müşahidə edirik. Əlbəttə, prosesə belə əsaslandırma gətirilə bilər ki, bu, Aİ-yə üzv dövlətlərin daxili siyasət məsələsidir. Lakin əgər onlar bütövlükdə dünyaya insan hüquqları və azadlıqları, demokratik dəyərlər barədə çağırışlar edirlərsə, o zaman həmin dəyərləri pozmamalıdırlar.

Bu cür addımların gələcəkdə dünyada daha ciddi problemlər yarada, Avropanın beynəlxalq nüfuzuna ciddi zərbə vura bilər. Görünür, onlar bu riskləri nəzərə alıblar. Çünki hazırda dünyada ciddi geosiyasi qarşıdurmalar və gərginliklər mövcuddur. Bu qarşıdurmalar fonunda, yəqin ki, nüfuza dəyəcək zərərin Avropa üçün o qədər də əhəmiyyət daşımadığı qənaətindədirlər. Yunanıstanın bu məsələdə xüsusi aktivliyini məhz onun coğrafi mövqeyi ilə əlaqələndirərdim. Aralıq dənizi sahillərində yerləşən Yunanıstan Avropanın cənub qapılarından biri hesab olunur. Həmin qapının bağlanması vasitəsilə Avropa İttifaqı öz məqsədini və miqrasiya siyasətindəki prioritetlərini açıq şəkildə ortaya qoymuş olur.

# Xilaskar liderin yüksəliş marafonu

**Görkəmli dövlət və siyasət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin ilk dövrü Naxçıvandan başlamış, bu böyük azərbaycanlı həyatının ilk illərini bu torpaqda yaşamış, təhsilini Naxçıvanda almışdır. Naxçıvan mühiti, ilk təhsil və tanınmış müəllimləri onun formalaşmasında mühüm rol oynamışdır.**



Ulu öndərin özü dəfələrlə bu torpağın qeyri-adiliyindən, əsrarəngiz təbiətindən, dağlarından, insanlarından, kəskin kontinental iqlimindən bəhs etmiş və həyatında Naxçıvanın önəmli rol oynadığını dəfələrlə, həm də minnətdarlıqla xatırlamışdır.

Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərini çəkmiş görkəmli rəssam Nikos Safronov Heydər Əliyevin 80 illik yubileyi münasibətilə onun portretini çəkərkən dahi insanla ünsiyyətdə olduqdan sonra bu qənaətə gəlmişdir ki, Heydər Əliyev Tanrının yaratdığı möcüzədir, belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir. N.Safronov yazmışdır: "Heydər Əliyev gözəl, alicənab və çox ağıllı bir insandır. Mən ona dərin rəğbət bəsləyirəm və həmişə ona baxarkən düşünürəm ki, görəsən, Tanrı belə insanları necə yaradır? Lakin Naxçıvana, Prezidentin vətəninə getdikdən, oranın füsunkar təbiətini, gözəlliyini gördükdən sonra bunların necə bir qüvvə olduğunu başa düşdüm, başa düşdüm ki, Naxçıvan hər bir sərkərdənin, hər bir dahi insanın güc, qüvvət ala biləcəyi bir yerdir".

Heydər Əliyevin də uşaqlıq və gənclik illəri Naxçıvanda – bu əsrarəngiz məkanda keçmişdir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan şəhərində anadan olmuşdur. Balaca Heydərin fitri istedadı, dərin zəkası, çalışqanlığı ətrafdakıların diqqətini cəlb etmiş, ona yaşıdlarından fərqli münasibət bəslənilmişdir.

Keçən əsrin 20-ci illərində Naxçıvanda bir inkişaf, intibah baş vermişdir. Məktəb və mədrəsələrdə diqqəti çəkən müəllimlər gənclərin təlim-tərbiyəsi ilə ciddi məşğul olurdular. Bu barədə bəhs edən Heydər Əliyev demişdir: "XX əsrin əvvəllərində Naxçıvanda təhsil və mədəniyyət çox geniş olmuşdur. Burada çox yüksək səviyyəli məktəblər var idi. Naxçıvanda insanlar çox yüksək təhsil alırdılar. Məktəblərdə verilən dərslər və şagirdlərin dərsləri qavramaları çox yüksək səviyyədə idi".

Heydər Əliyev Naxçıvan şəhərində təhsil almışdır: əvvəlcə 1 nömrəli beynəlmiləl orta məktəbdə, sonra isə pedaqoji məktəbdə. O, orta məktəbin yeddinci sinfini bitirdikdən sonra pedaqoji məktəbə daxil olmaq qərarına gəlmişdir. Halbuki onuncu sinfədək oxuya bilərdi. Ancaq qərara almışdı ki, müəllim olmalıdır. Görünür, o illərdə Naxçıvanın pedaqoji məktəbinin (onu bəzən texnikum da adlandırırlar – İ.H.) və ümumiyyətlə, müəllimliyin böyük nüfuza malik olması da əsas rol oynamışdı.

Pedaqoji məktəbdə Heydər Əliyevin ədəbiyyat müəllimi olmuş Lətif Hüseynzadə onun texnikuma qəbul olunmasını bu cür xatırlayır: "Heydərin atası Naxçıvanda nüfuzlu şəxs idi. O mənim atamla da tanış idi... 1936-cı tədris ili ərəfəsində oğlu ilə birlikdə bizə gəldi. Əlirza kişi dedi: "Heydər müəllim olmaq istəyir, bu elə mənim də arzumdur". Sentyabrın 1-dən artıq 10 gün keçirdi, dərslər başlamışdı. Biz o vaxtlar tələbələri müsabiqə yolu ilə qəbul edirdik, onları sorğu-suala tutur, bilik səviyyələrini yoxlayırdıq... Mən də Heydəri yoxlamaq qərarına gəldim. Dildən, ədəbiyyatdan suallar verməyə başladım. O, gözəl Azərbaycan dilində əla cavablar verdi. Heydər mənim çox xoşuma gəldi. Mən dedim: "Ondan yaxşı müəllim olar". Biz onunla birlikdə direktor Kazım Talıblının yanına getdik. Mən ona dedim: "Bu uşağı itirmək olmaz, o çox hazırlıqlıdır". Direktor təklif etdi ki, "onu riyaziyyatdan yoxlayaq". Riyaziyyat müəllimi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin məzunu Tofiq Bektaşi də abituriyentdən razı qaldı. Heydərin qəbul məsələsi həll olunandan sonra məktəbin direktor müavini onu sinfə aparıb tələbələrə və müəllimə təqdim etmişdir.

Texnikum illəri Heydərin həyatında çox böyük rol oynamışdır. O, müəllimlərin tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, hərbi təlimlə, idmanla, Şamil Qazıyevin dərnəyində rəssamlıqla da məşğul olmağa vaxt tapmışdı. Puşkinin "Yevgeni Onegin", "Ruslan və Lyudmila", "Kapitan qızı" əsərlərinə çəkdiyi illüstrasiyalara görə Heydər müsabiqənin qalibi olmuşdur. Tələbə yoldaşları arasında Heydər Əliyev Lev Nikolayeviç Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyan ilk tələbə olmuşdu. Bunu ona rus dili müəllimi Həsən bəy Qazıyev məsləhət görmüşdü. Heydər Əliyev tez-tez şəhər yarışlarında texnikumun idman şərəfini qorumuşdu. Onun teatra da sonsuz marağı var idi.

Heydər Əliyev 1939-cu ildə pedaqoji texnikumu fərqlənmə ilə bitirmiş, 2027 nömrəli attestat almışdı. 30 fənnin hamısından onun qiymətləri "əla" olmuşdur. Diplomda yazılırdı: "Vətəndaş Əliyev Heydər Əlirza oğlu 1938/39 ilin tədris planının bütün tələblərini yerinə yetirdiyi üçün ibtidai məktəbdə - I-IV siniflərdə dərs aparmaq hüququna malikdir".

2002-ci il iyunun 18-də Naxçıvanda Bəhruz Kəngərli Muzeyinin açılışındakı çıxışında Heydər Əliyev bu binadakı təhsil illəri haqqında belə demişdi: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimlərimin hamısı yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb. Əksinə, burada olduğu kimi, tələbələr arasında da seçilmişəm. Bax ona görə də bu divarlar mənə əzizdir... Mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çoxlu adamlar görmüşəm, böyük şəxsiyyətlərlə üzləşmişəm. Kimsə yaddaşımda əbədilik qalıb, kimsə silinib gedib. Ancaq sizə demək istəyirəm ki, mənim üçün ən yaddaqalan, ən əziz Naxçıvandakı müəllimlərim olub. İndiyədək mən onları adbaad xatırlayıram... Mən Lətif müəllimin, təkcə Lətif müəllimin yox, digər müəllimlərimin də dərslərini xatırlayıram. Onların şəxsən mənə verdiyi tövsiyələr həyatda həmişə köməyim olub... Mənim üçün müəllimlərim, birlikdə oxuduğum məktəb yoldaşlarım, bu binanın divarları, sinif otaqları həmişə əziz olub. Bura gələndə mənə elə gəldi ki, öz doğma ocağıma gəlirəm".

Göründüyü kimi, Naxçıvanda aldığı təhsili Ulu Öndərimiz sonrakı illərdə dəfələrlə minnətdarlıqla xatırlayırdı: "O dövrdə aldığım təhsil gələcək həyatımın bütün mərhələlərində mənə yardım edibdir". Altmış ildən sonra, ona dərs demiş müəllimləri və onların tədris etdikləri fənlərin adlarını dəqiqliklə söyləməsi Ümummilli liderimizin bir tərəfdən müəllimlərinə bəslədiyi dərin hörmətin ifadəsi idisə, digər tərəfdən bu dahi insanın fenomen yaddaşa malik olduğunu göstərirdi. "Heydər Əliyev iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında, kompüter insandır".

Heydər Əliyevi gənc yaşlarından tanıyanların hamısı onun xarakterinin bir cəhətini xüsusi olaraq vurğulayırlar – bu oğlan bütün cəhətlərilə anadangəlmə Lider idi. Onun liderliyini ailəsində də, məktəbdə də, texnikumda da, daha sonralar dostlarının əhatəsində də sözsüz qəbul edirdilər. Halbuki dostları arasında ondan yaşca da, rütbəcə də, vəzifəcə də böyük olanlar vardı. Çoxları artıq o zamanlar güman edirdilər ki, onun parlaq gələcəyi var.

Sonrakı dövrlərdə də müəllim peşəsini çox yüksək qiymətləndirən Heydər Əliyev texnikumu bitirən dövrdə müəllim olmaq istəyi bir qədər azalmışdı. Onun arzusu memar olmaq idi. Bu arzu ilə də o, 1939-cu ildə Bakıya yollandı. Sənədlərini Sənaye İnstitutunun Memarlıq fakültəsinə verdi. O, memarlıq ixtisasına qəbul olmaq üçün 13 imtahan verməli oldu. İmtahanların hamısından "əla" alıb instituta qəbul edildi. Heydər burada da tələbə yoldaşları arasında zəhmətsevərliyi, inadkarlığı, zəngin bilik ehtiyatı və bu ehtiyatı yorulmadan artırmaq cəhdləri ilə seçilirdi. İxtisas fənlərinin çoxunu rus dilində tədris edirdilər. Bu da gənc Heydərin rus dilində nitqinin daha da təkmilləşməsinə imkan yaradırdı.

Heydər Əliyevin öz sözlərinə görə, o, tələbəlik illərində də rəssamlıqla məşğul olmağa davam etdirirdi və onun rəsm əsərləri Bakının sərgi salonlarında uğurla nümayiş olunurdu.

İlk iki semestri həmişəki kimi uğurla, yüksək qiymətlərlə başa vuran gənc Heydər ailənin maddi durumu ilə əlaqədar institutdan möhlət götürmüş və təhsilini yarımçıq qoymalı olmuşdur. Qardaşı Aqil Əliyevin xatirələrindən aydın olur ki, Heydər institutda cəmi bir il oxumuşdur. Bakıda yaşamaq maddi cəhətdən çox çətin olduğundan onlar Naxçıvana qayıtmışdılar. Heydər Əliyevin gənclik dostu, əməkdar hüquqşünas İbrahim İsmayılov bu barədə müsahibə verərək demişdir: "Heydər, mən və Aqil 1940-cı ilin avqustunda qatarla Naxçıvana qayıtdıq".

Naxçıvana qayıdan Heydər Əliyev Naxçıvan Daxili İşlər Xalq Komissarlığının Arxiv şöbəsində işə düzəlmişdir. Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət Arxivində bununla əlaqədar rəsmi sənəd var: "15 oktyabr 1941-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Arxiv şöbəsi üzrə 80 nömrəli əmrə əsasən və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığı ilə (baş leytenant, yoldaş Quliyev) Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul edilmişdir".

6 iyun 1942-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının baş leytenantı yoldaş Quliyevin sanksiyasına əsasən, elmi işçi Heydər Əliyev Mərkəzi Dövlət Arxivinin Məxfi şöbəsinə müdir vəzifəsinə keçirilmişdir.

Buna qədər gənc Heydər rus dilini əməlli-başlı öyrənmişdi, sənədləri nöqsansız yazmağı və tərtib etməyi bacarırdı. Hərbi Komissarlıqdan da kömək üçün tez-tez ona müraciət edilirdi. O vaxtlar Naxçıvanda, ümumiyyətlə, savadlı adamlar kifayət qədər deyildi, ona görə də Heydər kimiləri göydə axtarırdılar.

Elə o vaxtdan Heydər Əliyev dövlət təhlükəsizliyi xətti üzrə də çalışmağa başlamışdı. O, arxivin məxfi hissəsi ilə bağlı xüsusi tapşırıqları yerinə yetirirdi. Bu fəaliyyət orduda xidmətə bərabər tutulduğu üçün qanunla hərbi qulluqdan azad edilmişdi.

Heydər Əliyev Naxçıvan MSSR Hərbi Komissarlığının 3 iyun 1943-cü il rəsmi məktubuna və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığına əsasən, 22 nömrəli əmrlə (mayor, yoldaş Nağıyev) hərbi xidmətə çağırışla əlaqədar tutduğu vəzifədən azad olunmuşdur. Daha sonra 14 iyul 1943-cü ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığı nəzdində 45 nömrəli əmrlə müvəqqəti Naxçıvan MSSR Xalq Komissarları Sovetinə Ümumi şöbənin müdiri təyin edilmişdir. 17 may 1944-cü ildə isə başqa işə keçdiyi üçün 27 nömrəli əmrlə Heydər Əliyev Naxçıvan MSSR Xalq Komissarları Sovetinin Ümumi şöbəsinin müdiri vəzifəsindən azad edilmişdir.

Heydər Əliyev Rusiya jurnalisti Andrey Karaulova 1989-cu ilin noyabrında verdiyi müsahibədə ilk xidməti addımlarını belə təsvir etmişdir: "1941-ci ildən mən Naxçıvan MSSR-in NKVD-sində... Arxiv şöbəsinin məxfi hissəsinin müdiri vəzifəsində işləyirdim. Sonra Muxtar Respublikanın Xalq Komissarları Sovetində şöbə müdiri, 1944-cü ildən isə Xalq Daxili İşlər Komissarlığı – Dövlət Təhlükəsizliyi Nazirliyi və Dövlət Təhlükəsizliyi Komitəsində əməliyyat işində işləmişəm".

1944-cü il yanvarın 27-də Heydər Əliyev Dövlət Təhlükəsizliyi Xalq Komissarlığına əməliyyat müvəkkili vəzifəsinə işə götürülməsi barədə ərizə yazmışdır. 1944-cü ilin mayında isə o artıq XDTK-nın leytenant rütbəsini daşıyan əməkdaşı idi. O vaxt onun 21 yaşı təzəcə tamam olmuşdu. Dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev çox çətin və şərəfli yol keçmişdir.

Təhlükəsizlik orqanlarında xidmət etmək nə qədər şərəfli idisə, bir o qədər də ağır və riskli idi. Bu orqanlara işləmək çoxlarının arzusu olsa da, lakin oraya seçilmiş adamları götürürdülər. Təhlükəsizlik orqanlarında işləmək üçün təkcə maraq və arzu kifayət deyildi, vətənə hədsiz məhəbbət, səbir, dözüm, güclü analitik təfəkkür, sərbəst qərar qəbul etmək bacarığı və digər keyfiyyətlər tələb olunurdu. Heydər Əliyevdə bunların hamısı cəmlənmişdi.

Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarının sıralarında yalnız öz şəxsi keyfiyyətləri – dərin erudisiyası, hərtərəfli dünyagörüşü, parlaq zəkası nəticəsində vəzifə pillələrində addım-addım irəliləmişdir. O, XX əsrin 40-cı illərində Azərbaycan SSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığında gedən prosesləri diqqətlə izləmiş, gənc əməkdaş kimi dövlət təhlükəsizliyi orqanları qarşısında qoyulmuş vəzifələri dərindən öyrənmişdir. Hər vəchlə təcrübəsini artırmağa, əməliyyat işinin sirlərini dərindən öyrənməyə çalışmış, yaşlı əməkdaşların təcrübələrindən bəhrələnmişdi.

Heydər Əliyev 1945-ci ilin iyun-iyul aylarında Bakı Diyarlararası Məktəbin əməliyyat işçilərinin peşə hazırlığının artırılması üzrə qısamüddətli kursu əla qiymətlərlə bitirmişdir.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarına gəlişi II Dünya müharibəsi və Cənubi Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət aldığı dövrə təsadüf etmişdir. Cənubi Azərbaycanda və Sovet Azərbaycanında cərəyan edən proseslər, ayrı-ayrı vaxtlarda doğma Vətənə münasibətdə baş vermiş tarixi ədalətsizliklər, milli ziyalılarımızın daim təqib olunması gənc Heydər Əliyevi düşündürmüşdü. O, Naxçıvan MSSR XDİK-da İran ərazisi istiqamətinə nəzarət edərək Cənubi Azərbaycanda sovet xüsusi xidmət orqanı əməkdaşlarının əməliyyatlarının əks-kəşfiyyat mühafizəsində bu və digər şəkildə iştirak etmişdir.

1944-1946-cı illər Naxçıvanın idarəetmə və hüquq-mühafizə orqanlarında çalışan əməkdaşlar üçün bu illər Cənubi Azərbaycanda başlayan qızğın hadisələrlə bağlı ən gərgin və dramatik bir dövr idi. Heydər Əliyev Azərbaycan xalqının birləşməsi üçün olduqca əlverişli şəraitin yarandığını görürdü. Lakin Moskva, əfsuslar olsun ki, işi axıra çatdırmadı. ABŞ və Böyük Britaniyanın təzyiqləri nəticəsində SSRİ öz qoşunlarını Cənubi Azərbaycandan çıxardı. 1946-cı il aprelin 4-də imzalanan Sovet-İran sazişi ilə Cənubi Azərbaycan məsələsi İranın daxili işi hesab edildi. Bundan istifadə edən İran qoşunları Cənubi Azərbaycanın azərbaycanlı əhalisinə qarşı zor tətbiq etdi, minlərlə insan güllələndi, edam və həbs edildi. Minlərlə soydaşımız SSRİ-yə sığınmaq arzusu ilə Naxçıvan sərhədinə gəldi. Bir neçə günün içində on minə yaxın soydaşımız sərhədi keçdi.

Naxçıvana gələn qaçqınların ardı-arası kəsilmirdi. Yaranmış vəziyyətdən istifadə edən İran, ABŞ və İngiltərə kəşfiyyat orqanları bu qaçqınların sırasına öz agentlərini də göndərirdilər.

Belə bir qarışıq dövrdə Heydər Əliyevin hansı potensiala malik olduğu aydın sezilməyə başladı. Onun Sovet-İran sərhədinin Naxçıvan hissəsində casusların tutulması, ifşa edilməsi istiqamətində fəaliyyəti yuxarı dairələrin diqqətini cəlb etdi. Təsadüfi deyildir ki, Heydər Əliyev bu dövrdə ilk mükafatına – "Əmək rəşadətinə görə" medalına layiq görülmüşdür. 1947-ci ildə artıq baş leytenant olan Heydər Əliyev Naxçıvan Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi təyin olunmuşdur. Bu şöbə Naxçıvan təhlükəsizlik orqanlarının əsas bölmələrindən biri idi, İran və Türkiyə xüsusi xidmət orqanlarına qarşı əks-kəşfiyyat işləri aparırdı.

Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi nazirinin 1949-cu il 10 may tarixli 66 saylı əmri ilə Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi, baş leytenant Heydər Əlirza oğlu Əliyev, vəzifəsi saxlanılmaqla, bir il müddətinə təhsil almaq üçün SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqraddakı (indiki Sankt-Peterburq – İ.H.) xüsusi məktəbinə ezam edilmişdir.

Heydər Əliyev 1950-ci il iyulun 6-da SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Ali operativ rəhbər işçiləri hazırlayan məktəbini fərqlənmə ilə bitirərək Naxçıvana qayıtmışdır. Məktəbi bitirdikdən sonra ona verilmiş xasiyyətnamədə yazılırdı: "Baş leytenant Heydər Əlirza oğlu Əliyev 1949-cu ilin mayından 1950-ci ilin iyuluna qədər SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin Leninqraddakı ali operativ işçilərin hazırlıq məktəbində təhsil almış və özünü yalnız yaxşı cəhətdən göstərmişdir. Təhsilinə ciddi yanaşmış, tədris materialı üzərində səylə çalışmış, onu dərindən öyrənmişdir. Sinif və seminar imtahanlarına ciddi şəkildə hazırlaşmış, dərsdən əlavə vaxtlarında isə öz siyasi ideya və ümumtəhsil səviyyəsinin artırılması üzərində bütün bacarığından yararlanmışdır.

Bunun nəticəsində tədris proqramı üzrə zaçot və imtahanlardan yüksək qiymətlər almışdır. Təhsil müddəti ərzində Heydər Əliyev dərs əlaçısı olmuş, buna görə də ona məktəbin adından təşəkkür elan edilmişdir. Onun şəkli məktəbin "Şərəf lövhəsi"nə vurulmuşdur. Təhsil müddəti ərzində yoldaş Əliyev sosial-iqtisadi fənlər sahəsində geniş biliklər əldə etmiş, öz mədəni və ümumtəhsil səviyyəsini qaldırmış, çekist işi məsələləri üzrə biliklərini genişlənmişdir. O, operativ məsələlərin həllində lazımi, düzgün qərarlar qəbul edir, operativ şəraitdə vəziyyəti sərbəst və düzgün qiymətləndirə bilir, operativ sənədləri hərtərəfli və əsaslı tərtib edir... Yoldaş Əliyev öz yüksək səviyyəli təhsilini ictimai və partiya işi ilə uzlaşdıra bilir. İntizamlıdır, mənəvi cəhətdən möhkəmdir, fərasətlidir, məişətdə sadədir, ədəblidir. Nəticə: Vəzifədə irəli çəkilməyə layiqdir".

*(ardı var)*

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan bölməsinin sədri, akademik***

# Qeyri-neft-qaz sektoru artıq iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrilib

**Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov İctimai Televiziya və AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

**– Mikayıl müəllim, Azərbaycan iqtisadiyyatının durumu hər bir vətəndaşımızı düşündürən məsələdir. Bizim gəlirlərimiz, iş yerlərimiz, gündəlik həyatımız və gələcək planlarımız bundan asılıdır. Bu mövzuda İctimai Televiziyaya və Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibəyə vaxt ayırdığınıza görə sizə təşəkkür edirik.**

– Çox sağ olun.

**– Azərbaycan çox böyük həcmdə strateji valyuta ehtiyatına malikdir və ölkənin xarici borc səviyyəsi çox aşağıdır. Bu da ölkəyə xarici təsirlərdən, şoklardan qorunma immuniteti, dayanıqlıq verir. Digər tərəfdən isə bu, istifadə olunmamış inkişaf potensialı kimi qiymətləndirilir. Bu iqtisadi yanaşma orta və uzunmüddətli perspektivdə nələri vəd edir?**

– Sualı “biz haradan gəlirik və hara gedirik” kimi cavablandırmaq istərdim. Düşünürəm ki, biz hədəflərimiz barədə danışarkən, “ölkə iqtisadiyyatını necə görmək istəyirik?” sualı ortaya çıxır. Bu sualın cavabı da ondan ibarətdir ki, ölkə iqtisadiyyatını bir tərəfdən möhkəm maliyyə təməlinə söykənən, digər tərəfdən isə şaxələndirilmiş formada, yəni hər hansı bir təbii sərvətin, – bizim halda bu neft-qazdır, – yaxud hər hansı bir sektorun üzərində deyil, bir sıra sağlam əsaslara malik iqtisadi sektorların mövcudluğunda görmək istəyirik.

Digər tərəfdən, biz istər iqtisadçı, istər dövlət siyasətini həyata keçirən struktur, istərsə də vətəndaş mövqeyindən yanaşsaq, yəqin ki, hər bir vətəndaş üçün ən vacib olan amil iqtisadiyyatın yeni iş yerləri yaratmaq potensialıdır. Burada bəlli səviyyədə bilik və bacarıq tələb edən, ləyaqətli həyat üçün yol açan iqtisadi imkanlardan söhbət gedir.

Təbii olaraq, burada növbəti sual ondan ibarətdir ki, buna necə nail olmalıyıq? Çünki bir çox hallarda, qeyri-neft sektorunun inkişafı barədə prioritet istiqamət kimi danışırıq. Amma təbiidir ki, burada hər bir sahə prioritet ola bilməz. Biz aydın şəkildə öz güclü və zəif tərəflərimizi, o cümlədən vaxt amilini təhlil edərək, ölkə iqtisadiyyatında istər sənaye, istər xidmət sahəsində prioritet sektorların yaradılmasını əsas tuturuq.

Burada bizim imkanlarımız və məhdudiyyətlərimiz nələrdir. İmkanlarımıza siz toxundunuz. Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uzun illər ərzində uğurla həyata keçirilən siyasət nəticəsində Azərbaycanın möhkəm makroiqtisadi və makrofiskal dayanıqlılığı təmin edilib. Bəli, bizim valyuta və qızıl ehtiyatlarımız bu gün ölkənin ümumi daxili məhsulunu (ÜDM) üstələyən həcmdədir. Son illərin dinamikası onu göstərir ki, bütün xarici şoklara, böhranlara baxmayaraq, ölkənin xarici borcu azalma tendensiyasındadır və ehtiyatları artır. Bu bizim ümumi mənzərəmizdir.

Digər tərəfdən, daxili bazarımızın həcmi məhduddur. Başqa sözlə, uğurlu və dayanıqlı iqtisadi model yalnız daxili bazara köklənən model ola bilməz. Burada mütləq şəkildə ixracyönümlü iqtisadi modeldən danışmalıyıq və ixracyönümlülük yalnız fiziki mal və məhsulların istehsalı və ixracı ilə məhdudlaşmamalıdır. Bu, o cümlədən ölkə daxilində göstərilən xidmətlərin ixracyönümlü olması mənasına da gəlir. Bunun gözəl nümunəsi turizm sektorudur və yaxud maliyyə, yaxud digər peşəkar xidmətlər sektorudur ki, burada mal və məhsul istehsalı deyil, xidmət göstərilməklə ölkəyə xarici valyuta axını, sadə dillə desək, gəlirin təmin edilməsi həyata keçirilir.

Təbii ki, biz bu barədə danışacağıq. Bu hədəflərə nail olmaq üçün bir sıra elementlər, yəni dövlət siyasətinin aydın və sabit olması, həm dövlət, həm özəl investisiyalar, insan kapitalı və bacarıqları vacibdir. Çünki istənilən iqtisadiyyat rəqabətli qiymətə və keyfiyyətə malik olan məhsulların, xidmətlərin istehsal edilməsi bacarığı ilə ölçülür. Xüsusilə də neft-qaz sahəsindəki kimi ənənələrimizin, dərin ekspertizamızın olmadığı sahələrdə bu, birmənalı və birbaşa olaraq vətəndaşlarımızın, şirkətlərimizin, iqtisadi aktorlarımızın nou-hau, texnologiya, yaxud bilik və bacarıq səviyyəsinə bağlanır.

**– Hazırda ümumi daxili məhsulda qeyri-neft-qaz sektorunun hansı istiqamətləri, hansı sahələri üstünlük təşkil edir? Siz qeyri-neft-qaz sektorunu və prioritet sahələr məsələsini qeyd etdiniz. İqtisadi inkişafın davamlılığını qorumaq üçün ənənəvi sahələrlə yanaşı, hansı digər istiqamətləri gücləndirməyə ehtiyac var? Bu istiqamətdə investisiyalar hansı rol oynaya bilər?**

– Yenə də böyük mənzərədən danışsaq, bizim başlanğıc nöqtəmizə və bu gün olduğumuz vəziyyətə nəzər salmağımız faydalı olar. Əgər 2025-ci ildə iqtisadiyyatımızın, ümumi daxili məhsulun strukturuna nəzər salsaq, görərik ki, ölkəmizin iqtisadiyyatının 71 faizindən çoxu, yəni 71,5 faizi qeyri-neft sektorudur. Deməli, neft-qaz sektoruna düşən pay 30 faizdən azdır. Biz 20 il əvvəlki dövrə nəzər salsaq, bu rəqəm 45 faizə çatmırdı, 43,5–43,6 faiz civarında idi. Bu, keçdiyimiz yolu göstərir. Onu göstərir ki, həyata keçirilən siyasət uğurludur. Baxmayaraq ki, qeyd etdiyim bu 20 illikdə, – yəqin xatırlayırsınız, – ölkədə kifayət qədər böyük və bizim müasir iqtisadi tariximizdə dərin bir devalvasiya şoku da yaşanıb.

Bütün bunlara baxmayaraq, ölkə iqtisadiyyatının strukturunun dəyişdirilməsi müəyyən mənada baş verib. Lakin bu gün o, bizi qane edən səviyyədədirmi? Deyil. Ona görə də burada “hansı sahələri biz aparıcı və prioritet sahələr kimi görürük?” sualı əsas sual kimi ortaya çıxır. Burada düşünürəm ki, bir az öncə qeyd etdiyim prioritet sahələrin müəyyənləşdirilməsi inklüziv prosesdir. Başqa sözlə, bu, tək bir nazirlik səviyyəsində deyil, vahid hökumət koordinasiyası şəklində həyata keçirilən fəaliyyətlə, o cümlədən İqtisadi Şura mexanizmi vasitəsilə formalaşır və icra edilir. Biz ölkəmizdə bir sıra sahələri bu gün prioritet sahələr kimi görürük; dövlətin istər institusional dəstək mexanizmlərini, istər diqqətini və sahibkarlara yönəlmiş təşviqini daha çox bu sahələrə yönəltməyə çalışırıq.

Burada mən, ilk növbədə, qeyri-neft sənayesini qeyd edərdim. Çünki sirr deyil ki, istənilən ölkənin sənaye potensialı onun iqtisadi dayanıqlılığını təmin edir. Azərbaycana gəldikdə, bizim bir sıra üstünlüklərimiz var. Onların əksəriyyəti bir çox digər sektorlara da aid ola bilər. Lakin sənayenin özəlliyi ondan ibarətdir ki, ticarətdən fərqli olaraq, bu, daha uzunmüddətli baxış tələb edir. Çünki qoyulan sərmayələrin qaytarılması prosesi daha uzundur. Bilik, bacarıq, texnologiya, mühəndislik, məhsul istehsalı, məhsulu marketinq edib bazara çıxarmaq imkanı – yəni özündə, əgər belə demək olarsa, insan kapitalına və nou-hauya bağlı olan sahələri inkişaf etdirir. Azərbaycanın üstünlüklərinə gəldikdə, burada siyasi sabitlik, makroiqtisadi və makrofiskal sabitlik elementləri, sənaye üçün çox münasib olan enerji qiymətləri, infrastruktur təminatı kimi amillər bu gün ölkəmizin üstün tərəflərini təşkil edir.

Qeyri-neft-qaz sənayesindən danışarkən, dağ-mədən sektorunun inkişafında da böyük potensial görürük. Bunun həm təbii, həm də tarixi səbəbləri var. Təbii səbəb ondan qaynaqlanır ki, ölkəmiz dağ-mədən sahəsində vacib olan geoloji ehtiyatlarla zəngindir. Tarixi səbəb dedikdə isə mən onu nəzərdə tuturam ki, bizim böyük Zəfərimizdən öncə Azərbaycan Respublikasının geoloji ehtiyatlarının yalnız cüzi bir həcminə çıxışımız var idi. Çünki dağ-mədən sahəsi üçün əksər geoloji ehtiyatlarımız, o cümlədən qızıl, mis, gümüş, ola bilsin ki, kritik minerallar, – əsasən işğaldan azad edilmiş ərazilərdə yerləşir. Bu gün biz artıq qısa müddət keçməsinə baxmayaraq, o sahənin verdiyi nəticələri görürük. Biz bu sahədə çox nikbinik və onu da xatırladım ki, möhtərəm Prezidentimizin aprel ayında imzaladığı müvafiq Sərəncama əsasən hazırda dağ-mədən sənayesinin və metallurgiyanın inkişafı üzrə, – çünki bunlar bir-biri ilə bağlı olan sahələrdir, – dövlət proqramı layihəsinin hazırlanması yekun mərhələdədir.

Həmçinin mən burada kimya sənayesini də qeyd etmək istərdim. Bunun əsas səbəbi ondan ibarətdir ki, ölkədə zəngin xammal potensialı var. Bu da bizim təbii neft və qaz sektorunun fəaliyyətindən irəli gəlir - bir sıra yüksək dəyər yarada bilən sahələr, yəni polietilen, polimerlər, polipropilen və bir sıra yan məhsullar üçün zəngin bazamız mövcuddur.

Kənd təsərrüfatını qeyd etməmək olmaz. Bu, həm bizim üçün ənənəvi fəaliyyət növüdür, – qeyd etdiyimiz kimi, burada müvafiq bilik və bacarıqlar var, – həmçinin qeyri-neft ixracında çox mühüm mövqeyə malik olan bir sahədir. Digər tərəfdən, möhtərəm Prezidentimizin bu yaxınlarda təsdiqlədiyi müvafiq dövlət proqramına əsasən buraya həm dövlət tərəfindən zəruri olan tənzimləmə, kapital qoyuluşu və infrastruktur dəstəyi verilir, həmçinin özəl sektorun sərmayələri cəlb olunur. Biz Azərbaycanın münbit iqlim şəraitindən, coğrafi yerləşməsindən və mövcud ticarət sazişlərindən istifadə edirik və bu, bizim üçün prioritet sahə kimi görünür.

Xidmətlər sahəsinə gəldikdə, burada nəqliyyat-logistikanı qeyd etməliyik. Sirr deyil ki, ölkəmiz nəqliyyat qovşağına çevrilib. Bu, özlüyündə böyük nailiyyətdir. Ona görə ki, bizim təbii yerləşməmiz – yəni açıq dənizə çıxışımızın olmaması fonunda ölkəmizin bu gün istər Orta Dəhliz çərçivəsində, istərsə də Şimal-Cənub marşrutunda nəqliyyat qovşağına çevrilməsi öz-özünə baş verməyib. Bu, həyata keçirilən uzunmüddətli siyasətin nəticəsidir və buradan irəli gələn bir çox potensial dəyər hələ də tam reallaşmayıb.

Turizmi mən artıq qeyd etdim. Bu sahədə də detallara getmədən onu qeyd edə bilərəm ki, ölkə rəhbərliyinin müvafiq tapşırığına əsasən Azərbaycana gələn turistlərin sayının artırılmasından başlayaraq ölkədaxili turizm infrastrukturunun inkişafına qədər məsələləri əhatə edən bir yanaşma mövcuddur.

İki sahəni isə mən sektor kimi deyil, daha çox fundamental şərt kimi qeyd edərdim. Bunlardan biri rəqəmsallaşma, müvafiq olaraq İKT və data mərkəzləri ilə bağlı olan istiqamətdir. Çünki artıq rəqəmsallaşmanı iqtisadiyyatın ayrı bir sektoru kimi deyil, daha çox uğurlu iqtisadi fəaliyyətin zəruri şərti kimi görürük. Digəri isə təbii olaraq enerjidir. Mən bunu xüsusi olaraq neft-qaz deyil, məhz enerji şəklində vurğulayıram. Çünki bu da demək olar ki, bütün iqtisadi sahələr üçün zəruri şərtlərdən biridir və bu nöqteyi-nəzərdən biz həmin sahələri də prioritetlərə aid edirik.



**– Cənab nazir, siz qeyri-neft sektorunun və müxtəlif sənaye sahələrinin inkişafı mövzusuna toxundunuz. Rəqəmlər doğrudan da kifayət qədər yüksəkdir. Eyni zamanda, bu məhsulların ölkəyə valyuta gətirməsi məsələsindən, yəni ixrac potensialından danışdınız. Biz nəyi və haraya daha çox ixrac etmək istəyirik? Hökumətdə, dövlətdə belə bir nöqtə varmı ki, biz ona sıçrayış nöqtəsi deyə bilək? Tutaq ki, bu nöqtəyə çatdıq – bu artıq o deməkdirmi ki, bizdə müəyyən bir səviyyəyə keçildi?**

– Yaxşı sualdır. Biz ixraca baxdıqda, hər zaman çalışırıq ki, ayrıca olaraq məhz qeyri-neft-qaz məhsullarının ixracını təhlil edək. Çünki neft-qaz məhsulları ilə bağlı şərtlər kifayət qədər bəlli və şəffafdır. Yəni ixrac edilə bilən həcm və onun dünya bazarlarında formalaşan qiyməti ortadadır. Bizim iqtisadi siyasət alətləri ilə hər iki amilə təsir etmək imkanlarımız kifayət qədər məhduddur.

Qeyri-neft məhsullarının ixracına gəldikdə, bu, birbaşa olaraq dövlətin tətbiq etdiyi müvafiq iqtisadi siyasət və dəstək alətləri ilə təsir edilə bilən bir amildir. Üçüncü bir blok da var ki, o, iqtisadi diskussiyalarda bəzi hallarda unudulur – bu da xidmətlərin ixracıdır. Əslində, bu, kifayət qədər böyük bir elementdir. Mən bunun artıq bəzi nümunələrindən danışdım: turizm, peşəkar xidmətlər və sair.

Biz dinamikaya baxdıqda görürük ki, məsələn, ölkə son altı il ərzində qeyri-neft ixracını təxminən iki dəfə artırmağa nail olub. Bu il də həmin artım dinamikası davam edir. Cari ilin dörd ayı ərzində qeyri-neft ixracının həcmi 17 faizdən çox artıb. Bu, kifayət qədər yüksək sürətdir. Burada biz hər zaman, həmçinin qeyri-neft ixracının keyfiyyətinə, yəni onun hansı məhsullardan ibarət olması məsələsinə fokuslanırıq.

Qeyd etdiyim kimi, ölkənin iqtisadi dayanıqlılığı, yəni bizim əsas hədəfimiz həmin məhsulların çeşidinin artırılmasından qaynaqlanır. Məhsulların çeşidinin artırılması ilə yanaşı, ixrac coğrafiyasının genişləndirilməsi məsələsi də xüsusi önəm daşıyır. Sirr deyil ki, dünya ticarətində, xüsusilə də qeyri-neft məhsullarında bütün ölkələr müəyyən tarif baryerləri tətbiq edirlər. Ona görə də bizim əksər satışlarımız azad və ya preferensial ticarət sazişimiz olan ölkələrlə həyata keçirilir. Çünki bu tərəfdaşlarla ticarətdə qarşılıqlı olaraq idxal tarifi tətbiq edilmir.

Biz bu gün nəzər salsaq görərik ki, azad ticarət sazişlərimiz yalnız postsovet ölkələri ilə mövcuddur. Bu, bir tərəfdən bizim qeyri-neft ixracımızın coğrafi imkanıdırsa, digər tərəfdən məhdudlaşdırıcı bir amildir. Biz müvafiq olaraq, preferensial ticarət sazişləri vasitəsilə bu coğrafiyanın genişləndirilməsinə üstünlük veririk. Hazırda Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və Pakistan kimi dövlətlərlə artıq preferensial ticarət sazişləri çərçivəsində bir sıra məhsullar üzrə belə bir dinamika var və biz həmin ölkələrə qeyri-neft ixracının həcminin artmasını müşahidə edirik.

İkinci element ölkənin istehsal edə biləcəyi, həm də rəqabətqabiliyyətli şəkildə istehsal edə biləcəyi məhsullarla bağlıdır. Bu, sizin əvvəlki sualınızda səsləndirdiyiniz investorlar və investisiyalar məsələsinin bir hissəsidir. Çünki biz investisiyalar dedikdə, bir qayda olaraq, adətən özəl və xüsusilə də birbaşa xarici investorları nəzərdə tuturuq. Həqiqət isə ondan ibarətdir ki, bizim kontekstdə dövlət özü çox böyük investordur.

Özəl investorlara gəldikdə, biz özəl investisiyaların təşviqini çox vacib hesab edirik. Ona görə ki, onlar özləri ilə yalnız kapital gətirmirlər. Kapitala gəldikdə, Azərbaycanın bu gün toxunduğumuz maliyyə imkanlarından çıxış etsək, kifayət qədər kapitalımız var. Lakin investorlar həm də bilik və bacarıqlar gətirirlər. Yəni söhbət ölkəmizdə bu gün ya istehsal olunmayan məhsulların istehsal edilməsindən, yaxud yeni texnologiyaların tətbiqi hesabına mövcud məhsulların istehsalının artırılmasından və maya dəyərinin aşağı salınmasından, bütövlükdə bu kimi elementlərdən gedir.

Burada, təbii olaraq, rastlaşdığımız çağırışlar var. Çünki yenə də söhbət imkanlardan və çağırışlardan gedir. İmkanlar ondan ibarətdir ki, ölkəmizdə müvafiq biznes mühiti, qanunvericilik və ən əsası, ölkənin investorlarla münasibətdə böyük tarixi və nüfuzu var. Bu da ilk növbədə bizim “Əsrin müqaviləsi”ndən irəli gələn, enerji sahəsində fəaliyyət göstərən nəhəng şirkətlərlə bağlıdır. Azərbaycan hər zaman imza atdığı bütün sazişlərə sadiq qalıb.

Bəzi çağırışlarımız da var. Çağırışlardan biri yenə də ölkədəki daxili bazarın həcminin müəyyən mənada məhdudluğudur. Ona görə də biz əmin olmalıyıq ki, investorlar yalnız ölkəmizin daxili bazarında fəaliyyət göstərmir, eyni zamanda, burada yerləşərək xarici bazarlara, ixrac bazarlarına da çıxış əldə edə bilirlər. Digəri isə maliyyə əlçatanlığı məsələsidir. Çünki biz, bir qayda olaraq, investisiya dedikdə, adətən xarici investorun və ya müəssisənin özü ilə kapitalın 100 faizini də ölkəyə gətirdiyini nəzərdə tuturuq. Amma bu belə deyil. Əslində, beynəlxalq təcrübə ondan ibarətdir ki, səhmdarın özünün yatırdığı kapital bütöv sərmayənin yalnız müəyyən bir hissəsini – təxminən 30-50 faiz arasında dəyişən bir məbləği təşkil edir. Yerdə qalan maliyyə isə daxili maliyyə bazarlarından kredit şəklində cəlb edilir və həmin sərmayələr məhz bunun hesabına həyata keçirilir. Burada, təbii olaraq, maliyyə əlçatanlığı, yəni xüsusilə sənaye sektorundan danışırıqsa, uzunmüddətli kreditlərin mövcudluğu və onların müvafiq faiz dərəcələri aparıcı amillərə çevrilir. Biz bu nöqteyi-nəzərdən hər zaman ixrac potensialımızın artırılmasını özəl investisiyaların cəlb edilməsi potensialı ilə tutuşdururuq və ona görə də bu, bizim üçün əsas amillərdən biridir. Biz həmin dinamikanı hər zaman izləyirik. Xoş xəbər ondan ibarətdir ki, özəl sərmayələrin dinamikası getdikcə artır.

Əsas anlayışa gəldikdə isə biz qəbul etməliyik ki, ixrac sıçrayışı bir günün işi deyil. Biz eyni anda onun dörd əsas elementi üzərində işləməyi hədəfləyirik: məhsulun keyfiyyətli olması, həmin məhsulun tanınması və yaxud brendin inkişaf etdirilməsi, müvafiq və etibarlı nəqliyyat bağlantısı ilə digər logistika elementlərinin etibarlılığı və nəhayət, qeyd etdiyim kimi, maliyyə əlçatanlığı. Çünki bu maliyyələşmə yalnız sərmayə mərhələsində deyil, həmçinin ticarətin və ixracın həyata keçirilməsi mərhələsində də zəruridir. Azərbaycanın ticarət balansı dayanıqlı olaraq profisit göstərir. Başqa sözlə, bizim dünya bazarlarına ixrac etdiyimiz məhsulların dəyəri idxal etdiyimiz məhsulların dəyərini üstələyir. Bu da ölkəni kifayət qədər komfortlu vəziyyətdə saxlayır, o cümlədən istər milli valyutanın məzənnəsinin qorunmasına, istərsə də qiymət sabitliyinə öz müsbət töhfəsini verir. Bölgəyə nəzər salsaq, bir çox ölkələrdə yaşanan yüksək inflyasiya və yerli valyutanın dəyərsizləşməsi kimi amillərin məhz ticarət balansındakı profisit deyil, defisitdən qaynaqlandığını görərik. Bu nöqteyi-nəzərdən ölkəmizin kifayət qədər möhkəm bünövrəsi var.

**– Siz dəstək alətlərini sadaladınız. Bəs qarşıya qoyulan əlavə hədəflərə çatmaq üçün bizə yeni bir təkan verəcək başqa nə ola bilər? Belə bir mexanizm varmı?**

– Biz bəzi alətlərimizi, yəqin ki, hələ tam istifadə etməmişik, onlar müxtəlif mərhələlərdədir. Nümunə kimi deyək ki, ölkənin sənayesinin və müvafiq olaraq ixrac potensialının inkişafı üçün bilirsiniz ki, sənaye zonaları konseptindən istifadə edirik. Xüsusilə ixraca yönəlmiş və ixtisaslaşmış Ələt Azad İqtisadi Zonası kimi mühüm institusional mexanizmlər dövlət investisiyaları ilə bağlı nümunə göstərilə bilər. Lakin dövlət sərmayələri yalnız birbaşa iqtisadi səmərə yaradan sahələrə yönəlmir. Buraya həm sosial infrastruktur, həm təhlükəsizlik sahəsi, həm də Böyük Qayıdış üçün zəruri olan sərmayələr, – yol tikintisindən tutmuş, azad olunmuş ərazilərə qayıdan vətəndaşlarımızın yaşayacağı mənzillərə qədər, – daxildir. Əgər biz ixracı və sənaye inkişafını təşviq edən elementlərə qayıtsaq, hər iki mövcud zonanı, – sənaye zonalarını və azad ticarət zonasını daimi alət kimi görürük və onların iqtisadi səmərəliliyinin artırılması üzərində işləyirik. Bu da investorların cəlb edilməsi vasitəsilə həyata keçirilir.

Bundan əlavə, təbii ki, dövlət çalışır ki, dəyişən dinamikaya cavab olaraq yeni alətlər əlavə etsin. Bir az öncə biz, məsələn, maliyyə əlçatanlığı barədə danışdıq, bank kreditlərinə toxunduq. Hazırda bank kreditlərinin faizlərinin subsidiyalaşdırılması mexanizminin genişləndirilməsi üzrəyik. Bu, bizim üçün yeni alət deyil. Biz bundan ilk dəfə geniş şəkildə COVID pandemiyası dövründə istifadə etdik və bu öz nəticələrini verdi. Bu gün də biz yenə də bu alətin genişləndirilməsinə qayıtmışıq. Onun yalnız işğaldan azad olunmuş ərazilərdə və ya seçilmiş sahələrdə deyil, daha geniş tətbiq edilməsini istəyirik.

Qeyd etmək istədiyim ikinci məsələ logistika və nəqliyyat xərclərinin qarşılanmasına, yaxud azaldılmasına və sabitləşməsinə yönəlmiş tədbirlərdir. Biz hazırda onlara fəal şəkildə baxırıq. Üçüncü və hazırda müvafiq diskussiyalarda olan məsələyə dair hələ qərar qəbul edilməyib, lakin ümid edirik ki, bu, uğurla başa çatacaq. Bütün müəssisələrin – vergiödəyicilərimizin əlavə dəyər vergisi (ƏDV) hesabları var. Ölkəmizdə müvafiq qanunvericilik mexanizminə əsasən əlavə dəyər vergisi hesabları ayrıdır, xüsusi hesablardır. Biz həmin hesablarda olan vəsaitlərdən dövlətə olan digər ödənişlər, xüsusilə də sosial sığorta ödənişləri üçün istifadə imkanını nəzərdən keçiririk. Bu alətlər tətbiq edildiyi halda, təbii olaraq sahibkarın əlavə maliyyə vəsaitinə olan ehtiyacı azalır, yaxud əksinə, imkanları genişlənir. Sahibkar da onu daha fəal şəkildə biznesin böyüməsinə yönəldə bilər.

Mövcud və uğurla istifadə olunan digər alət investisiya təşviqi mexanizmləridir. Burada dövlət tərəfindən müəyyənləşdirilmiş prioritet sahələrdə sərmayə qoyuluşu həyata keçirildiyi təqdirdə sahibkarlara bir sıra vergi və gömrük idxal güzəştləri verilir. Həmçinin bilirsiniz ki, bir sıra ərazilərimizdə, o cümlədən işğaldan azad olunmuş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında geniş vergi azadolmaları paketi tətbiq edilir. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Biznesinin İnkişafı Fondunun xətti ilə istifadə olunan alətlərimizdən biri də sahibkarlara güzəştli kreditlərin verilməsidir. Təbii olaraq, biz onu bazarın tam tələbatı həcmində təmin edə bilmirik, amma bu, kifayət qədər yüksək rəqəmdir. Hər il bu şəkildə 200 milyon manatdan çox kredit verilir. Həmin kreditlər böyük layihələrə deyil, daha çox kiçik və orta sahibkarlara təqdim edilir. Böyük layihələrə gəldikdə, dövlət sərmayəçi qismində, minoritar payçı kimi öz kapital riskini qəbul edir və biz bu alətdən də fəal istifadə edirik.

Xüsusilə qeyri-neft sektoru barədə danışırıqsa, qısamüddətli və ortamüddətli dövrdə bizim ixrac potensialımızın artırılmasına töhfə verəcək layihələr arasında mən Daşkəsən dəmir filizi zavodunun inşasını qeyd etmək istərdim. Bu, kifayət qədər böyük sərmayə – təxminən 2 milyard manat civarında qiymətləndirilən bir layihədir. Əgər dağ-mədən sahəsi ilə davam etsək, işğaldan azad olunmuş ərazilərimizdə Zod yatağının işlənilməsi ilə həyata keçirilən layihəni də buraya aid edə bilərik. Bunlarla yanaşı, alüminium istehsalının mövcud səviyyədən iki dəfə artırılmasına yönəldilmiş layihəni də nümunə kimi qeyd etmək istərdim və digər layihələrin də hazırda fəal fazada olduğunu demək mümkündür.

Bir element də burada yaşıl enerji ilə birbaşa bağlıdır. Bilirsiniz ki, ölkəmizdə enerji keçidi kifayət qədər uğurla baş verir. Belə ki, xarici investorların sərmayələri hesabına artıq inşa edilmiş və fəaliyyətdə olan iki böyük enerji stansiyası mövcuddur. Bunlar “Masdar” şirkəti tərəfindən tikilmiş 230 meqavatlıq Günəş və “ACWA Power” tərəfindən tikilmiş 240 meqavat gücündə olan külək elektrik stansiyalarıdır. İşğaldan azad olunmuş ərazilərdə hazırda bp, SOCAR və digər sərmayədarların iştirakı ilə “Şəfəq” layihəsi də həyata keçirilir. Bu layihələr ölkədaxili enerji təchizatına töhfə verməklə yanaşı, indiyə qədər elektrik enerjisi istehsalı üçün istifadə olunan təbii qazın emal həcmini azaldır və beləliklə, ölkənin ixrac imkanlarını genişləndirir. Onu da qeyd etmək istəyirəm ki, biz gələcəkdə Azərbaycanı yalnız enerji istehsalçısı kimi deyil, həm də bir enerji habı, yəni enerji qovşağı kimi görürük. Burada söhbət yalnız yaşıl enerjidən getmir, neft və qaz infrastrukturu da daxil olmaqla, ənənəvi enerji növləri üzrə də bu gün artıq real layihələr həyata keçirilir.

**– Hazırda neft hasilatı azalır. Düzdür, bəzi geosiyasi proseslərin təsiri nəticəsində qiymətlər yüksəlir, amma ehtimal edilir ki, bu artım müvəqqətidir, keçicidir. Sözsüz ki, bu sektorun ümumilikdə Azərbaycan üçün əhəmiyyəti böyükdür. Ona görə hamıya maraqlıdır: neft-qaz sektorunun perspektivləri nədən ibarətdir?**

– Təşəkkür edirəm. Həqiqətən vacib sualdır. Çünki ilk növbədə neft-qaz sektoru bu gün də bizim iqtisadiyyatımızda çox böyük rola malikdir. Mən qeyd etdim, bu sektor ümumi daxili məhsulun (ÜDM) 30 faizini təşkil edir ki, bu da çox böyük bir göstəricidir. Digər tərəfdən, o, ölkə gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Bu, sırf iqtisadi nöqteyi-nəzərdən belədir, amma digər tərəfdən də aydındır ki, uzun onilliklər ərzində bu sahənin hər hansı bir real alternativi yoxdur. Öz iqtisadi siyasətimizi qurduqda biz buna bu şəkildə yanaşmalıyıq: neft-qaz sektorunun önəmini qəbul edərək öz inkişafımızı xarici bazarlarda, dünya bazarlarında məhsulun qiymətinin yuxarı və ya aşağı olması meyarlarına bağlamamalı, həll yolunu iqtisadiyyatın dayanıqlılığının təmin edilməsində görməliyik.

Neft ehtiyatlarımıza və neft-qaz sahəsində gedən proseslərə gəldikdə, biz hasilatımızın pik həddini 16 il bundan əvvəl keçmişik. Bu, 2010-cu ildə olub və ölkədə 51 milyon tona yaxın neft hasil edilib. Müqayisə üçün qeyd edim ki, 2025-ci ildə bu göstərici 27,7 milyon ton təşkil edib. Bəli, o dövrlə müqayisədə təbii qazın hasilatı da əhəmiyyətli dərəcədə artıb. Lakin dəyər ifadəsi ilə yanaşsaq, bunlar bir-birini tam əvəzləyən amillər deyil. Mövcud yeni şəraitdə mən bu sahədəki strategiyamızı iki hissəyə bölərdim.

*(ardı 8-ci səhifədə)*

# Qeyri-neft-qaz sektoru artıq iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrilib

*(əvvəli 7-ci səhifədə)*



Birincisi ondan ibarətdir ki, Azərbaycanda hələ də böyük həcmdə neft-qaz ehtiyatları var. Bizim yeni layihələrimiz də işə salınacaq, mövcud layihələrin isə davamlı fəaliyyəti təmin olunacaq. "Azəri-Çıraq-Günəşli" yatağından dərin qaz hasilatının başlanması, "Abşeron" layihəsinin tam miqyasda işlənilməsi, "Babək" yatağında hasilata başlanılması, "Ümid" yatağında ikinci fazanın icrası, "Bahar" və "Qum-Dəniz" layihələrindəki zəngin resursların istismarı, həmçinin "Qarabağ" layihəsi üzrə işlər fəal şəkildə davam etdirilir. Bu, məsələnin bir tərəfidir və ona görə də ölkəmiz hələ uzun illər, onilliklər etibarlı neft-qaz istehsalçısı və ixracatçısı olacaq.

Digər tərəfdən onu da unutmamalıyıq ki, indiyə qədər biz ölkəmizdə neft-qaz hasilatını ənənəvi üsullarla həyata keçirmişik. Son onillikdə bu sahədə baş verən qeyri-ənənəvi hasilat metodlarını bu günə qədər tətbiq etməmişik, amma bunlar hazırda öyrənilir. Ölkəmizin ərazisində bununla bağlı müvafiq resurslar var. SOCAR ilə bir sıra xarici tərəfdaşlar arasında bu istiqamətdə müxtəlif anlaşma memorandumları və çərçivə sazişləri bağlanıb. Amma mən bu hissəni xüsusi vurğulamaq istəyirəm ki, iqtisadiyyatımızın və gəlirlərimizin planlaşdırılmasında biz bu layihələrə sadəcə bir bonus kimi baxmalıyıq. Bu olmasa belə, bizim ana xəttimiz şaxələndirilmiş və bir çox sektorlarda rəqabətədavamlı məhsul istehsal edə bilən iqtisadiyyat qurmaqdır. Gəlin, ona bir bonus kimi baxaq – o reallaşmasa da, biz əsas hədəflərimizə mütləq nail olacağıq.

Strategiyanın ikinci hissəsi ondan ibarətdir ki, biz ölkəmizin bu sahədəki çoxəsrlik ənənələrini, bilik və bacarıqlarını, dünya və regional bazarlardakı mövqelərini itirmək niyyətində deyilik. Məhz buna görə də bizim bu sahədəki aparıcı qurumumuz olan SOCAR-ın fəaliyyətinin son dövrlərdə xarici bazarlara doğru genişləndiyini, daha fəal şəkildə həyata keçirildiyini görürsünüz. Əgər 18 il əvvələ nəzər salsaq, qardaş Türkiyənin enerji bazarına çıxış və SOCAR-ın bu gün Türkiyədə ən böyük enerji sərmayəsinə, ən müasir neft emalı zavoduna, yeganə neft-kimya kompleksinə, logistik terminallara və aparıcı magistral boru kəmərlərinə sahib olması məhz həmin uzunmüddətli strategiyanın başlanğıcı idi və qeyd olunanlar onun təzahürüdür.

Lakin bu gün SOCAR artıq yalnız emal infrastrukturunda deyil, hasilat sahəsində də xarici bazarlarda, müxtəlif layihələrdə pay əldə edir. Bu il Birləşmiş Ərəb Əmirliklərində və ilk dəfə olaraq Afrika qitəsində — Kot-d'İvuarın böyük bir yatağında sərmayə layihələrinə start verilib, həmçinin İsraildə həyata keçirilən qaz hasilatı layihəsində iştirak təmin olunub və bu fəaliyyət davam etdiriləcək. Çünki düşünürük ki, Azərbaycandakı hasilat bazamız, bilik və bacarıqlarımız, ümumilikdə ölkəmizin beynəlxalq müstəvidə oynadığı rol buna tam imkan verir.

Gəlin unutmayaq ki, biz bu gün dünyanın 16 ölkəsini təbii qazla təchiz edir, onların enerji təhlükəsizliyinə töhfə veririk. Xüsusilə indiki kimi geosiyasi nöqteyi-nəzərdən həssas dövrlərdə bu amil ölkəmizin rolunu daha da artırır. Bu mənada biz bu fəaliyyəti xeyriyyəçilik kimi həyata keçirmirik. Dünənə qədər ölkəmizdə hasil olunan resursların ixracı hesabına qazandığımız vəsaitin azalan hissəsini xarici bazarlarda aktiv fəaliyyət göstərib sərmayə yatırmaqla kompensasiya edirik. Bunun müqabilində mülkiyyət hüququ və səhmləri 100 faiz dövlətə məxsus olan şirkət ölkəmizə dividendlər gətirir.

Bu, xüsusi bir istiqamətdir və mən bu sırada bir çox uğurlu layihələri sadalaya bilərəm. Onlardan zaman baxımından ən yaxın olanı, İtaliya bazarında 35 faiz paya malik, iki neft emalı zavodu və bir neçə min yanacaqdoldurma stansiyasından ibarət nəhəng bir qurumun – "İtaliana Petroli" şirkətinin satın alınmasıdır. Bu fəaliyyət davamlı olacaq. Həmçinin qardaş Özbəkistanda "Uzbekneftegaz" və bp ilə birlikdə Üstyurd yatağının işlənilməsinə dair sazişin imzalanmasını qeyd etmək olar. Yəni bu fəaliyyətlər davamlı xarakter daşıyır.

Digər tərəfdən, mən qeyd etdim ki, ölkəmizdə mövcud olan nəqliyyat və neft nəqli infrastrukturunun imkanlarından daha fəal istifadəni nəzərdə tutmalıyıq. Azərbaycanın yerləşdiyi Xəzər hövzəsində neft və qaz yataqları yalnız bizdə deyil, həm də qonşularımızdadır və bu istiqamətdə kifayət qədər münbit imkanlarımız, geniş əməkdaşlığımız var. Bu gün istər Türkmənistanda, istərsə də Qazaxıstanda hasil olunan neft həcmləri ölkəmizin infrastrukturu vasitəsilə nəql edilərək xarici bazarlara çıxarılır. Təbii olaraq, bu, həm enerji infrastrukturu bağlantısını təmin edən Orta Dəhlizin vacib bir elementidir, həm də donanmamızın və limanlarımızın, nəqliyyat infrastrukturumuzun fəallığına xidmət edir.

Ona görə də ölkəmizin neft-qaz sahəsinin gələcəyini nikbin görürük. Sadəcə olaraq, düşünürəm ki, artıq bu sahəyə sırf neft-qaz deyil, daha geniş - enerji sektoru kimi yanaşmalıyıq. Çünki insanların, şirkətlərin və müəssisələrin enerjini istehlak etmə formaları dəyişir, biz də buna mütləq hazır olmalıyıq.

Bir müddət bundan öncə ölkəmizdə bu sahədə son illərin, yəqin ki, ən böyük sərmayə tutumlu layihəsi olan yeni neft emalı zavodunun tikintisi barədə müvafiq qərar razılaşdırılıb və qəbul olunub. Bu nöqteyi-nəzərdən biz, təxminən, 5-6 il ərzində layihənin başa çatdırılmasını gözləyirik. Bu, tam müasir və artıq belə demək olarsa, günümüzün tələblərinə cavab verən neft emalı zavodu olacaqdır. Burada söhbət yalnız sənaye və ekoloji standartlardan deyil, həm də biznes model baxımından müasir tələblərə uyğunluqdan gedir. Zavod maye yanacaq məhsulları ilə yanaşı, neft-kimya məhsullarının yeni nəslini də istehsal edəcək. Hazırda müvafiq hökumət komissiyasının əlaqələndirməsi ilə bu layihənin dövlətin dəstəyi ilə SOCAR tərəfindən həyata keçirilməsinə başlanılıb.

**– Cənab nazir, son dövrlərdə ən tez-tez eşitdiyimiz terminlər rəqəmsallaşma və süni intellektdir. Bunlar bütün dünyanın trendidir və Azərbaycan da təbii ki, bu prosesdən geri qalmır. Bəs rəqəmsallaşma və süni intellekt dövlət, iqtisadiyyat və sahibkarlar qarşısında hansı yeni imkanları açır, həmçinin hansı çağırışları yaradır? Xüsusilə insan kapitalı və insan resursları ilə bağlı bu müstəvidə Azərbaycan dövlətinin baxışı nədən ibarətdir?**

– Qeyd etdiyim kimi, rəqəmsallaşma artıq iqtisadiyyatın ayrıca bir sektorundan ümumi iqtisadiyyatın və iqtisadi aktorların fundamental savadlılıq elementinə çevrilir və zəruri bir elementdir.

Biz istənilən sahədə uğurla fəaliyyət göstərən lider şirkətləri, - istər daxili, istər regional, istərsə də dünya bazarında fəaliyyət göstərən şirkətləri, - nümunə götürə bilərik. Enerji, nəqliyyat, sənaye istehsalı və kənd təsərrüfatı sahələrində biz elə bir lider şirkət tapa bilmərik ki, öz liderlik mövqeyini qorumaq və inkişaf etdirmək üçün rəqəmsallaşma, həmçinin süni intellekt alətlərindən istifadə etməmiş olsun. Yəni bu məsələyə baxışın kökündə məhz o dayanmalıdır ki, iqtisadi aktorlarımızın, sadə dillə desək, müəssisələrimizin və sahibkarlarımızın gündəlik fəaliyyətində bu keçid artıq təmin edilib və uğurla həyata keçirilir.

Dövlət bunu qəbul edərək və müəyyən mənada əvvəlcədən görərək, 2025-ci ilin dekabrında Azərbaycan Respublikasında müvafiq dövlət proqramını – Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramını qəbul edib. Bu, həqiqətən, maraqlı proqramdır. Mən indi, icazənizlə, onun detalları barədə danışmayacağam. Amma bir nümunə vermək istərdim. Məsələn, proqramda nəzərdə tutulan tədbirlərdən biri ondan ibarətdir ki, 2026-cı il ərzində seçilmiş 15 müəssisə üçün rəqəmsal transformasiya yol xəritəsi hazırlanır və həyata keçirilir.

Bu nədir? Nəyə görə mən məhz bu tədbiri vurğulayıram? Biz bununla bazarda artıq fəaliyyət göstərən uğurlu şirkətlərə rəqəmsal həllərin tətbiqi sayəsində öz gəlirlərini və istehsal həcmini hansı dərəcədə artıra biləcəklərini, çəkdikləri xərcləri necə azaldacaqlarını və bununla da hansı müsbət iqtisadi səmərəni əldə edəcəklərini əyani şəkildə göstərməyi hədəfləyirik.

Digər tərəfdən, siz süni intellektə və data mərkəzlərinə toxundunuz. Bəli, Azərbaycan bu istiqamətdə əlaqələndirilmiş fəaliyyət yürütməyi hədəfləyir. Bilirsiniz ki, möhtərəm Prezidentimizin müvafiq sərəncamı və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin rəhbərliyi ilə ölkədə Rəqəmsal İnkişaf Şurası yaradılıb və onun qarşısında duran bir sıra mühüm vəzifələr müəyyən edilib. Süni intellektin tətbiqi üçün zəruri olan data mərkəzlərinin inkişafı hazırda üzərində işlədiyimiz prioritet layihələrdəndir.

Azərbaycan bir tərəfdən də öz daxili ehtiyaclarının ödənilməsini hədəfləyir. Burada söhbət yalnız iqtisadiyyatla məhdudlaşmır. Vətəndaşlarımıza göstərilən bir çox xidmətlər də bu gün data mərkəzlərinə olan tələbatı artırır. Bu sahə çox sürətlə inkişaf etdiyinə görə düşünürük ki, əminliklə demək olar, ildən-ilə, hətta aydan-aya həm imkanlar, həm də ehtiyaclar artacaq. Lakin Azərbaycanın imkanı var ki, həm qeyd etdiyim sabit investisiya mühitinə görə, həm əlçatan və münbit qiymətlərlə enerji təchizatına görə, – çünki data mərkəzlərinin əməliyyat xərclərinin böyük hissəsini məhz enerji xərcləri təşkil edir, – nəhayət, telekommunikasiya bağlantılarına görə, həmin xidmətlərin ixracatçısı kimi də çıxış etsin və qonşu ölkələrə bu xidmətləri təqdim etsin. Düşünürəm ki, bu, gələcək illərdə ən sürətlə inkişaf edəcək sahələrdən biri olacaq.

Möhtərəm Prezidentimizin həm 2026-cı ilin yanvarında Davos İqtisadi Forumunda, həm də fevralında Münxen Təhlükəsizlik Konfransında keçirdiyi bəzi görüşlərin məntiqi nəticəsi olaraq, - öncədən hansısa böyük anonslar vermək istəməzdim, - bu ilin əvvəlindən sürətləndirilmiş və artıq yekun mərhələdə olan işlər sayəsində yaxın aylarda dünyanın tanınmış, - məşhur da demək olar, - texnoloji tərəfdaşları ilə yeni, o cümlədən süni intellektin tətbiqini nəzərdə tutan data mərkəzlərinin rəsmi anonsu veriləcək.

Superkompüter infrastrukturunun inkişafı və ondan istifadə uğurla həyata keçirilir. Bu gün İqtisadiyyat Nazirliyində mövcud olan superkompüterdən istifadədə görürük ki, aidiyyəti dövlət qurumlarından və özəl sektordan gələn sorğu və tələbat artıq mövcud texniki imkanları üstələyir. Bu, çox yaxşı xəbərdir. Bu, onu göstərir ki, iqtisadiyyatımızda, elm və təhsil sistemimizdə, dövlət idarəçiliyində, tibb xidmətlərinin göstərilməsində, vergi və gömrük fəaliyyətinin tənzimlənməsində və bir sıra digər sahələrdə süni intellektə əsaslanan həllərin tətbiqi böyük sürətlə artır.

Bu məsələnin son və yəqin ki, ən vacib halqası yenə də insan kapitalı ilə bağlıdır. Çünki rəqəmsal transformasiya süni intellektə əsaslanan tətbiqlərin hazırlanması, mövcud bizneslərdə səmərəliliyin artırılması, yaxud yeni fəaliyyət sahələrinin yaradılması elm-təhsil sistemimizin, universitetlərimizin, həmçinin xarici tərəfdaş universitetlərlə əməkdaşlığın dərinləşməsini şərtləndirir.

**– Mikayıl müəllim, iqtisadiyyatın rəqəmsal əsaslara keçməsi Azərbaycan dövləti üçün həm də kölgə iqtisadiyyatı ilə mübarizə demək idi. Yadımızdadır, bir neçə il bundan əvvəl bu istiqamətdə müxtəlif təşəbbüslər irəli sürülürdü. Nəyə nail olduq, hazırda vəziyyət necədir və yeni planlar varmı?**

– Bəli, kölgə iqtisadiyyatı ilə mübarizədə biz rəqəmsal həllərdən istifadə edirdik, istifadə edirik və düşünürəm ki, bundan sonra da istifadə edəcəyik. Xüsusilə analitika seqmentində pozuntuların erkən müəyyənləşdirilməsi, onların qarşısının alınması və dataəsaslı təhlillərin həyata keçirilməsi baxımından bu alətlər mühüm rol oynayır.

Bu istiqamətdəki nəticələri ölçmək üçün ən dürüst meyarı fiskal daxilolmalara – yəni vergi və gömrük yığımlarının müsbət dinamikasına nəzər salmaqla müşahidə edə bilərik. Digər tərəfdən, kölgə iqtisadiyyatı barədə danışarkən, xatırlayırsınızsa, xüsusilə "kölgədə" fəaliyyət göstərən vətəndaşlarımızın əmək müqaviləsi olmadan çalışmaları, sosial müdafiə sistemindən kənarda qalmaları məsələlərinə böyük diqqət yetirirdik. Çünki gələcəkdə bu, həm vətəndaşların pensiya yaşına çatdıqda hüquqlarının təmin edilməsi, həm də dövlətin onların sosial müdafiəsini təşkil etməsi baxımından vacib məsələdir.

Burada yəqin ki, ən böyük nəticə verən layihə 2019-cu ildən 2025-ci il də daxil olmaqla yeddi il ərzində tətbiq olunan qeyri-neft-qaz və qeyri-dövlət sektorunda fiziki şəxslərin gəlir vergisindən azad olması mexanizmi idi.

Hətta gözləntilərimizi üstələyən nəticələr əldə olundu. Belə ki, yeddi il ərzində ölkədə orta hesabla hər il bağlanılan daimi əmək müqavilələrinin sayı 70 mindən çox oldu. Təbii olaraq burada iqtisadi artımın da rolu var və bizim üçün dəqiqliklə demək çox çətindir ki, orta hesabla hər il 70 min və ya yeddi il ərzində 500 minə yaxın əmək müqaviləsinin hansı hissəsi iqtisadi artım və inkişafın, hansı hissəsi isə kölgədən çıxmanın hesabına formalaşıb. Lakin aydındır ki, bunun çox böyük hissəsi məhz kölgə iqtisadiyyatının azalması hesabına təmin edilib. Eyni dövrdə vergi daxilolmalarının da, sosial sığorta ödənişlərinin də kəskin artımı müşahidə edilib və paralel olaraq ölkədə orta əməkhaqqının da artımı baş verib. Kölgə iqtisadiyyatı barədə danışarkən, yəqin mən bunu belə formalaşdırardım ki, ənənəvi iqtisadi fəaliyyət sahələrində kölgə iqtisadiyyatının həcminin kifayət qədər azaldığını hesab edirik.

Lakin bu problem sona qədər həll olunmayıb. Bəli, rəqəmsal həllər bu sahədə dövlətin tənzimləmə və inzibatçılıq alətləri ilə yanaşı istifadə etdiyimiz əsas vasitələrdən biri olacaq. Nümunə olaraq elektron qaimə, elektron vergi, elektron imza, DOST, "ASAN xidmət" və "myGov" platformasını göstərə bilərik. Yəni bu gün bunlar sadəcə rahatlıq alətləri deyil, həm də kölgə əməliyyatlarının qarşısını alan inzibatçılıq süzgəcləridir. Ola bilsin ki, biz bəzi hallarda hər hansı alətdən istifadə edirik, amma onun ikinci, üçüncü funksiyasının nədən ibarət olduğuna kifayət qədər nəzər salmırıq.

**– Bu ilin dörd ayı ərzində makroiqtisadi göstəricilər haqqında danışdınız. Bəs bu il üzrə gözləntilər nədir?**

– Hazırda cari ilin dörd ayı üzrə rəqəmlərimiz və məlumatlarımız bizə bəllidir. Bu, adi il deyil. Onu da nəzərdə tuturam ki, ilin sonuna qədər xüsusilə enerji bazarlarında, həmçinin bundan təsirlənən gübrə və metal bazarlarında dəyişikliklər ola bilər. Bunlar hamısı Azərbaycanın istehsal və ixrac etdiyi məhsullardır. Amma digər tərəfdən, kənd təsərrüfatı sahəsində istehsal olunan məhsulların ilin sonuna qədər dinamikasını öncədən bilmək çox çətindir. Yəni məlum səbəblər - Körfəzdə olan böhran yalnız neftin və qazın qiymətinə, yaxud bazarlara çıxarılmasına deyil, həmçinin gübrənin qiymətinə və həcminə təsir edir. Bu nöqteyi-nəzərdən ilin sonuna qədər proqnoz vermək bir qədər çətindir.

Düşünürəm ki, inflyasiya gözləntiləri ilə bağlı təsirlər ola bilər və burada söhbət Azərbaycanın daxili inflyasiyasından deyil, daha çox dolların inflyasiyası ilə bağlı qlobal tendensiyalardan gedir.

Bizim rəqəmlərə və mövcud vəziyyətə gəldikdə, ilin dörd ayında müşahidə edirik ki, artım templərinin gözləntilərimizdən nisbətən aşağı olması əsasən dövlət tərəfindən həyata keçirilən bir sıra layihələrin vaxtlarının dəyişdirilməsi ilə bağlıdır. İcra edilməli olan bir sıra dövlət investisiyalarından qaynaqlanan tikinti fəaliyyəti növbəti mərhələdə həyata keçiriləcək.

Ona görə də ilin dörd ayında gördüyümüz dinamika ondan ibarətdir ki, bir sektorda kəskin azalma müşahidə edirik, bu, tikinti sektorudur. Yenə də vurğulamaq istəyirəm ki, bu azalma daha çox özəl tikinti ilə deyil, dövlət tikintisi ilə bağlıdır. Yəni başqa sözlə, biz bu prosesi anlayırıq, bunun səbəblərini bilirik və bunun aradan qaldırılması üçün hansı tədbirlərin görülməli olduğunu da müəyyən edirik. Yenə də bu, maliyyə-iqtisadi blokda fəaliyyət göstərən aidiyyəti qurumlarla birgə fəaliyyətimizin əsasını təşkil edir.

Digər bütün qeyri-neft-qaz sektorunda biz artım müşahidə edirik. Neft-qaz sektorunda isə ilk dörd ayda azalma qeydə alınıb. Ümumiyyətlə, vurğulamaq istəyirəm ki, qeyri-neft-qaz sektoru artıq iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrilib. Bunu biz 2025-ci ildə də gördük.

Daha uzun dövrü götürsək, 2021–2025-ci illərdə orta illik artım 6 faiz, 2022–2025-ci illərdə isə 5,7 faiz təşkil etdi. Biz bunu nə ilə müqayisə edirik? İki elementlə: birincisi, dünyadakı iqtisadi artım templəri ilə - bu, 2,9 faiz təşkil edib; ikincisi isə inkişaf etməkdə olan ölkələrlə müqayisədə - bu göstərici isə 3,8 faiz olub. Yuxarı ortagəlirli ölkələrdə isə həmin dövrdə bu rəqəm 3,9 faiz təşkil edib.

Yəni biz bunu özümüzün 5-5,7 faizlik artım göstəricilərimizlə müqayisə etdikdə, bu mənada deyə bilərik ki, qeyri-neft-qaz sektorunda ümumi orta artım templəri qənaətbəxşdir və bizi qane edir.

Artım tempinə görə aparıcı sektorları da sadalamaq istərdim. Qeyri-neft-qaz sənayesində builki artım templərini qeyd edə bilərik. İlk dörd ayda informasiya və rabitə sahəsində təxminən 9 faizə yaxın artım müşahidə olunub. Qeyri-neft-qaz sənayesində 7,8 faiz, nəqliyyatda 4,5 faiz, ticarətdə isə 3,7 faiz artım qeydə alınıb - yəni bu, kifayət qədər sağlam artım templəridir.

İlin sonuna qədər məlum səbəblərin aradan qaldırılmasına fokuslanacağıq ki, xüsusilə həm dövlət, həm də özəl tikinti sektorunda fəaliyyətin canlanması təmin olunsun.

Böhran turizm sektoruna da təsirsiz ötüşmür. Böhranın nəticələri var. Bunu obyektiv nəticə kimi qəbul etməliyik ki, həmin sektorda artım templərinin yavaşıması müşahidə olunur. Bunu proqnozlaşdırmaq kifayət qədər çətindir. Yəqin ki, bu, ölkəmizdəki deyil, daha çox bölgədəki vəziyyətdən asılı olacaq.

Lakin digər sahələrdə artım templərinin sürətləndirilməsini hədəfləyirik və ciddi maneə görmürük. Burada yenə xatırlatmaq istərdim ki, qeyri-neft-qaz ixracının sürətlə artırılması davam edir və ilin dörd ayında 17 faizdən yuxarı artım tempi müşahidə olunub. Biz bunu müsbət hal kimi qiymətləndiririk.

O da sirr deyil ki, son üç ayın yüksək neft-qaz qiymətləri də öz müsbət təsirini göstərəcək. Biz bəzi hallarda gəlirlərlə artım templərini eyniləşdiririk. Bunların arasında müəyyən əlaqə var, amma bu, heç də hər bir halda belə deyil.

Azərbaycanın son onilliklərdə uğur gətirən modeli ondan ibarətdir ki, biz əlavə gəlirləri daha çox ehtiyatlara yönəldirik. Bu ehtiyatlar - Neft Fondunun və Mərkəzi Bankın rezervləri və şoklardan qorunma mexanizmləri - öz növbəsində makroiqtisadi və makrofiskal sabitliyin təmin olunmasına xidmət edir.

Bunun çox yaxşı nümunəsi işğaldan azad olunmuş ərazilərlə bağlıdır. Bu ərazilər dövlət büdcəsi üçün tamamilə yeni, həcmcə böyük sərmayə və xərc istiqamətidir. Amma biz iqtisadi baxımdan ona xərc deyil, investisiya kimi baxırıq. Çünki bu investisiya uzunmüddətli dövrdə, vətəndaşlarımızın qayıdışı, iqtisadi fəallığın bərpası və ərazilərin yenidən qurulması zamanı öz töhfəsini verəcək.

Əgər həmin ehtiyatlarımız olmasaydı, biz asanlıqla və gecikmədən dövlət büdcəsində yaranan əlavə xərcləri — konkret olaraq Dövlət Neft Fondundan və digər ehtiyatlardan təmin edə bilməzdik.

**– Mikayıl müəllim, elə gəlin, bunu sizin fikrinizin davamı kimi formalaşdıraq: Qarabağın və Şərqi Zəngəzurun hazırda Azərbaycanın iqtisadi həyatına geri qaytarılması prosesi gedir. Bu, bizim iqtisadiyyata nə qazandıracaq?**

– Bu, yaxşı sualdır. Sizin sualınızı cavablandıracağam, amma əvvəlcə icazə verin, öz versiyamı söyləyim.

Çünki mən düşünmürəm ki, bizim üçün bu qayıdış sadəcə iqtisadi məqsədlər daşıyırdı. Bu qayıdış və bu sərmayələrin həyata keçirilməsi, sözün ən yaxşı mənasında, bizim milli ideyamız idi. Mənim fikrimcə, biz dövlət kimi məhz bu gün bu hədəf və bu fəaliyyət üçün yaşayırdıq. Biz buna möhtərəm Prezidentimizin həyata keçirdiyi siyasətin, şanlı Ordumuzun və xalqımızın sayəsində nail olmuşuq.

Biz iqtisadi baxımdan sualı bu şəkildə qoyuruq: bu sərmayəni, bərpa və rekonstruksiya prosesini hansı ardıcıllıqla həyata keçirməliyik ki, o, mümkün olan optimal iqtisadi nəticəni versin? Çünki buna sırf iqtisadi modellə yanaşsaq ki, oraya qoyulan hər bir qəpiyin növbəti 5, 7, 12 ildə dövlət büdcəsinə geri ödənişini təmin edə biləcəyik - məncə, bu, bir qədər fərqli məsələdir.

Lakin qayıdışın ilk və əsas şərti iqtisadi dayanıqlılıqdır. İqtisadi dayanıqlılıq dedikdə isə qayıdan vətəndaşımızın, – istər kəndli olsun, istər fermer, – iş yerinin və ya iqtisadi fəallığının təmin edilməsi nəzərdə tutulur. Çünki bu, qayıdışın dayanıqlılığını dönməz etməlidir.

Bu məqsədə çatmaq üçün hansı alətlərdən istifadə etdik? İlk növbədə iqtisadi rayonlara daxil olan hər bir rayonumuzun iqtisadi ixtisaslaşmasını ortaya qoymağa çalışdıq: Kəlbəcər üçün bir, Laçın üçün bir, Cəbrayıl üçün başqa, Ağdam üçün isə daha fərqlisini. Bunun nəticəsində, gördüyünüz kimi, iki sənaye parkı yaradıldı. Ağdamda yaradılan sənaye parkı məhz həmin bölgənin sənaye potensialının inkişaf etdirilməsini əsas tutduğumuzu göstərir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı isə daha çox nəqliyyat, logistika və Zəngəzur dəhlizinin fəaliyyətindən irəli gələn iqtisadi sahələri əhatə etmək, onlara xidmət göstərmək üçün nəzərdə tutulub.

Səmimi söyləyim ki, Ağdam Sənaye Parkındakı rezidentlərin və artıq fəaliyyət göstərən müəssisələrin sayına görə göstəricilər gözləntilərimizdən aşağı deyil, əksinə, üstündür. Bu gün Ağdam Sənaye Parkında 31 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkarlıq subyektinə isə qeyri-rezidentlik statusu verilib və onlardan 13 müəssisə hazırda fəaliyyət göstərir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına gəldikdə isə orada 20 rezident və 3 qeyri-rezident var. Biz bunu nə ilə müqayisə edirik? Biz müqayisə edirik ki, ən qocaman və nəhəng parkımız olan Sumqayıt Sənaye Parkından sonra Ağdam Sənaye Parkı rezidentlərin sayına görə artıq ikincidir.

İkinci böyük istiqamət onunla bağlıdır ki, dövlətimiz işğaldan azad olunmuş ərazilərdə infrastruktur təminatını möhtərəm Prezidentimizin rəhbərliyi ilə ehtiyac yarandıqca deyil, planlı şəkildə "öncədən yol açmaq" prinsipi ilə həyata keçirib. Bu gün oraya səfər edən hər birimiz görürük ki, enerji təchizatı, yol infrastrukturu, həmçinin qayıdan vətəndaşlarımız üçün sosial infrastruktur - bunların hamısı prinsip etibarilə uzunmüddətli sərmayədir və həqiqətən də bu mənada böyük iqtisadi səmərəsi olacaq.

Vurğulamaq istədiyim üçüncü məsələ dağ-mədən sənayesidir. Biz inanırıq ki, həmin ərazilərimizin bu mənada çox böyük potensialı var. Məsələn, Şahbulaqda daş karxanalarının, Dövlətyarlı əhəngdaşı yatağının, Xocalıda üzlük daş yataqlarının istismara başlanılması buna nümunədir. Həmçinin Ağdərədə işğal dövründə qeyri-qanuni istismarda olmuş "Dəmirli" Filiz Emalı Kompleksində fəaliyyətin başlanılmasını, Zod yatağı ilə bağlı prosesləri də qeyd etmək olar. Hazırda Qubadlıda və Laçında əhəngdaşı yataqlarının istismarına başlanılır. Növbəti illərdə dağ-mədən sənayesində mineralların istehsalı ilə bağlı ciddi layihələrin həyata keçirilməsini görəcəyik.

Kənd təsərrüfatı sahəsində, xüsusilə həm heyvandarlıq, həm də bağçılıq sahələrində intensiv bağların kifayət qədər geniş vüsət aldığını görürük. Yevlaxda istifadə etdiyimiz pilot aqropark modelini artıq işğaldan azad olunmuş ərazilərdə də həyata keçirməyi qərara almışıq.

Bu məsələdə düşünürəm ki, bizim xidmət sektoru da nəzərdən qaçmamalıdır. Çünki hamımızın hər zaman qeyd etdiyi turizmlə yanaşı, işğaldan azad olunmuş ərazilərə gələrkən əslində yeni bir modeli – Xankəndidə Qarabağ Universiteti layihəsini də görürük. Belə ki, şəhər-universitet, universitet-şəhər modelini həyata keçirməyimiz, fikrimcə, uzunmüddətli dövrdə bizə böyük iqtisadi dividendlər də verəcək.

Çünki bu, yalnız o şəhərin canlanması, orada tələbə və müəllim-professor heyətinin formalaşması deyil, həmçinin yaradıcı iqtisadiyyatın faktiki olaraq oraya gətirilməsidir. Nəzərə almaq lazımdır ki, həm Qarabağda, həm də Şərqi Zəngəzurda bizim hər zaman yaradıcılıqla bağlı tərəfimiz güclü olub.

*(ardı 9-cu səhifədə)*

# Aqrar sahənin hüquqi təminatı təkmilləşdiriləcək

**İyunun 11-də Milli Məclisdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmə keçirilib.**



Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev ulu öndər Heydər Əliyevin ölkəmizdə kənd təsərrüfatının inkişafında xüsusi rolunu vurğulayıb. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm dövlət proqramları, layihələr, imzalanan fərman və sərəncamlar, xüsusilə regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlər aqrar sektorun daha da inkişaf etdirilməsinə zəmin yaradıb. Bildirilib ki, dövlətimizin başçısı bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bu barədə ətraflı söz açaraq, əldə olunan uğurlara, həmçinin çatışmazlıqlara, qarşıda duran vəzifələrə münasibətini bildirib.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahənin Azərbaycanın sosial-iqtisadi inkişafında xüsusi yer tutan strateji sahələrdən biri olduğunu qeyd edib. Nazir Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatının inkişafına həsr olunmuş müşavirədə yeni proqramın hazırlanmasının zəruriliyinin vurğulandığını söyləyib.

Məcnun Məmmədov Dövlət Proqramının önəmindən danışaraq, sənədə əsasən, müasir çağırışlara uyğun hüquqi bazanın formalaşdırılmasının, qarşıdakı dövrdə kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrində normativ-hüquqi təşəbbüslərin həyata keçirilməsinin nəzərdə tutulduğunu deyib.

Aqrar sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülməli işlərdən bəhs edən nazir kənd təsərrüfatı fəaliyyəti, məhsulu və istehsalçısı kimi əsas anlayışların təsbitinin, aqrar xidmətlər və dövlət dəstəyi mexanizmlərinin hüquqi əsaslarının formalaşdırılmasının, habelə aqrar terminologiyanın unifikasiyasının, iqlim dəyişikliklərinin, kənd yerlərinin inkişafı və dayanıqlı istehsal kimi müasir yanaşmaların qanunvericilikdə əks olunmasının vacibliyini diqqətə çatdırıb.

Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək, sözügedən Dövlət Proqramını slaydlar vasitəsilə təqdim edib. O, son 10 il ərzində ölkədə kənd təsərrüfatının müxtəlif istiqamətlərində məhsulların istehsalında müşahidə edilən artım, infrastruktur və resurs bazası üzrə əldə edilən nailiyyətlər barədə məlumat verib. Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, İntizam komissiyasının sədri Eldar İbrahimov çıxış ediblər.

Məsələ ilə bağlı müzakirələrdə çıxış edənlər aqrar sahədə qarşıya qoyulan vəzifələrin, həyata keçiriləcək tədbirlərin vacibliyindən bəhs ediblər, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Sonda kənd təsərrüfatı naziri Məcnun Məmmədov qaldırılan məsələlərə münasibət bildirib.

***XQ***

# Qeyri-neft-qaz sektoru artıq iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrilib

*(əvvəli 8-ci səhifədə)*

Düşünürəm ki, bugünkü iqtisadi model və yanaşmalar, xüsusilə də Qarabağ Universitetində təhsilin müxtəlif dillərdə həyata keçirilməsi və onun mövcud iqtisadi ekosistemlə bağlantısı, o bölgənin iqtisadi potensialının artırılmasına çox böyük töhfə verəcək.

Növbəti mərhələdə biz Böyük Qayıdışa dair İkinci Dövlət Proqramı çərçivəsində, bir az öncə qeyd etdiyim vergi, gömrük, sosial ödənişlər və kommunal bağlantılar üzrə güzəştləri nəzərdə tutaraq, güzəşt müddətlərinin uzadılmasını, yeni təşviq mexanizmlərinin tətbiqini, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsini, o cümlədən kredit faizlərinin subsidiyalaşdırılması və digər alətləri, geoloji tədqiqatların davam etdirilməsini və insan kapitalının gücləndirilməsini əsas hədəflər kimi müəyyənləşdirəcəyik.

**– Müsahibə zamanı ən çox işlətdiyiniz sözlərdən, terminlərdən biri məhz sahibkarlıq idi. Ona görə də son sualımız da sahibkarlıqla bağlıdır. Dövlət tərəfindən sahibkarlığın inkişafı üçün hansı addımlar atılır və nəticələr necədir? Bu sahədə hansı çətinliklər var və onları necə həll etmək, necə yoluna qoymaq fikrindəsiniz?**

– Mənim üçün sahibkarlıqla bağlı uğurun və yaxud uğursuzluğun əsas ölçü meyarlarından biri özəl sektorun vergi ödənişləridir. Nəyə görə? Bu, bir az qeyri-adi, hətta sahibkara qarşı bir az qeyri-dost yanaşma kimi səslənə bilər, ona görə də istərdim fikrimi izah edim. Məsələ ondan ibarətdir ki, vergi bazası iqtisadi fəallıqdan irəli gəlir. Əgər mənfəət, iqtisadi fəallıq yoxdursa, vergi də yaranmır. Bu mənada bizi sevindirən amil özəl sektorun vergi ödənişləri ilə fəaliyyətin səmərəliliyi arasındakı birbaşa bağlılıqdır. Bunların həm artım sürəti, həm də dövlət büdcəsinə ödənişləri dolayısı yolla sahibkarlığın inkişaf tempinin göstəricisidir.

Bəs bu templər və yaradılan iş yerləri o deməkdirmi ki, sahibkarın problemi yoxdur, dövlət özəl sektorun yaradılması üçün pul xərcləməyib? Əgər sahibkarın ehtiyacı olmasaydı, o, iş yerini nə nazirin əmri ilə, nə xahişi ilə, nə də, üzr istəyirəm, göstərişi ilə yaradan deyildi. Ona görə də biz dövlət dəstək alətlərini müəyyənləşdirərkən çalışırıq diaqnostikadan başlayaq: sahibkar üçün hansı çətinlik var və biz hansı problemi həll etmək istəyirik? Çünki problemdən asılı olaraq alət də dəyişir. Elə buna görə də istər Naxçıvanda, istər işğaldan azad olunmuş ərazilərdə, istər sənaye parklarında, istərsə də kənd təsərrüfatı sektorunda geniş vergi və gömrük güzəştləri mövcuddur. Bu onu göstərir ki, biz sahibkarların ya o coğrafi ərazilərə getməsini, ya da məhz həmin fəaliyyət növləri ilə məşğul olmasını istəyirik.

Yəni ümumiyyətlə, iqtisadiyyatda qanuni olduğu müddətdə pis fəaliyyət növü yoxdur. Gətirəcəyim nümunəni mənfi mənada demirəm, amma ticarət sektoru ilə sənaye sektorunun, həmçinin tikinti sektoru ilə sənaye sektorunun fərqi var. Çünki ticarətdə siz pul dövriyyəsini kifayət qədər qısa müddətdə həyata keçirirsiniz, sənaye sahəsində isə qoyduğunuz sərmayəni ən yaxşı halda 7-8 ildən sonra geri qaytara bilmək üçün böyük və uzunmüddətli vəsait yatırmalısınız. Biz məhz uzun müddətdə ölkə iqtisadiyyatına, bəhs etdiyimiz hədəflərə xidmət göstərən fəaliyyət növlərinin təşviqinə çalışırıq. Həm də çalışırıq ki, sahibkarın da bu gün buna gücü çatsın.

Güzəştli kreditlər və faiz subsidiyaları məhz həmin maliyyə əlçatanlığı məsələsindən irəli gəlir - düşünürük ki, ehtiyacı var, veririk. Kreditlərə dövlət zəmanəti mexanizmini tətbiq edirik, çünki bir çox sahibkarın girovla bağlı problemləri olur və biz girovu olmayan sahibkarlar üçün bankların əminliyini artırmaq məqsədilə bu zəmanəti təmin edirik. İnvestisiya təşviqi sənədi üzrə də layihələrin siyahısı və istiqamətləri müəyyənləşib; əgər siz həmin layihələrə pul qoyursunuzsa, bu güzəştləri təqdim edirik. Startaplarla bağlı şəhadətnamələrin verilməsinin də bəlli bir müsbət nəticəsi var.

İkincisi, onu qeyd etmək istəyirəm ki, sahibkarlarla dialoq formatı bizim üçün nəinki faydalı, həm də çox zəruridir. Ona görə də nazirliyimizin aidiyyəti strukturları həm kiçik və orta bizneslə bağlı, həm də ümumilikdə sahibkarlıq siyasəti ilə yaxından məşğul olur. Onu bilmək lazımdır ki, nəhəng, beynəlxalq investorla kiçik və yaxud orta sahibkarın bəzi ehtiyacları eyni olsa da, bəziləri çox fərqlidir və bütün bunları tək bir alətlə əhatə etmək mümkün olmur.

Mövcud çətinlikləri də açıq şəkildə qəbul edirik. Artıq qeyd etdiyim kimi, maliyyəyə çıxış məsələsi var, həmçinin bəzi yerlərdə və hallarda düşünürük ki, dövlət tənzimləməsi tələb olunandan çoxdur. Tez-tez rastlaşdığımız üçüncü məsələ isə ondan ibarətdir ki, bir sıra sahələrdə dövlət qurumları bazar iştirakçısı kimi çıxış edir. Eyni sahədə həm özəl sektor, həm də dövlət müəssisəsi fəaliyyət göstərirsə, burada şərtlərin bərabərliyinin və sağlam rəqabət mühitinin təmin olunması məsələsi ortaya çıxır.

Yenə də rəqəmlərə dönək və deyək ki, cari ildə biz nə görürük? Biz görürük ki, cari ilin dörd ayında qeyri-neft-qaz sektorunun qeyri-dövlət bölməsində əsas kapitala investisiyalar 15 faizdən bir az çox artıb. Sektor üzrə investisiyalarda isə qeyri-dövlət bölməsinin payı 51,1 faizə yüksəlib. Yəni bu nə deməkdir? Bu o deməkdir ki, özəl kapital dövlət investisiyalarını bir tərəfdən üstələyir, digər tərəfdən əgər keçən illə müqayisədə özəl sektordan gələn sərmayə 15 faiz artıbsa, deməli, ya perspektiv görür, ya şəraiti münbit kimi qəbul edir, ya da hər ikisi. Yəni bu nöqteyi-nəzərdən düşünürük ki, doğru istiqamətdə gedirik. Lakin bir daha vurğulayım ki, mənim baxışım dövlət məmurunun baxışını əks etdirir. Bizə çox vacibdir ki, sahibkarların səsini eşidək. Bununla bağlı yenə də müvafiq işçi qruplarımız mövcuddur, onlar Baş nazirin müavininin rəhbərliyi ilə fəaliyyət göstərir, biz onların işində fəal iştirak edirik. Burada ona görə mediada da sahibkarların mövcud problemlərinin işıqlandırılmasının bizim üçün bir çox hallarda böyük faydası olur.

**– Cənab nazir, həm öz adımızdan, həm də həmkarlarımızın adından bu müsahibəyə görə sizə təşəkkür edir, fəaliyyətinizdə uğurlar arzulayırıq.**

– Təşəkkür edirəm, çox sağ olun.

# İyunun 16-da Məhərrəm ayı başlanır

**Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri Məhərrəm ayının başlanması ilə əlaqədar iyunun 11-də açıqlama yayıb. Sənəddə deyilir:**




"Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri müsəlman qardaş və bacıların nəzərinə çatdırır ki, Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarə rəhbərləri Şurasının Fətva şöbəsinin tərtib etdiyi təqvimə, həmçinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən, Hicri-qəməri təqvimi ilə 1447-ci il başa çatır, 1448-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i Miladi təqvimlə iyunun 16-na, Aşura günü isə iyunun 25-nə təsadüf edəcək.

Hamımız yaxşı xatırlayırıq ki, ulu öndər Heydər Əliyev Təzəpir məscidində Aşura mərasimindəki tarixi çıxışında demişdi: "Biz bundan sonra da haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq". Onun siyasi kursunu davam etdirən xələfi, ölkəmizin başçısı Prezident İlham Əliyev də bu əqidəyə sadiq qalıb: "İslam dini bizim tariximizin, keçmişimizin və hazırkı həyatımızın ayrılmaz hissəsidir".

Açıqlamanın davamında deyilir: "Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı Ordumuzun bizlərə yaşatdığı qürur və sevincə görə Uca Yaradana həmd-sənalar, dövlətimizin rifahı üçün dualar edirik. İşğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda yenidənqurmanın başlanması, dini-mədəni abidələrimizin bərpası, həmvətənlərimizin doğma yurd-yuvalarına Böyük Qayıdışı – bütün bunlar Allah-taalanın lütfü ilə müdrik dövlət başçımızın səyləri sayəsində reallaşan arzularımız, dualarımızdır.

Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, mərasimlərdə müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq və s. dinimizə görə qəbuledilməzdir. Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirilsin.

Xüsusilə qeyd etmək istərdik ki, Azərbaycan din xadimləri tərəfindən məscidlərdə Vətən sevgisini, milli dəyərlərə sədaqəti, şərəf və ləyaqəti ehtiva edən moizələr və xütbələr oxunmalıdır".

***XQ***

# Yeni nəsillərə Milli Qurtuluş dərsi

**Dünən Azərbaycan Dillər Universitetində Nəsimi Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı ilə birgə 15 iyun Milli Qurtuluş Gününə həsr olunmuş "Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi" mövzusunda toplantı keçirildi.**








**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov** Milli Qurtuluş Gününün müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirdi. Qeyd etdi ki, tariximizin taleyüklü səhifələrindən biri olan Milli Qurtuluş Günü ölkəmizin gerçək müstəqilliyini və tənəzzüldən xilas olaraq tərəqqi mərhələsinə yüksəlməsini təmin edən tarixi dönüş nöqtəsi kimi yaddaşlara əbədi həkk olunub: "Sirr deyil ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş ölkəmiz ciddi daxili və xarici təhdidlərlə üzləşmişdi.

Dərin iqtisadi və siyasi böhrandan əziyyət çəkən Azərbaycan Ermənistanın genişlənən hərbi təcavüzü fonunda regionda təcrid vəziyyətinə düşmüşdü. Belə bir mürəkkəb dönəmdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı ağır sınaqlardan xilas etdi və gələcək inkişafın möhkəm təməllərini yaratdı. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin əsası qoyuldu.

Ulu öndərin zəngin dövlətçilik təcrübəsi və uzaqgörən siyasəti sayəsində ölkədə sabitlik bərpa olundu, ictimai-siyasi proseslər sağlam məcraya yönəldildi, qanunun aliliyi təmin edildi və dövrün çağırışlarına uyğun milli inkişaf strategiyasının uğurla həyata keçirilməsinə başlanıldı. 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti Azərbaycan xalqına ən dəyərli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etdi, ölkəmizin demokratiya və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətinə çevrilməsini şərtləndirdi".

T.Budaqov bildirdi ki, 2003-cü ildə xalqımız Heydər Əliyev yoluna sədaqət nümayiş etdirərək cənab İlham Əliyevə yüksək etimad göstərdi. Onun sözlərinə görə, bu, Ümummilli liderin müəyyənləşdirdiyi siyasətin alternativsizliyinə qətiyyətli inamın birmənalı ifadəsi idi: "Zamanın Ulu öndərə başa çatdırmağa imkan vermədiyi işləri onun siyasi varisi İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirdi. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun şəkildə davam etdirilməsi Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb. İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən ölkəmiz şanlı zəfər zirvəsinə yüksəldi".

Natiq Ulu öndərin tükənməz dövlətçilik irsinin, o cümlədən milli qurtuluş məfkurəsinin yeni nəslə dolğun surətdə çatdırılmasında, Azərbaycan gəncliyinin milli maraqlara sadiq, yüksək vətəndaş məsuliyyətinə malik şəxsiyyətlər kimi yetişdirilməsində ali təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşdüyünü diqqətə çatdırdı: "Müasir dövrdə universitetlər yalnız peşəkar kadr hazırlayan elm və təhsil müəssisələri deyil, eyni zamanda, dövlətçilik irsinin, milli-mənəvi dəyərlərin, azərbaycançılıq ideologiyasının təbliğ olunduğu önəmli ictimai institutlardır.

Bu xüsusda, Azərbaycan Dillər Universitetinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Universitetdə gənclərin müasir biliklərə yiyələnməsi, xarici dilləri dərindən öyrənməsi, kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi ilə yanaşı, tarixi köklərə bağlı və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar kimi formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılır. Müsir dövrdə gənclərin qarşısında dayanan əsas vəzifə yüksək bilik və bacarıqlara yiyələnmək, milli maraqları hər zaman üstün tutmaq və əzmkar fəaliyyətləri ilə ölkəmizin gələcəyinə layiqli töhfə verməkdir. Əminik ki, milli qurtuluşdan başlanan şanlı zəfər yolu bundan sonra da xalqımıza tarixi nailiyyətlər qazandıracaq".

**ADU-nun rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla** çıxışında bildirdi ki, yaşlı nəsil Ulu öndərin siyasi hakimiyyətə qayıtdığı dövrü yaxşı xatırlayır. Onun sözlərinə görə, həmin dövrdə uçurum qarşısında dayanan Azərbaycanda vətəndaş müharibəsi demək olar ki, başlamışdı: "Bunun qarşısını Heydər Əliyevin Bakıya qayıdışı aldı. Onun nüfuzu, şəxsiyyətinin böyüklüyü qarşı duran tərəflərin bir-birlərinə qəsd etmələrinə, ölkəni, Vətəni, milləti bölmələrinə imkan vermədi. Bu cür hərəkətlərin qarşısı alındı. Bundan öncə Ulu öndər bir neçə il Naxçıvanda yaşayıb fəaliyyət göstərmişdir. Təsəvvür edin ki, hələ 1990-cı ilin noyabrında ümummilli liderin təşəbbüsü ilə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı muxtar respublikanın Dövlət Bayrağı kimi rəsmən təsdiq edildi. Bu, ağlasığmaz bir iş idi. Elə bunun özü Ulu öndərin Azərbaycan dövləti və xalqı üçün əlindən gələni etdiyinin göstəricisidir. Milli Qurtuluş Günü isə Azərbaycan dövlətçiliyinin xilası və inkişafının əsasını qoyan mühüm tarixi hadisədir".

Rektor qeyd etdi ki, Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası ölkənin bütün sahələrində olduğu kimi, təhsil sisteminin də müasirləşməsinə və beynəlxalq nüfuzunun artmasına şərait yaradıb: "Universitetimiz Ulu öndərin tövsiyələrinə əsasən çox şərəfli bir yol keçmişdir. Bizim müəllim və tələbələrimiz bu gün müxtəlif beynəlxalq reytinqlərdə yüksək yerləri tutmaqla yanaşı, universitetdaxili həyatın, universitetdaxili münasibətlərin zənginləşməsində, şəffaflaşmasında xüsusi rol oynayırlar.

Universitetimiz bir ailə kimidir və bu ailə özünün daha geniş kontekstini Nəsimi rayonunda yerləşən digər universitetlərlə bir yerdə tapır. Bu universitetlər arasında əlaqənin özü də rayon rəhbərliyi tərəfindən ciddi şəkildə tövsiyə edilir. Biz bütövlükdə, Azərbaycan təhsilinin ayrılmaz hissəsi kimi bu gün əlimizdən gələni edirik".

ADU-nun rektoru gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin, milli-mənəvi dəyərlərə bağlılığının və dövlətçilik ənənələrinin qorunmasının ali məktəblərin qarşısında duran əsas vəzifələrdən biri olduğunu bildirdi.

**ADU-nun professoru Fərman Zeynalov** çıxışında ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşdü. O, dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli həmrəyliyin təmin olunması və ölkənin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində misilsiz xidmətlərindən danışdı.

**Universitetin III kurs tələbəsi Fəxriyyə Mirzəyeva** isə Milli Qurtuluş Gününün Azərbaycan xalqının taleyində xüsusi yer tutduğunu vurğuladı. O bildirdi ki, bu əlamətdar tarix müstəqil Azərbaycanın gələcək inkişafının təməlini qoyub və gənc nəslin vətənə, dövlətə bağlılıq ruhunda yetişməsində mühüm rol oynayır.

Sonra YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, ADU-nun rektoru Kamal Abdulla və YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələrini təqdim etdilər.

Məclis ADU tələbələrinin ifasında Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı ilə davam etdirildi.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 166** **3 iyun 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 537 nömrəli və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 538 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1317 (Cild I); 2025, № 10, maddə 976) ilə təsdiq edilmiş "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Bu Qaydada nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanının funksiyalarını himayədar ailəyə verilmiş əlilliyi olan uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdiriləndək – valideyn himayəsindən məhrum olmuş əlilliyi olan uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik), digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər.".

**2.** 2.1-ci bəndin birinci cümləsində "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik)" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin.

**3.** 3.5.5-ci yarımbənddə "himayə" sözü "himayəçilik" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 169** **9 iyun 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 noyabr tarixli 533 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 noyabr tarixli 533 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382 (Cild I); 2024 № 9 maddə 1049) ilə təsdiq edilmiş "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nə aşağıdakı məzmunda 39-cu hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 39. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti |

**2.** "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in, "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in və "İnformasiya sistemlərinin "Lisenziyalar və icazələr" portalına inteqrasiyası üçün texniki tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2560 (Cild I); 2025, № 2, maddə 196, № 9, maddə 877; 2026, № 1, maddə 93) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in 18-ci hissəsinin "Son müddət" sütununda "1 mart 2018-ci il" sözləri "2026-cı il" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"ə aşağıdakı məzmunda 14-cü hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 14. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti üzrə | | |
| 14.1. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən verilən lisenziya və icazələr barədə məlumatlar | 2026-cı il |

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 oktyabr tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 10, maddə 1000) ilə təsdiq edilmiş "Yüksəkixtisaslı miqrant" portalına inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısı"na aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 2. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 170** **9 iyun 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421, № 9, maddə 858; 2026, № 1, maddə 92, № 2, maddə 197) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nin 9-1.2-ci bəndində "20" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 171** **9 iyun 2026-cı il, Bakı şəhəri**

**"Ümumi istifadədə olan dəmiryol nəqliyyatının infrastrukturunun saxlanması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ümumi istifadədə olan dəmiryol nəqliyyatının infrastrukturunun saxlanması və ondan istifadə Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 172** **9 iyun 2026-cı il, Bakı şəhəri**

**"Xidməti parklanma yerləri təşkil olunan dövlət orqanlarının (qurumlarının) siyahısı, onlara ayrılan yerlərin sayı və həmin parklanma yerlərinin olduğu parklanma məntəqələrinin ünvanı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 156 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xidməti parklanma yerləri təşkil olunan dövlət orqanlarının (qurumlarının) siyahısı, onlara ayrılan yerlərin sayı və həmin parklanma yerlərinin olduğu parklanma məntəqələrinin ünvanı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 173** **9 iyun 2026-cı il, Bakı şəhəri**

**"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydaların təsdiq edilməsi haqqında" 1999-cu il 31 may tarixli 87 nömrəli, "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər"in təsdiq edilməsi haqqında" 2023-cü il 6 fevral tarixli 36 nömrəli və "Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər"in təsdiq edilməsi haqqında" 2023-cü il 6 fevral tarixli 37 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187, № 9, maddə 874; 2026, № 2, maddə 187) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. qazın topdansatışı, nəqli, paylanması, istehlakçılara qazın pərakəndə satışı, qazın saxlanması xidmətləri, qazın nəqli şəbəkəsinə və qazpaylayıcı şəbəkəyə qoşulma xidmətləri, sabit tarif".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601 (Cild I); 2024, № 1, maddə 111; 2025, № 2, maddə 186) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.10.1-ci yarımbənddə "elektrik, rabitə, su, qazpaylayıcı" sözləri "qazpaylayıcı sistem operatoru, elektrik, rabitə, su" sözləri ilə əvəz edilsin;

2.2. Qaydaya 2 nömrəli Əlavədə "elektrik, rabitə, su, qazpaylayıcı" sözləri "qazpaylayıcı sistem operatoru, elektrik, rabitə, su" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 23 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 235 (Cild I); 2024, № 4, maddə 440) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı Qaydaları"nın 3.2-ci bəndində "qaz təsərrüfatında təhlükəsizlik qaydalarına" sözləri "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 24.7-ci maddəsində nəzərdə tutulan qaz təchizatı obyektlərində təhlükəsizlik qaydalarına" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 128 (Cild I); 2026, № 1, maddə 82) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.11-ci yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207,1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 96 nömrəli, 29 aprel tarixli 123 nömrəli, 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli və 15 may tarixli 149 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222220. "Qaz haqqının ödənilməsi" maddəsinə "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2756 (Cild I); 2024, № 1, maddə 83; 2026, № 2, maddə 187) ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.13-cü yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 184 (Cild I); 2024, № 1, maddə 83; 2026, № 2, maddə 187) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"nin 2.1.13-cü yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571; 2025, № 3, maddə 303, № 9, maddə 869) ilə təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"na əlavə - "Azərbaycan Respublikasının enerji balansı"nın strukturu"nun 3.10.1-ci, 3.12-ci və 3.14-cü sətirlərində ismin müvafiq hallarında "Qaz paylayıcısı" sözləri ismin müvafiq hallarında "Qazpaylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin.

**9.** "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydaların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 31 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 336 (Cild I); 2025, № 12 (II kitab), maddə 1209) ləğv edilsin.

**10.** "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 299 (Cild I); 2025 № 10, maddə 974, № 12 (II kitab), maddə 1240) ləğv edilsin.

**11.** "Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 300 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 174** **9 iyun 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti arasında Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 899 nömrəli Sərəncamına əsasən 2026-cı il 18 fevral tarixində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti arasında Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti arasında Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nin 5-ci əlavəsində qeyd olunmuş "Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 175** **10 iyun 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 545 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1055 (Cild I); 2025, № 5, maddə 515) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 1-ci hissəsi ləğv edilsin və aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# TANAP layihəsi: Azərbaycandan Türkiyəyə “mavi axın”

*8 ildə bu kəmərlə qardaş ölkəyə 36 milyard kubmetr qaz ixrac olunub*

**“Şahdəniz” yatağından çıxarılan təbii qazın ölkənin hüdudlarından kənara nəql edən Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) ilk hissəsinin istifadəyə verilməsindən 8 il ötür. Xatırladaq ki, 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində boru kəmərinin birinci hissəsinin açılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Həmin ayın 30-da isə Türkiyəyə ilk qaz həcmlərinin nəqlinə başlanıb.**

Trans-Anadolu boru kəməri Azərbaycanın enerji siyasətinin təntənəsidir. Belə ki, ölkəmiz əvvəllər qaz ehtiyatlarını dörd istiqamətdə ixrac etmək imkanına malik olsa da, yeni əsrdə daha bir nəhəng enerji dəhlizinin yaradılmasına üstünlük verib. Beləliklə, ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində XXI əsrin ən nəhəng enerji layihələrindən olan Cənub Qaz Dəhlizi ideyadan reallığa çevrilib.

Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrut sayılan Cənub Qaz Dəhlizinin mühüm, sonuncudan əvvəlki seqmenti sayılan Trans-Anadolu qaz kəməri layihəsi Azərbaycan və Türkiyənin birgə enerji əməkdaşlığının, dostluq və qardaşlıq münasibətlərinin təntənəsidir. Azərbaycan qazını Türkiyə vasitəsilə dünya bazarına çıxaran bu boru kəməri ötən müddətdə hər iki ölkənin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına, bu sahədə tərəfdaşlıq münasibətlərinin bir qədər də möhkəmləndirilməsinə səbəb olub.

Təsadüfi deyil ki, ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığın ənənəvi xarakter daşıdığını dəfələrlə bəyan edən dövlətimizin başçısı İlham Əliyev XXI əsrin nəhəng qaz ixracı layihəsinin əhəmiyyəti barədə danışarkən deyib: “TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək bu böyük layihəyə start verdi. Ümid edirəm ki, TANAP layihəsi Azərbaycan və Türkiyə üçün önəmli qaz təminatçısı olacaqdır və eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcəkdir”.




TANAP Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin mərkəzi və əsas hissəsi olan bir layihədir. Uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz kəməri sayılan TANAP Gürcüstan–Türkiyə sərhədindən başlayaraq Türkiyə–Yunanıstan sərhədində başa çatır. Daha sonra isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilib.

Xatırladaq ki, TANAP layihəsi 2011-ci ildə həyata vəsiqə alıb. Belə ki, həmin il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində “Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair” saziş imzalanıb. Həmin il dekabrın 26-da “Türkiyə ərazisində magistral qaz kəmərinin tikintisi üzrə konsorsiumun yaradılması haqqında” Azərbaycan və Türkiyə hökumətləri arasında Anlaşma Memorandumuna imza atılıb.

Növbəti ildə isə qaz kəmərinin tikintisi üzrə daha ciddi addımlar atılıb. 2012-ci il iyunun 26-da “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) sisteminə dair” Saziş imzalanıb. Həmin il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında hər iki saziş müzakirəyə çıxarılaraq təsdiqlənib.

Daha sonra Prezident İlham Əliyev “Azərbaycan və Türkiyə hökumətləri arasında təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gələn təbii qazın Türkiyə ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair” sazişin təsdiq edilməsi haqqında” Qanun imzalayıb. Bununla da Azərbaycanı Avropa ölkələrinin qaz bazarlarına birləşdirən Trans-Anadolu ixrac boru kəmərinə dair hüquqi bazanın formalaşdırılması başa çatdırılıb.

Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, 5 il vaxt sərf olunub. Ölkəmizi Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə isə 6,5 milyard ABŞ dollarından artıq vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası 2019-cu il noyabrın 30-da istifadəyə verilib. Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP ilə qazı Avropa istiqamətində nəqlini davam etdirən TAP birləşdirilib.

Bununla da Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açılıb. TANAP Azərbaycanın Türkiyə, Gürcüstan və bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox “maye yanacağ”ın çıxarılmasına və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir. TANAP layihəsi Trans-Xəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradır. Gələcəkdə Qazaxıstan və Türkmənistanın bu layihəyə qoşulması ilə Azərbaycan, həm də qaz nəqlində transit ölkəyə çevrilmək imkanı əldə edəcək.

Türkiyənin şərqindən qərbinə uzanan TANAP kəməri 1793 kilometr məsafə qət edir. Bunun da 1339 kilometri Gürcüstan–Türkiyə sərhədindən Əskişəhərədək, 454 kilometri isə Türkiyə–Yunanıstan sərhədinədək olan hissəni əhatə edir. Türkiyənin 20 vilayətindən keçən boru kəmərinin diametri quruda 56 və 48, dənizdə isə 36 düymdür. Maksimum hündürlüyü dəniz səviyyəsindən 2700 metr olan TANAP-dan Türkiyənin qazpaylama sisteminə iki qol ayrılıb. İllik maksimum ötürücülük qabiliyyəti 30,7 milyard kubmetrə hesablanmış kəmər ilkin mərhələdə ildə 16,2 milyard kubmetr qaz nəql etmək imkanına malikdir. Kəmər boyunca 12 təmizləyici tərtibatın buraxılma kamerası, eyni sayda təmizləyici tərtibatın qəbulu kamerası, 49 bağlayıcı armatur stansiyası, eləcə də 4 qaz sərfini ölçmə stansiyası quraşdırılıb.

Ötən müddətdə boru kəməri vasitəsilə 89 milyard kubmetrdən artıq Azərbaycan qazı nəql olunub. Bunun da 36 milyard kubmetrdən çoxu Türkiyə, 53 milyard kubmetrdən çoxu isə Avropa bazarlarına çatdırılıb. Bu rəqəmlər kəmərin istismara verildiyi vaxtdan qlobal enerji təhlükəsizliyində oynadığı strateji rolu təsdiqləyir. Məhz buna görədir ki, TANAP və onun aid olduğu Cənub Qaz Dəhlizinə beynəlxalq maraq getdikcə artır. Elə 2026-cı il iyunun ilk günlərində keçirilən Bakı Enerji Həftəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və ABŞ-ın investisiya nəhəngi “Apollo Global Management” arasında TANAP layihəsi üzrə strateji əməkdaşlığın rəsmiləşdirilməsi də bunun bariz nümunəsidir.

Xəbər verildiyi kimi, iyunun 2-də SOCAR-ın prezidenti Rövşən Nəcəfin və “Apollo”nun idarəedici direktoru Conatan Barrın imzaladıqları sazişə əsasən, ABŞ şirkəti TANAP-da “SOCAR Türkiyə”yə məxsus 7 faizlik paya sahib olan holdinq şirkətində azlıq təşkil edən və nəzarət hüququ verməyən pay əldə edib. Bununla yanaşı, tərəflər enerji maliyyələşdirilməsi sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu da imzalayıblar. Sənəd TANAP üzrə mövcud maliyyələşdirmənin 300 milyon ABŞ dollarınadək artırılmasını, həmçinin SOCAR qrupunun digər aktivlərinin maliyyələşdirilməsi imkanlarının araşdırılmasını nəzərdə tutur.

“Apollo”nun Cənub Qaz Dəhlizinin əsas komponenti olan TANAP-da SOCAR-a məxsus paya sahib olan törəmə quruma 1 milyard ABŞ dolları həcmində investisiyanın yatırılması diqqət çəkir. Hər şeydən əvvəl bu, TANAP-ın hazırkı 16 milyard kubmetrlik gücdən 24 milyard, daha sonra isə 31 milyard kubmetrlik mərhələyə keçidə yaxınlaşdığı bir dövrə təsadüf edir. Bunun üçün isə kompressor stansiyalarına və əlaqəli infrastruktura əhəmiyyətli investisiyalar tələb olunacaq. Bu baxımdan beynəlxalq kapitala çıxış layihənin gələcək genişlənməsinin əsas amillərindən birinə çevrilir.

Ümumilikdə, “Apollo”nun TANAP-la bağlı bp və SOCAR strukturlarına yatırdığı investisiyaların həcmi, təxminən, 2 milyard ABŞ dollarına çatıb. Bu isə dünyanın ən iri investisiya fondlarının Cənub Qaz Dəhlizini, sadəcə, enerji layihəsi kimi deyil, uzun illər ərzində strateji əhəmiyyətini qoruyacaq Ümumavropa miqyaslı infrastruktur marşrutu kimi qiymətləndirdiyini göstərən mühüm indikator hesab olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Dünən Bakıda “Philip Morris International” PMI şirkətinin təşkilatçılığı və Azərbaycanda Amerika Ticarət Palatasının dəstəyi ilə “Texnovasiya: dayanıqlı iqtisadi transformasiya naminə elm və innovasiya” mövzusunda konfrans keçirilib. Dövlət qurumlarının, biznes dairələrinin, beynəlxalq şirkətlərin və ekspert icmasının nümayəndələrinin iştirak etdikləri toplantıda dayanıqlı iqtisadi artımın təmin olunmasında və iqtisadiyyatın şaxələndirilməsində elmin, innovasiyaların və müasir texnologiyaların rolu müzakirə edilib.**

# Azərbaycan – ABŞ elm və innovasiya əməkdaşlığı



Azərbaycanda Amerika Ticarət Palatasının prezidenti Dəyanət Sadullayev bildirib ki, qlobal dəyişikliklər və artan geosiyasi risklər fonunda bizneslərin dayanıqlılığının gücləndirilməsi əsas prioritetlərdən birinə çevrilib. Müasir dövrdə biznes icmaları üçün yeni texnologiyaların tətbiqinin kifayət etmədiyini diqqətə çatdıran icraçı direktorun sözlərinə görə, şirkətlər biznes modellərini yeniləməli, fəaliyyətlərinin səmərəliliyini artırmalı, yeni çağırışlara uyğunlaşmalı və əlavə dəyər yaratmalıdır. Qeyd olunub ki, dünyada baş verən sürətli dəyişikliklərin biznes mühitində qeyri-müəyyənliyi artırdığı və şirkətlərdən daha çevik yanaşma tələb edildiyi hazırkı şəraitdə texnologiya, kommunikasiya və dialoq platformaları xüsusi əhəmiyyət daşıyır.

İqtisadiyyat nazirinin müşaviri Hüseyn Hüseynov isə qeyd edib ki, hazırda Azərbaycan və ABŞ arasında yeni mərhələyə qədəm qoyan iqtisadi əməkdaşlıq süni intellekt, yüksək məhsuldarlıqlı hesablamalar və rəqəmsal innovasiyalar sahələrini əhatə edir. Onun sözlərinə görə, ABŞ son 30 ildən artıq müddətdə Azərbaycanın ən etibarlı iqtisadi tərəfdaşlarından biri olub və iki ölkə enerji, ticarət və rəqəmsal transformasiya sahələrində güclü əməkdaşlıq bazası formalaşdırıb.

Ötən həftə keçirilən Azərbaycan–ABŞ İqtisadi Dialoqunun tərəflər arasında yeni əməkdaşlıq imkanlarını bir daha nümayiş etdirdiyini vurğulayan nazirlik rəsmisi bildirib ki, enerji və kritik minerallar sahəsində əməkdaşlığın davam etdirilməsi ilə yanaşı, tərəflər yüksək məhsuldarlıqlı hesablamalar, süni intellekt, infrastruktur, bulud texnologiyaları və rəqəmsal innovasiyalar üzrə tərəfdaşlığın yeni mərhələsini inkişaf etdirirlər.

Energetika nazirinin müavini Elnur Soltanov deyib ki, Azərbaycanın iqtisadi inkişafının mühüm göstəricilərindən biri ölkədə formalaşan bilik və bacarıqların beynəlxalq bazarlara çıxarılmasıdır. Son onilliklərdə ölkəmizin enerji sektorunun böyük inkişaf yolu keçdiyini diqqətə çatdıran nazir müavininin sözlərinə görə, əvvəllər enerji layihələrinin həyata keçirilməsində xarici maliyyə və texnologiyalara daha çox ehtiyac duyulurdusa, hazırda Azərbaycan şirkətləri beynəlxalq səviyyədə rəqabət aparmaq imkanına malikdir.

Qeyd olunub ki, Azərbaycan Dövlət Neft Şirkəti hazırda təkcə neft və qaz deyil, eyni zamanda, ölkədə formalaşmış peşəkar bilik və bacarıqları ixrac edir. Şirkətin Azərbaycanla yanaşı, Gürcüstan, Türkiyə, Yunanıstan və digər ölkələrdə emal, logistika və enerji layihələrində iştirakını xatırladan nazir müavininin fikrincə, iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri də məhz insan kapitalı və toplanmış təcrübənin xarici bazarlarda dəyərə çevrilməsidir.

4-cü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov isə qeyd edib ki, Azərbaycan süni intellekt iqtisadiyyatının inkişafı üçün mühüm üstünlüklərə malikdir və bu sahədə regional mərkəzə çevrilmək potensialına sahibdir. Süni intellektin qlobal iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrildiyini bildirən icraçı direktorun sözlərinə görə, “NVIDIA” şirkətinin qiymətləndirmələrinə əsasən, 2040-cı ilədək süni intellekt iqtisadiyyatının qlobal iqtisadiyyata töhfəsi 22 trilyon ABŞ dollarına çata bilər.

Azərbaycanın son 3 ildə rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində mühüm addımlar atdığını diqqətə çatdıran F. Cəfərov bildirib ki, hazırlanan Rəqəmsal İqtisadiyyat Strategiyası çərçivəsində 2026–2029-cu illərdə 300-dən çox yerli şirkət və kiçik, orta biznes subyektinin rəqəmsal transformasiya proqramlarına cəlb edilməsi planlaşdırılır.

“Ələt Azad İqtisadi Zonası Azərbaycanın qeyri-neft sektorunun inkişafına, ixracyönümlü istehsalın genişlənməsinə və xarici investisiyaların cəlb olunmasına xidmət edən mühüm platformadır. Burada fəaliyyət göstərən müəssisələr əsasən ixracyönümlü istehsala üstünlük verməlidirlər. Bu yanaşma yerli bazara yönəlmiş fəaliyyətlə bağlı qeyri-bərabər rəqabət risklərinin qarşısını almaqla yanaşı, Azərbaycanın beynəlxalq istehsal və ticarət şəbəkələrinə inteqrasiyasını gücləndirir”. Bu fikirləri isə Ələt Azad İqtisadi Zonası İdarə Heyətinin sədri Valeh Ələsgərov konfransdakı çıxışı zamanı səsləndirib.

Ələt Azad İqtisadi Zonasının Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yerləşdiyini xatırladan V.Ələsgərovun sözlərinə görə, bu amil rezident şirkətlərə avtomobil, dəmir yolu və dəniz nəqliyyatı vasitəsilə geniş bazarlara çıxış imkanı yaradır.

Konfransda “Philip Morris International” şirkətinin MDB ölkələri üzrə xarici əlaqələr direktoru Aleksey Kim, qurumun elmi əməkdaşlıq üzrə direktoru Tomoko İida, bp şirkətinin transformasiya və texnologiyalar üzrə meneceri Marianna Kərimova çıxış edərək Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişafına töhfə verən innovativ həllərin təşviqi, təcrübə mübadiləsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi ilə bağlı mülahizələrini bölüşüblər.

Toplantı çərçivəsində hökumət və sənaye nümayəndələrinin iştirakı ilə iqtisadi transformasiyaya dair panel sessiyalar keçirilib, eləcə də biznes sektorunda innovativ həllərin tətbiqi və korporativ transformasiya istiqamətində beynəlxalq təcrübəyə nəzər salınıb.

***XQ***

# Ölkəmizdə rəqəmsal sıçrayışın addımları

*Azərbaycan data mərkəzləri bazarında regional gücə çevriləcək*

**Azərbaycanın iqtisadi inkişaf strategiyasında yeni bir istiqamət formalaşır. Söhbət ölkənin rəqəmsal infrastruktur və data xidmətləri ixracatçısı kimi mövqelənməsindən gedir. İqtisadiyyat naziri Mikayıl Cabbarovun ITV və AZƏRTAC-a son müsahibəsi göstərir ki, hökumət data mərkəzləri, bulud texnologiyaları və süni intellekt ekosisteminin inkişafını qarşıdakı illərin əsas prioritetlərindən biri hesab edir. Nazirin sözlərinə görə, yaxın aylarda dünyanın tanınmış texnologiya tərəfdaşları ilə yeni nəsil data mərkəzlərinin yaradılması barədə rəsmi elanların verilməsi gözlənilir.**

Əslində bəhs olunan planların iqtisadi məntiqi kifayət qədər aydındır. Birincisi, Azərbaycan regionun ən sabit investisiya mühitlərindən birinə malikdir. Son illərdə ölkəyə milyardlarla dollar həcmində xarici investisiya cəlb edilməsi və iri enerji, logistika və sənaye layihələrinin uğurla reallaşdırılması investorların risk qiymətləndirməsində mühüm rol oynayır. Data mərkəzləri isə uzunmüddətli və kapital tutumlu layihələr olduğundan, sabitlik bu sahədə əsas şərtlərdən biridir.

İkinci mühüm amil enerji təminatıdır. Süni intellekt sistemlərinin və böyük data mərkəzlərinin fəaliyyəti çox böyük həcmdə elektrik enerjisi tələb edir. Azərbaycanın həm ənənəvi enerji ehtiyatları, həm də sürətlə inkişaf edən “yaşıl enerji” layihələrini nəzərə alsaq, rəqabət üstünlüyünün əldə edilməsi real görünür. Data mərkəzləri üçün elektrik enerjisinin qiyməti və fasiləsiz təchizat layihələrin rentabelliyini müəyyən edən əsas göstəricilərdən hesab olunur.

Üçüncü üstünlük telekommunikasiya bağlantılarıdır. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub rəqəmsal dəhlizlərinin kəsişməsində yerləşir. Xəzər dənizinin dibi ilə çəkilən və planlaşdırılan fiber-optik xətlər, həmçinin region ölkələri ilə artan internet trafik mübadiləsi ölkənin regional məlumat tranzit mərkəzinə çevrilməsi potensialını artırır. Belə olan halda daxili bazarla yanaşı, Gürcüstan, Mərkəzi Asiya ölkələri və hətta Yaxın Şərq bazarları üçün də xidmət göstərən data mərkəzlərinin yaranmasına şərait yarada bilər.

Nazirin açıqlamalarında diqqətçəkən məqam dünyanın tanınmış texnoloji tərəfdaşları ilə yeni, o cümlədən süni intellektin tətbiqini nəzərdə tutan data mərkəzlərinin rəsmi anonsu veriləcəyi barədə fikirlərdir. Son aylarda baş verən rəsmi görüşlər bu tərəfdaşların kim ola biləcəyi barədə müəyyən ehtimallar yaratmağa imkan verir. Məsələn, bu ilin yanvarında Davosda Prezident İlham Əliyev ilə “Dell Technologies” rəhbərliyi arasında keçirilən görüşdə superkompüter infrastrukturu, süni intellekt tətbiqləri, data mərkəzləri və bulud həlləri müzakirə olunub. Görüşdə, həmçinin yeni nəsil data mərkəzlərinin layihələndirilməsi və həyata keçirilməsi imkanları da nəzərdən keçirilib.

Fevral ayında Münxendə Prezident İlham Əliyevin “Oracle Corporation”ın baş icraçı direktoru ilə görüşü də xüsusi diqqət çəkir. Tərəflər süni intellekt, bulud texnologiyaları və uzunmüddətli texnoloji əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Daha sonra Mikayıl Cabbarov da ABŞ şirkətləri və hyperscaler platformaları ilə danışıqlar aparıldığını təsdiqləyib.



Bundan əlavə, ABŞ-ın süni intellekt şirkəti “Haimaker” ilə aparılan müzakirələr çərçivəsində Ələt Azad İqtisadi Zonasında data mərkəzi və bulud platformasının yaradılması ideyası gündəmə gətirilib. Bütün bunları nəzərə aldıqda, mümkün tərəfdaşlar sırasında “Dell Technologies”, “Oracle” və “Haimaker” kimi şirkətlərin adları real görünür. Əlavə olaraq, qlobal bazarın inkişaf tendensiyaları nəzərə alınarsa, gələcək mərhələlərdə “Microsoft”, “Amazon Web Services” (AWS), “Google Cloud” və ya digər böyük bulud xidmətləri operatorlarının da Azərbaycana maraq göstərməsi istisna deyil. Lakin hazırda bu istiqamətdə rəsmi təsdiq yoxdur.

Ən vacib məsələ odur ki, data mərkəzləri yüksək ixtisaslı iş yerləri yaradır, yerli proqram təminatı sənayesini inkişaf etdirir, universitetlərlə əməkdaşlığı gücləndirir və ölkənin rəqəmsal suverenliyini artırır. Uğurla həyata keçirilən strategiya nəticəsində yaxın onillikdə regionun enerji qovşağı ilə yanaşı, süni intellekt və data xidmətləri qovşağına çevrilmək imkanının əldə edilməsi yüksəkdir.

Hazırda qarşıda duran əsas vəzifələrdən biri bu infrastrukturun ətrafında tam bir rəqəmsal ekosistem formalaşdırmaqdır. Çünki prosesdə data mərkəzlərinin tikintisindən əlavə, proqram təminatı istehsalçıları, süni intellekt startapları, kibertəhlükəsizlik şirkətləri və elmi-tədqiqat mərkəzləri üçün əlverişli mühit yaradılmalıdır. Bu yanaşma ölkəyə həm də yüksək əlavə dəyər yaradan rəqəmsal məhsul və həllərin ixracı istiqamətində yeni imkanlar aça bilər.

Sonda bir məqamı da qeyd edək ki, Qlobal iqtisadiyyatda məlumatların və hesablama gücünün strateji əhəmiyyəti sürətlə artır. Bir vaxtlar enerji və nəqliyyat marşrutları üzərində qurulan rəqabət artıq rəqəmsal infrastruktur sahəsində də özünü göstərir. Azərbaycan coğrafi mövqeyi, enerji potensialı və son illərdə formalaşdırdığı biznes mühiti sayəsində bu transformasiyadan faydalanmaq üçün əlverişli şərait var. Gələcək perspektivdə planlaşdırılan yeni tərəfdaşlıq elanları isə ölkənin regional rəqəmsal mərkəzə çevrilməsi istiqamətində atdığı addımların miqyasını daha aydın göstərəcək.

***Nurlan ABDALOV***
***XQ***

# Torpağın diriliyi sudadır

## *Suyun faydası isə ondan səmərəli istifadə ilə ölçülür*

**Qlobal iqlim dəyişiklikləri, artan ərzaq tələbatı və məhdudlaşan su ehtiyatları XXI əsrdə kənd təsərrüfatının qarşısında duran əsas çağırışlar sırasında yer alır. Dünyada əhalinin sürətlə çoxalması isə ərzaq istehsalının genişləndirilməsini zəruri edir. Azərbaycan da bu proseslərdən kənarda qalmır, iqlim dəyişikliklərinin təsirlərinə daha həssas regionlardan biri kimi su ehtiyatlarından səmərəli istifadə və məhsuldarlığın artırılması istiqamətində yeni yanaşmalar tətbiq edir. Bu baxımdan hazırda müasir və qənaətli suvarma sistemlərinin genişləndirilməsi dövlətin aqrar siyasətinin prioritet istiqamətlərindən biri olaraq diqqət çəkir.**

Azərbaycan Prezidenti İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" da məhz bu reallıqlar nəzərə alınaraq hazırlanıb. Sənəddə, eyni zamanda, BMT-nin proqnozlarına əsaslanılaraq, dünya əhalisinin sayının 2030-cu ildə 8,5 milyard nəfərə, 2050-ci ildə isə 9,7 milyard nəfərə çatacağı vurğulanıb. Bu halda isə 2050-ci ilədək ərzaq istehsalının indiki səviyyə ilə müqayisədə, təxminən, 50 faiz artırılmasının zəruriliyi bildirilib.

Mütəxəssislər tərəfindən belə bir şəraitdə kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinin təkcə əkin sahələrinin genişləndirilməsi hesabına deyil, həm də daha çox innovativ texnologiyaların tətbiqi və resurslardan səmərəli istifadə yolu ilə reallaşacağı qeyd edilir. Məhz buna görə də suvarma səmərəliliyinin artırılması, torpaq münbitliyinin qorunması və su ehtiyatlarının qənaətlə istifadəsi dövlət proqramında əsas prioritetlər sırasında yer alır.

Azərbaycanın coğrafi mövqeyi və iqlim xüsusiyyətləri ölkəni qlobal istiləşmənin təsirlərinə daha həssas edir. Son illərdə müşahidə olunan temperaturun yüksəlməsi və quraqlıq hallarının daha çox yay aylarında intensivləşməsi kənd təsərrüfatına ciddi təsir göstərir. Rəsmi statistik məlumatlar da problemin miqyasını aydın şəkildə nəzərə çarpdırır. Quraqlıq səbəbindən 2020-ci ildə 68,6 min hektar, 2021-ci ildə 42,2 min hektar, 2022-ci ildə 101,4 min hektar, 2023-cü ildə isə 178,3 min hektar əkin sahəsinin tamamilə məhv olması məhz bunun məntiqi ifadəsidir. Xüsusilə taxıl sahələrində müşahidə edilən itkilər ölkənin ərzaq təhlükəsizliyi baxımından ciddi narahatlıq yaradır.

Quraqlıq yalnız məhsul itkisi demək deyil. Bu proses kənd yerlərində gəlirlərin azalmasına, istehsal xərclərinin artmasına, fermerlərin maliyyə dayanıqlılığının zəifləməsinə və bütövlükdə aqrar sektorun inkişaf tempinin aşağı düşməsinə səbəb olur. Buna görə də su ehtiyatlarının daha səmərəli idarə olunması getdikcə strateji zərurətə çevrilir. Belə bir şəraitdə isə ənənəvi selləmə suvarma üsullarının artıq müasir tələblərə cavab vermədiyi bildirilir. Çünki bu üsul həm böyük həcmdə su itkisinə yol açır, həm də torpaqların şoranlaşmasını sürətləndirir. Nəticədə torpaqda münbitlik zəifləyir və məhsuldarlıq azalır.

### Müasir suvarma sistemləri

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının yanaşmalarında da məhsuldarlığın artırılması ilə yanaşı, təbii resursların qorunması əsas prinsip kimi qəbul edilir. Eyni zamanda, müasir aqrar inkişaf modelinin tətbiqi ilə daha az su və enerji sərfi hesabına daha çox məhsul əldə etmək nəzərdə tutulur. Azərbaycanın son illərdə həyata keçirdiyi aqrar siyasət çərçivəsində də bu məsələyə xüsusi əhəmiyyət verilir. Elə buna görə də Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatında



rəqəmsallaşmanın diqqətdə saxlanılması, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və su idarəçiliyinin modernləşdirilməsi istiqamətində mühüm addımlar atılır.

Bu layihələrin əsas məqsədi təkcə cari tələbatı ödəmək deyil, həm də gələcək nəsillər üçün dayanıqlı aqrar sistem formalaşdırmaqdır. Çünki su ehtiyatlarının qorunması iqtisadi məsələ olmaqla bərabər, həm də milli təhlükəsizlik və strateji inkişaf xətti kimi diqqət çəkir. Dünyanın inkişaf etmiş kənd təsərrüfatı ölkələrinin təcrübəsi də suvarma texnologiyalarının modernləşdirilməsini məhsuldarlığın artırılmasıda ən səmərəli vasitələrindən biri olduğunu göstərir. Pivot, damcı və yağmurlama sistemlərinin bu sahədə ən geniş tətbiq edilən texnologiyalar kimi dəyərləndirilməsi də bunun bariz ifadəsidir.

Azərbaycanda hazırda xüsusilə pivot suvarma sistemlərinin tətbiqi sürətlə genişlənir. Bu sistemlər vasitəsilə suyun bitkilərə bərabər paylanması təmin olunur, itkiləri minimum səviyyəyə düşür və əmək xərcləri azalır. Aparılan müşahidələr də göstərir ki, müasir suvarma sistemlərinin tətbiq olunduğu təsərrüfatlarda məhsuldarlıq 2 dəfəyə yaxın çoxalır, istifadə olunan suyun həcmi isə, təxminən, 2,5 dəfə azalır.

Bu nəticələr həm iqtisadi, həm də ekoloji baxımdan olduqca yüksək dəyərləndirilir. Çünki təsərrüfatlarda daha az su istifadə olunmaqla daha çox məhsul əldə edilir, eyni zamanda, su ehtiyatlarının qorunmasına mühüm töhfə verilir. Bu, xüsusilə quraqlıqla bağlı narahatlıq yarandığı bir vaxtda son dərəcə zəruri amil sayılır.

Müasir suvarma sistemlərinin geniş tətbiqi böyük maliyyə vəsaiti tələb etdiyindən dövlətin bu istiqamətdə geniş dəstək mexanizmlərinin formalaşması da sürətlənir. Kənd Təsərrüfatı Nazirliyi və Aqrar Subsidiya Şurası tərəfindən qəbul edilən qərarlar nəticəsində müasir suvarma sistemləri quraşdırılmış təsərrüfatlara daha yüksək subsidiya verilir.

Hazırda belə təsərrüfatlar üçün subsidiya məbləği 60 faiz artırılmış formada tətbiq edilir. Bu təşviq mexanizmi ilə fermerlərin yeni texnologiyalara marağı çoxalır. Çünki əlavə subsidiya nəticəsində fermerin investisiya yükü azalır, müasir sistemlər isə qısa müddətdə yeni müsbət nəticələrlə müşahidə edilir. Bununla yanaşı, fiziki və hüquqi şəxslərə lizinq yolu ilə verilən suvarma sistemləri və avadanlıqlarının ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq olunur. Bu da fermerlərin müasir texnologiyalara çıxış imkanlarını xeyli genişləndirir.

### Təşviq və dəstək mexanizmləri

Azərbaycanda pivot suvarma sistemlərinin tətbiqinin genişləndirilməsində Prezident İlham Əliyevin 19 iyul 2022-ci il tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərmanı yüksək dəyərləndirilir. Həmin fərmana əsasən, pivot suvarma sistemləri quraraq ərzaqlıq buğda istehsal edən fermerlərə hər ton məhsula görə əlavə 100 manat subsidiya verilir. Bu təşviq mexanizmi əsasən fermerləri daha çox ərzaqlıq buğda istehsalına cəlb etməyə yönəliir.

Sənədin qəbulundan ötən müddətdə ölkədə pivot sistemləri ilə əhatə olunan ərazilərin həcminin sürətlə artması müşahidə edilib. Son 4 ildə müasir pivot suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatların ümumi sahəsi 80 min hektardan 120 min hektara çatdırılıb. Nəticədə suvarma imkanları genişlənib, məhsuldarlıq yüksəlib və ölkənin daxili istehsal potensialı güclənib. Bununla da respublikanın ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni inkişaf mərhələsi başlanıb.

Hazırda hər il, təxminən, 4-5 min hektar yeni ərazi pivot suvarma sistemləri ilə əhatə olunur. Ölkədə bu göstəricinin daha da artırılması istiqamətində davamlı iş aparılır. Eyni zamanda, pivot sistemlərinin tətbiq oluna biləcəyi yeni ərazilərin müəyyənləşdirilməsi üzrə tədqiqatlar davam etdirilir.

Fermerlərin maliyyə imkanlarının genişləndirilməsi məqsədilə hökumət əlavə dəstək alətləri də formalaşdırıb. Nazirlər Kabineti ərzaqlıq buğda istehsalı üzrə öhdəlik götürərək Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün verilən kreditlərə dövlət zəmanəti mexanizmini təsdiqləyib. Bu qərarla fermerlərin maliyyə resurslarına çıxışı asanlaşıb.

Dövlət zəmanəti bank və kredit təşkilatlarının risklərini azaltdığından, bu maliyyə qurumlarının fermerlərə daha əlverişli şərtlərlə kredit təqdim etmək imkanı genişlənib. Bunun nəticəsində müasir suvarma sistemlərinin alınması üçün investisiyaların həcmi artıb, texnologiyaların tətbiqi sürətlənib və kənd təsərrüfatının modernləşmə prosesi geniş vüsət alıb.

Müasir suvarma texnologiyalarının əhəmiyyəti yalnız məhsuldarlığın artırılması ilə məhdudlaşmır. Bu sistemlər torpaq və su ehtiyatlarının qorunmasına da mühüm töhfə verir. Belə ki, ənənəvi selləmə suvarma üsulu torpaqlarda şoranlaşma, eroziya və münbit qatın yuyulması kimi problemlər meydana çıxarır və uzunmüddətli perspektivdə bu proseslər torpaqların kənd təsərrüfatı üçün yararsız hala düşməsinə səbəb olur. Pivot və digər müasir suvarma sistemləri ilə suyun normaya uyğun verilməsi torpağın fiziki və kimyəvi xüsusiyyətlərinin qorunmasına imkan yaradır. Bu da gələcək nəsillər üçün münbit torpaq ehtiyatlarının saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bu gün inkişaf etmiş ölkələrin kənd təsərrüfatı "daha az resursla daha çox məhsul" prinsipinə əsaslanır. Azərbaycanın aqrar inkişaf strategiyası da məhz bu yanaşmaya söykənir. Müasir suvarma sistemlərinin tətbiqi həm iqlim dəyişikliklərinə uyğunlaşma, həm ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, həm də kənd yerlərində iqtisadi rifahın yüksəldilməsi baxımından mühüm rol oynayır. Dövlət tərəfindən həyata keçirilən subsidiya, güzəştli lizinq, dövlət zəmanətli kredit və əlavə məhsul subsidiyası kimi təşviq mexanizmləri fermer təsərrüfatlarında yeni texnologiyalara keçidi sürətləndirir. Bu siyasətin isə artıq real nəticələri diqqət çəkir.

Beləliklə, kənd təsərrüfatının qarşısında duran əsas vəzifələrdən biri dəyişən iqlim şəraitində məhsuldarlığı artırmaq və su ehtiyatlarından daha səmərəli istifadə etməkdir. Quraqlıq narahatlığınn artdığı, su resurslarının məhdudlaşdığı bir dövrdə müasir və qənaətli suvarma sistemlərinin tətbiqi isə zərurətdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində ölkədə müasir suvarma texnologiyalarının tətbiqi genişlənir, məhsuldarlıq artır, suya qənaət olunur və ərzaq təhlükəsizliyi möhkəmlənir. Bu istiqamətdə görülən işlər də aqrar sektorunun innovativ inkişaf mərhələsinə qədəm qoyduğundan xəbər verir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Əbdülrəhim DADAŞOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdirinin müavini**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aqrar sahədə dövlət dəstəyi və subsidiya mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı fərman imzalayıb. Fərmanla "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə", "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi", "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması" və "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında əvvəlki fərmanlarda dəyişikliklər edilib.

Ölkənin kənd təsərrüfatında aparılan yeni islahatlar aqrar sahədə dövlət dəstəyinin daha çevik, ünvanlı və nəticəyönümlü mexanizm əsasında qurulmasına xidmət edir. Dəyişikliklərin əsas mahiyyəti fermerlərin istehsal prosesində qarşılaşdığı ilkin maliyyə yükünün azaldılması, kənd təsərrüfatı məhsullarının istehsal və tədarük zəncirinin stimullaşdırılması, beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi və dövlət dəstəyi mexanizmlərində rəqəmsal nəzarətin gücləndirilməsi ilə bağlıdır.

İslahatların mühüm istiqamətlərindən biri də bağçılıq subsidiyasının ayrıca mexanizm kimi müəyyənləşdirilməsidir. Yeni mexanizmə əsasən, çoxillik əkmələrin salındığı ilk ildə fermerlərin ting alınması, torpağın aqrokimyəvi analizinin aparılması, aqrotexniki xidmətlərdən istifadə edilməsi, müasir suvarma sistemlərinin qurulması və fitopatoloji analizlərlə bağlı xərclərinin bir hissəsinin kompensasiyası nəzərdə tutulur.

Yuxarıda adıçəkilən fərmanda fermerlərin subsidiyanın bir hissəsini əvvəlcədən almasını nəzərdə tutan avans mexanizminin müəyyənləşdirilməsi də mühüm əhəmiyyət daşıyır. Əkin və bağçılıq subsidiyalarının 60 faizdən çox olmayan hissəsinin əvvəlcədən ödənilməsi fermerlərin mövsümi istehsal xərclərini daha vaxtında qarşılamağa imkan verir. Bu yanaşma fermerlərin toxum, ting, gübrə, aqrotexniki xidmət və suvarma kimi ilkin xərclərə çıxışını asanlaşdırmaqla yanaşı, subsidiya vəsaitlərinin mərhələli və nəzarətli istifadəsinə də şərait yaradır.

# Vətəndaş cəmiyyəti və Azərbaycan kəndinin gələcək yüksəlişi

**İyunun 11-də QHT Agentliyində "Azərbaycanın kənd təsərrüfatının inkişafında yeni prioritetlər" mövzusunda aqrar sahə profilli QHT-lərin iştirakı ilə ictimai müzakirə keçirildi.**

QHT Agentliyinin Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Rizvan Nəbiyev bildirdi ki, 2026-cı il mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə dövlət başçısı tərəfindən qarşıya qoyulmuş vəzifələr aqrar sahənin inkişafında tam yeni mərhələ yaradır. R.Nəbiyevin sözlərinə görə, Azərbaycan Prezidentinin kənd təsərrüfatının inkişafına dair konkret hədəfləri olan, dövlət və özəl sektorun imkanlarını vahid platformada birləşdirən yeni Dövlət Proqramının hazırlanması ilə bağlı tapşırıqları ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, idxaldan asılılığın azaldılması və yerli istehsalın rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müşaviri Bağış Əhmədov "Aqrar sektorda artım və ixrac perspektivləri" mövzusunda çıxışında söylədi ki, kənd təsərrüfatı ölkə üzrə ÜDM-də 5,9 faiz paya malik olsa da, kənd yerlərinin inkişafında məşğulluğun və ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rola malikdir. B.Əhmədov onu da dedi ki, 2030-cu ildə Azərbaycanda kənd təsərrüfatında yaranan əlavə dəyərin 2025-ci ilə nisbətən ən azı 10,4 faiz artacağı gözlənilir ki, bu da əsasən ixrac hesabına təmin ediləcək. Belə ki, qeyd edilən dövrdə kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracının, təxminən, 34 faiz artacağı proqnozlaşdırılır.

**ADA universitetinin kənd təsərrüfatı və qida elmləri kafedrasının professoru Sahil Quliyev** XQ-yə özəl açıqlamasında bildirdi ki, son dövrlərdə aqrar sektor dövlət başçısının diqqət mərkəzində olmuşdur: "Bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir. Lakin bu sahədə hələ də müəyyən problemlər mövcuddur. Qeyd etmək istəyirəm ki, aqrar sahədə əsas məsələlərdən biri innovasiyaların tətbiqi, yeni texnologiyalardan istifadə və fermerlərin maarifləndirilməsidir.

Digər vacib məsələlərdən biri isə torpaqlardan davamlı və səmərəli istifadə olunmasıdır. Fermerlər aqrar sahədə hansı işləri həyata keçirməlidirlər? Təbii ki, ilk növbədə, innovasiyalar tətbiq olunmalı, müasir texnologiyalar mənimsənilməlidir. Eyni zamanda fermerlər yalnız xammal istehsalı ilə kifayətlənməməli, məhsulları emal edərək əlavə dəyər yaratmalı və bazara hazır məhsul şəklində çıxarmalıdırlar. Bu, onların gəlirlərinin artmasına mühüm töhfə verə bilər. Aqrar sahədə elmi tədqiqatların aparılması, elm, təhsil və istehsalat arasında əlaqələrin gücləndirilməsi də xüsusi əhəmiyyət daşıyır.

Bu istiqamətdə fəaliyyət genişləndirildikdən sonra məhsuldarlığın artırılması, yeni sortların yaradılması və mövcud sortların yaxşılaşdırılması mümkün olacaqdır. Eyni zamanda bu yeniliklərin Azərbaycan şəraitinə uyğunlaşdırılması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan elm, təhsil və praktikanın





inteqrasiyası mühüm rol oynayır. Həm xaricdə, həm də ölkə daxilində əldə olunan yeni innovativ vasitələrin tətbiqi vacibdir.

O qeyd etdi ki, Azərbaycanda müasir istixana kompleksləri, heyvandarlıq kompleksləri və müasir suvarma sistemləri yaradılmışdır: "Bununla yanaşı, süni intellektin və rəqəmsal texnologiyaların tətbiqi də öz əhəmiyyətini qoruyub saxlayır və gələcək inkişaf üçün vacib amillərdən biridir. Qeyd etmək istəyirəm ki, Azərbaycanda bu hədəflərə çatmaq üçün son illərdə mühüm işlər görülmüşdür. Bununla belə, qarşıda hələ də həlli vacib olan məsələlər dayanır.

Bəzi ərazilərdə torpaqların deqradasiyası, şoranlaşma və digər problemlər müşahidə olunur. Bu isə müasir tədqiqatların aparılmasını və hər vahid ərazidən əldə olunan məhsuldarlığın artırılmasını zəruri edir. Əminəm ki, müasir tədqiqatların nəticələrini elmi əsaslarla tətbiq etsək, mövcud problemlərin öhdəsindən gələ bilərik. Bununla da fermerlərimizə dəstək olar, ölkəmizin ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə töhfə verə bilərik".

**Kənd Təsərrüfatı Nazirliyi yanında İctimai Şuranın sədri Mürvət Həsənli** isə XQ-yə açıqlamasında qeyd etdi ki, Prezident İlham Əliyevin 23 may 2026-cı il tarixində qəbul etdiyi dövlət proqramının əsas məqsədi ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsidir: "Ərzaq təhlükəsizliyinin təmin olunması üçün məhsuldarlığın artırılması, elmi potensialın gücləndirilməsi və innovativ yanaşmaların tətbiqi vacib şərtlərdən biridir. Ölkə Prezidentinin qarşımıza qoyduğu hədəflərə çatmaq üçün fermerlərin və sahibkarların maliyyə resurslarına rahat çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, suvarma sistemlərinin yenidən təşkili və təkmilləşdirilməsi həyata keçirilməlidir. Bu tədbirlər aqrar sektorun dayanıqlılığını və rəqabət qabiliyyətini artırmağa xidmət edəcəkdir. Bu məqsədlərə nail olmaq üçün logistika infrastrukturunun inkişaf etdirilməsi, soyuducu anbarların və yeni bazarların yaradılması da xüsusi diqqət mərkəzində olmalıdır. Bildiyiniz kimi, son dövrlərdə logistika sahəsinin inkişafı ilə bağlı mühüm qərarlar qəbul olunmuşdur. Həmçinin aqrar subsidiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində də mühüm addımlar atılmışdır. Bu qərarların əsas məqsədi iş proseslərinin sadələşdirilməsi və səmərəliliyinin artırılmasıdır. Əsas məqsədlərimizdən biri də ekoloji dayanıqlılığın təmin edilməsidir. Torpaq və su ehtiyatlarından səmərəli istifadə olunması aqrar siyasətin prioritet istiqamətlərindəndir".

M.Həsənli əhalinin sosial rifahının yüksəldilməsi və kənd yerlərində məşğulluğun artırılması istiqamətində qarşıya qoyulan hədəflərə nail olmağın vacibliyini də vurğuladı: "Hazırda keçirilən forumlarda və müzakirələrdə qeyri-hökumət təşkilatlarının bu prosesə necə dəstək verə biləcəyi, hansı sahələrə daha çox diqqət ayrılmasının vacibliyi barədə dəyərli təkliflər səsləndirilir. Biz də qeyri-hökumət təşkilatları ilə birlikdə bu planların hazırlanmasında, əhalinin maarifləndirilməsində, kredit resurslarından səmərəli istifadənin təşviqində, eləcə də otlaq və örüş sahələrinin qorunması istiqamətində fəaliyyətimizi davam etdirəcəyik".



Müzakirələr zamanı aqrar sahədə fəaliyyət göstərən QHT-lərin nümayəndələri kənd təsərrüfatının müxtəlif istiqamətləri üzrə fikir və yanaşmalarını bölüşərək bir sıra təkliflərlə çıxış ediblər. "Azərbaycanın kənd təsərrüfatının inkişafında yeni prioritetlər" mövzusunda aqrar yönümlü QHT-lərin iştirakı ilə keçirilən ictimai müzakirələrdə vurğulanıb ki, kənd təsərrüfatı sahəsində maarifləndirmənin gücləndirilməsinə, xüsusilə radio vasitəsilə məlumatlandırmanın artırılmasına, eləcə də bu sahədə ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının mövqelərinin daha geniş auditoriyaya çatdırılmasına ehtiyac var.

***Nurlan ABDALOV,***
***Cavid QAÇAYEV (Foto)***
***XQ***

# I Ümumittifaq Türkoloji Qurultay milli mətbuatda

## Komision məruzəsi

*(əvvəli qəzetin 11, 15, 21 aprel, 2, 13 və 16 may 2026-cı il tarixli saylarında)*

İclasdan sonra qurultayda seçilən komisionların məruzəsi dinlənir.

Yoldaş Məmməd-zadə mandat komisionunun gördüyü işlər haqqında məruzə edir. Birinci Türkoloji Qurultayına 131 nümayəndə gəlmişdir. Bunlardan 98-i türk, yerdə qalanı özgə millətlərdəndir. İttifaq üzvlərindən 119, ittifaqda olmayanlardan 12 nəfər. Nümayəndələr içində ancaq bir nəfər qadın olub, o da Azərbaycan müəllimələrindən Sultanovadır.

Sonra yoldaş Qorxmasov hamı komisionların adından çıxarılan qərarı oxuyur, Qərar qurultay tərəfindən qəbul olunur.

Bu qərar "Yeni yol" qəzetinə əlavə olaraq nəşr olunacaqdır. Türk xalqlarının hazırkı tarixi və yaxın gələcəkdə onu tədqiq etmək məsələlərindəki qərarda akademik Bartoldun xüsusi rəyi yürüdülmüşdür (Bu rəy ilə akademik Oldenburq da şərikdir). Qurultay bu qərarı qəbul edərək akademik Bartold Oldenburqun mülahizə və rəylərini təsvib edərək prezidiuma bu qərarın qəti təshih və tərtib edilməsini tapşırmışdır.

## Son təbriklər

Azərbaycan ədəbiyyatçılarından Salman Mümtaz şair Nəsiminin 10 parça şeirini qurultaya təqdim edir. Sonra Tatarıstandan yoldaş Alimcan İbrahimov çıxaraq qurultayı təbrik edir və deyir ki, türk nümayəndələri qarşısında iki məsələ dururdu ki, bunlardan biri əski çar hökuməti tərəfindən türk xalqları arasında saçılan etimadsızlığın aradan qaldırılması idi.

Akademik Oldenburq deyir ki, burada bizim möhtərəm sədr qurultayın bitməsini elan edərək son sözü deyəcəkdir. Lakin o, bəzi məlum səbəblərə görə o söz ki, biz deməliyiz o onu deməyəcəkdir. Biz deməliyiz ki, bu qurultay ən böyük və adlı qurultaylardandır. Bu qurultay bizim ittifaq xalqlarının həyatında öz unudulmaz izini buraxacaqdır. Mənim zənnimə görə, bunun təsiri bizim ittifaqın xaricinə qədər belə keçəcəkdir. Bu qurultaydakı fikirlərin mübahisə və müzakirələrin dostanə və səmimi aparılmasının başlıca səbəbi, məncə, bu qurultayın müstəsna sədri olsa gərək. Buraya o birinci gəlib, axırıncı gedərək, doğrudan da, necə işləmək lazım olduğunu göstərdi. Bizi belə mehribanə və dostanə qəbul etməyi heç kəs unutmaz. Zənn edirəm, bizlərdən hər kəs onu incitmədiyimizi etiraf etməlidir. Mehriban bir qəlb ilə çınqrağı çalmağı da yadımızdadır. Qurultay bitir, lakin bu qurtarmazdan əvvəl deməliyik ki, yaşasın bizim hörmətli sədrimiz, onu təbrik ederiz. O bizə vida edərkən, biz ona böyük təəssüf ilə, ona əbədi əlvida yox, yaxın görüş zamanına qədər hələlik salamat qal deməliyiz.

Özbəkistandan yoldaş Rəhimi təbriklə çıxışda bulunaraq Ağamalıoğluna, Musabəyov, Quliyev, Məmmədzadə və Cəbiyev yoldaşlara birər ipək buxara xələti töhfə olaraq təqdim edir.

Yoldaş Cəbiyev Azərbaycan nümayəndələri adından təbrik cavabında bulunaraq deyir ki, Birinci Türkoloji Qurultayı birinci növbədə Özbəkistanda çağırılacaq idi. Lakin əmələ gəlmiş vəziyyətdən dolayı bu qurultayın Azərbaycanda çağırılması qərara alındı.Yoldaşlar! Azərbaycan heç zaman sair qardaş xalqlardan özünü yüksək tutmaq məqsədində olmayıb və heç bunu belə fikrinə gətirməyib, onların üzərində rəhbərlik etmək arzusunda belə olmamışdır. Qardaş cümhuriyyətlər işçilərinin bu qurultay təşkilatında iştirak etməsi buna canlı sübutdur. Təşkilat komisionuna Alimcan İbrahimov, Odabas, Fitrət, Korkmazov yoldaş daxil olub, bunların hamısı bu təşkilat komisionunun özəyini təşkil edirlər. İndi isə, yoldaşlar, növbədə gələcək qurultayı çağırmaq məsələsi durur. Bu nümayəndələr, yaxud ayrı-ayrı yoldaşlar gələcək qurultaya qədər gərək türk-tatar xalqlarının ən mədəni təşkilatlarının maarif və mədəniyyətçiləri lazım olan müddətə qədən hazırlanmalıdılar ki, həyat tələb etdiyi təqdirdə ikinci qurultay çağırıla bilsin. Ona görə də: Yaşasın Səmərqənddə çağırılacaq İkinci Qurultay! – şüarını elan edirəm.

**"Yeni yol" qəzeti** **10 mart 1926-cı il**

*I Ümumittifaq Türkoloji Qurultayın qərarları Yeni türk əlifbası təqdir edilmiş və bütün türk xalqları tərəfindən keçirilməsi arzu edilmişdir*

*Qurultay ölkəşünaslığın əhəmiyyətini qeyd etdi; onun əsası şəkilli qəndili özəyi olmalıdır*

*Qurultay məhəllərində türkoloji komitələrin təşkilini qərar aldı*

*Qurultayın bütün məruzələri oxunduğu dildə çap edilməli və bununla bərabər rusca da tərcümə olunmalıdır*

*Bundan başqa fransız dilində də məruzələrin xülasələri nəşr olunacaqdır*

## İkinci Türkoloji Qurultayın iki ildən sonra Səmərqənddə çağırılması zikr olunmuşdur

**Yeni türk əlifbası haqqında**

**1** Yeni türk əlifbası ərəb və islah edilmiş əlifbalardan yararlığı və texniki üstünlüyü və ərəb əlifbasına nisbətən böyük mədəni-tarixi və tərəqqi üçün əhəmiyyətini nəzərə alaraq, qurultay ayrı-ayrı türk-tatar cümhuriyyət və vilayətlərində, hər bir cümhuriyyət və xalqın öz qaydası və arzusu ilə keçilməsini lazım bilir.

**2** Bununla əlaqədar olaraq qurultay Azərbaycanda və Şuralar İttifaqının başqa cümhuriyyətlərində (Yakutstan, Qırğızıstan, İrkutskstan, Qaraçay-Çərkəzistan, Kabardinstan, Bolqarıstan, Osetiya və Çeçenistanda) yeni türk latın əlifbasının keçirilməsində müsbət əhəmiyyəti görməklə, Başqırdıstan, Türkmənistan, Özbəkistan və Adıgey-Çərkəz vilayətində latın əsaslı yeni əlifbanın keçirilməsi üçün geniş hərəkata rəy verir.

Qurultay yuxarıda adları çəkilən cümhuriyyət və vilayətlərdə görülən işi təbrik etməklə öz aralarında bunu keçirmək üçün türk-tatar xalqlarına, Azərbaycan və Şuralar İttifaqının başqa vilayət və cümhuriyyətlərinin təcrübələrindən və metodundan istifadə etməyi tövsiyə edir.

* * *

Bu mətn Türkoloji Qurultayın yeni türk (latın əsaslı) əlifbası ilə bağlı qəbul etdiyi prinsipial qərarın normativ formulunu əks etdirir və Sovet dövrü dil siyasətinin əsas istiqamətlərini ortaya qoyur. Qətnamədə yeni əlifbanın ərəb və islah edilmiş ərəb əlifbalarına nisbətən texniki və funksional üstünlükləri ilə yanaşı, onun mədəni-tarixi tərəqqi aləti kimi qiymətləndirilməsi əlifba məsələsinin sırf texniki deyil, ideoloji və mədəni mahiyyət daşıdığını göstərir.

Mətnin diqqətçəkən cəhətlərindən biri əlifba keçidinin formal olaraq könüllülük prinsipi əsasında təqdim edilməsidir. Hər bir cümhuriyyət və xalqın "öz qaydası və arzusu ilə" latın əsaslı əlifbaya keçməsinin vurğulanması Sovet milli siyasətində tez-tez istifadə olunan mərkəzləşdirilmiş qərarların mərkəzləşdirilmiş formada legitimləşdirilməsini əks etdirir. Bu yanaşma siyasi təzyiqi yumşaldaraq islahatı qəbul edilən və təbii proses kimi göstərməyə xidmət edir.

Qətnamədə Azərbaycanın və bir sıra digər cümhuriyyətlərin latın əlifbasına keçid sahəsində model və nümunə kimi göstərilməsi Bakının bu prosesdə aparıcı rolunu təsdiqləyir. Yeni əlifbanın tətbiqinin müsbət qiymətləndirilməsi və digər regionlarda "geniş hərəkata rəy verilməsi" latınlaşma prosesinin artıq təcrübədən normaya keçdiyini nümayiş etdirir. Mətn eyni zamanda türk-tatar xalqları arasında əlifba islahatının kollektiv və qarşılıqlı öyrənmə yolu ilə həyata keçirilməsini tövsiyə edir. Azərbaycan və digər respublikaların təcrübəsinə istinad çağırışı, əlifba məsələsinin yalnız yerli təşəbbüs deyil, ümumtürk və ümumittifaq miqyaslı mədəni layihə kimi nəzərdə tutulduğunu göstərir.

Bu qətnamə yeni türk əlifbasının qəbulunu mədəni modernləşmə, siyasi inteqrasiya və elmi-texniki tərəqqi ilə əlaqələndirən ideoloji çərçivəni təsbit edir və Türkoloji Qurultayın dil siyasətində həlledici mərhələ olduğunu elmi-tarixi baxımdan sənədləşdirir.

## Türk dillərinin öyrənilməsi və türk dillərinin başqa dillərlə olan əlaqəsi haqqındakı məruzə üzrə

Yaxın gələcək üçün növbəti vəzifələr bunlardan ibarətdir:

**1** Dil haqqında material toplanması və nəşri, ayrı-ayrı elmi sərf və lüğətlər tərtibi ilə ayrı-ayrı dil, ləhcə və şivələrin dərindən və ciddi öyrənilməsi lazımdır.

**2** Tarixi səf müqayisəli nəhv lüğəti və türk dilləri və ləhcələrinin təsnifi üçün hazırlıq işi aparmaq

**3** Türkoloji biblioqrafisi tərtib etməli


1-ci Umym Ittifak Turqolozi Kyryltajının kararları.

**4** Yafəsi nəzəriyyəsinin nailiyyətlərini nəzərə almaqla türk dillərinin digər Altay-uqri-fin semyası ilə münasibətinin tədqiqində davam etməli

**5** Beynəlxalq miqyasda nəşriyyat fəaliyyətinin təmini ilə müəyyən plan və nəşmüştərək zəhmət üzrə Türkoloji işlərin təşkili lazımdır.

* * *

Mətn Türkoloji Qurultay çərçivəsində yaxın perspektiv üçün müəyyənləşdirilmiş strateji elmi vəzifələr proqramını əks etdirir və türkoloji tədqiqatların sistemli şəkildə institutlaşmasını hədəfləyir. Maddələr həm dilçilik metodologiyasını, həm də elmi təşkilatlanmanı əhatə edən kompleks yanaşmanı nümayiş etdirir.

Birinci maddədə dil materiallarının toplanması, nəşri, elmi qrammatikaların və lüğətlərin hazırlanması yolu ilə türk dilləri, ləhcələri və şivələrinin empirik əsasda, dərin və müqayisəli şəkildə öyrənilməsi tələb olunur. Bu, təsviri mərhələdən analitik və normativ mərhələyə keçidin elmi şərti kimi təqdim edilir.

İkinci maddə türk dillərinin tarixi inkişafını üzə çıxarmaq üçün tarixi və müqayisəli qrammatika (nəhv) və ümumi leksik fondun tədqiqini ön plana çəkir. Dillərin və ləhcələrin təsnifinə hazırlıq ideyası türkoloji elmdə vahid, elmi əsaslandırılmış klassifikasiya modelinin yaradılmasına yönəlmişdir.

Üçüncü maddədə türkoloji biblioqrafiyanın tərtibi tələbi irəli sürülür ki, bu da sahə üzrə mövcud elmi irsin sistemləşdirilməsi, tədqiqatların koordinasiyası və təkrarlanmanın qarşısının alınması baxımından fundamental əhəmiyyət daşıyır.

Dördüncü maddə Yafəs nəzəriyyəsinə istinad etməklə dövrün ideoloji-elmi kontekstini əks etdirir. Türk dillərinin Altay-Uqrofin və digər dil ailələri ilə münasibətlərinin tədqiqi, həmin nəzəriyyənin "nailiyyətləri" çərçivəsində aparılmaqla türkoloji tədqiqatların geniş müqayisəli-linqvistik müstəviyə çıxarılmasını nəzərdə tutur.

Beşinci maddə isə türkoloji elmin yalnız akademik deyil, beynəlxalq təşkilati və nəşriyyat fəaliyyəti ilə dəstəklənməsini tələb edir. Müştərək planlaşdırma, beynəlxalq nəşrlər və koordinasiya olunmuş əməkdaşlıq türkoloji işlərin milli çərçivədən çıxaraq qlobal elmi sistemə inteqrasiyasını hədəfləyir. Bu proqram türkoloji elmi parçalanmış və fərdi təşəbbüslərdən mərkəzləşdirilmiş, planlı və metodoloji cəhətdən əsaslandırılmış tədqiqat sisteminə çevirməyi qarşıya məqsəd qoyur və Türkoloji Qurultayın yalnız müzakirə platforması deyil, həm də elmi inkişaf strategiyasını müəyyən edən mərkəz olduğunu göstərir.

## Etnoqrafi Komisionun qərarı

1) Komision türk xalqlarının doğru hesabına böyük əhəmiyyət verməklə qurultay adından Moskvadakı Mərkəzi Statistik İdarəsinə gələn Ümumittifaq siyahısında əhalinin qəbilə heyəti hesabında ciddi diqqət yetirilməsi təqlidi ilə ona müraciət edilməsini təklif edir.

2) Gələcək Türkoloji Qurultayına qədər siyahı və məlumata görə ayrı-ayrı cümhuriyyət və vilayətlərlə birlikdə bütün türk xalqlarının qövm xəritəsinin tərtib olunması arzu olunmuşdur.



*Nadir MƏMMƏDLİ,*
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor*

3) İctimai sihhət və kiçik xalqlardakı bəzi səhhi məsələlərlə əlaqədar olaraq yaxın qurultayda bütün cumhuriyyət və vilayətlərdə ibtidai tədqiqat aparmaqla tibbi-antropoloji kimi məsələlərin qoyulması lazım hesab edilməlidir.

4) Komisyon türk xalqlarının tədqiqat əsnasında işin plan üzrə aparılmasını və arada uyuşulma olmasını lazım bilir. Bu tədqiqat üçün birinci növbədə təsərrüfat şəkillərinə fikir verməlidir: ovçuluq həyatı, maldarlıq təsərrüfatı (ələlxüsus oturağa keçid zamanı), əkinçilik və başqaları. Göstərilən şeyləri öyrənən zaman yalnız cins etibarilə deyil, miqdar etibarilə də öyrənmək lazımdır.

5) Türk həyatının öyrənilməsi lüzumunu nəzərə alaraq, türk mərkəz şəhərlərinin birində türk mədəniyyətinin mərkəz muzesi təşkil olunmalıdır. Bu muzenin yeri də gələcək Türkoloji Qurultayın təyini ilə olacaqdır. Komisionun zənninə görə, bu fikrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün məhəlli cümhuriyyət və vilayət mərkəzlərində plan üzrə iş görülməlidir. Komision türk cümhuriyyətləri və vilayətlərində muze işinə böyük əhəmiyyət verərək əmindir ki, istər təcrübə, istərsə texniki cəhətcə mərkəz muzeləri ona yardım göstərə bilər.

6) Komision bu qurultayın göstərişi ilə tədqiqat işlərinin nəşriyyatına lazım olan vəsaiti vermək üçün gələcək qurultayı təmin etməyi lazım bilir.

7) Öz yaşayışını öyrənməyə geniş kütləni cəlb etmək məqsədilə komision birinci növbədə müəllimlər və ictimai-mədəni qüvvələrdən istifadə etməyi lazım bilir. Bunun üçün də əlaqədar məktəblərin tədris planına etnoqrafi dərsini keçirmək lazımdır. Bununla, nəticədə, indiki qurultayda lazım olan xalq yaşayışı haqqında məktəb tədrisinə malik olmaq olar.

8) Türk xalqları arasında etnoqraf və antropoloq olmamasını nəzərə alaraq komision Şuralar İttifaqı ali məktəblərində türk gənclərinə yer verilməsini və xaricə göndərilməsinin təminini lazım bilir.

9) Antropoloji və xalq yaşayışına komisionun elmi və əməli əhəmiyyət verməsilə əlaqədar olaraq gələcək qurultayı çağıran təşkilat komisionuna bu qurultay üçün ibtidai bu məsələlərin tərtibini və qoyuluşu haqqında çalışmağı təşkilat komisionundan rica edir.

* * *

Mətn Türkoloji Qurultay çərçivəsində fəaliyyət göstərən komissiyanın türk xalqlarının demoqrafik, etnoqrafik və antropoloji tədqiqinə dair proqram xarakterli qərarlarını əks etdirir. Maddələr türkoloji elmin yalnız filoloji sahə ilə məhdudlaşmadığını, əksinə sosial elmlər və təbiət elmləri ilə kəsişən kompleks tədqiqat sahəsi kimi formalaşdırıldığını göstərir.

Birinci maddədə türk xalqlarının dəqiq statistik uçotu məsələsi ön plana çəkilir. Ümumittifaq siyahıyaalınmasında əhalinin qəbilə və etnik tərkibinin düzgün qeydə alınması tələbi türkoloji tədqiqatların empirik bazasını gücləndirməyə yönəlmişdir və statistik məlumatların elmi tədqiqat üçün əsas mənbə kimi qəbul edildiyini göstərir.

İkinci maddə gələcək Türkoloji Qurultaya qədər bütün türk xalqlarını əhatə edən etnik (qövm) xəritənin hazırlanmasını nəzərdə tutur. Bu təşəbbüs türk xalqlarının məskunlaşma arealının vizual və sistemli şəkildə təqdim edilməsi yolu ilə tarixi-etnoqrafik tədqiqatların dərinləşdirilməsini hədəfləyir.

Üçüncü maddədə ictimai səhiyyə və xüsusilə kiçik xalqlarda mövcud olan tibbi problemlər ilə əlaqədar ilkin tədqiqatların aparılması təklif olunur. Burada tibbi-antropoloji yanaşma vasitəsilə sosial şərait, həyat tərzi və sağlamlıq arasındakı əlaqələrin araşdırılması nəzərdə tutulur ki, bu da dövr üçün türkoloji elmin multidissiplinar xarakterini göstərir.

Dördüncü maddə tədqiqat işlərinin planlı və koordinasiyalı şəkildə aparılmasının vacibliyini vurğulayır. Xüsusilə ovçuluq, maldarlıq (oturaq həyata keçid mərhələləri daxil olmaqla), əkinçilik kimi təsərrüfat formalarının həm keyfiyyət, həm də kəmiyyət baxımından öyrənilməsi türk xalqlarının sosial-iqtisadi strukturunun elmi əsaslarla təhlilinə xidmət edir.

Beşinci maddə türk həyatının və mədəniyyətinin sistemli şəkildə öyrənilməsi üçün mərkəzi türk mədəniyyəti muzeyinin yaradılmasını təklif edir. Muzeyçilik fəaliyyəti burada elmi tədqiqatın ayrılmaz hissəsi kimi təqdim olunur və yerli muzeylərlə əməkdaşlıq vasitəsilə ümumtürk mədəni irsinin qorunması məqsədi güdülür.

Altıncı maddədə tədqiqat nəticələrinin nəşriyyat təminatı məsələsi qaldırılır. Elmi işlərin maliyyələşdirilməsi və çapı üçün gələcək qurultayların maddi baxımdan təmin olunması türkoloji fəaliyyətin davamlılığını təmin edən əsas şərt kimi göstərilir.

Yeddinci maddə türk xalqlarının öz yaşayış tərzinin öyrənilməsinə geniş ictimai kütlələrin cəlb edilməsi ideyasını irəli sürür. Müəllimlərin və ictimai-mədəni qüvvələrin bu prosesdə fəal iştirakı, etnoqrafiyanın məktəb proqramına daxil edilməsi türkoloji biliklərin kütləviləşdirilməsinə yönəlmişdir.

Səkkizinci maddə kadr hazırlığı problemini ön plana çıxarır. Türk xalqları arasında etnoqraf və antropoloqların çatışmazlığı nəzərə alınaraq, türk gənclərinin ali məktəblərdə təhsil almasının və xaricə göndərilməsinin təmin edilməsi elmi davamlılığın təminatı kimi qiymətləndirilir.

Doqquzuncu maddədə isə gələcək Türkoloji Qurultayın təşkilat komissiyasına antropoloji və etnoqrafik məsələlərin prioritet mövzu kimi əvvəlcədən hazırlanması tövsiyə olunur. Bu, qurultayların spontan müzakirə meydanı deyil, planlı elmi proqram əsasında keçirilən institutlar kimi nəzərdə tutulduğunu göstərir.

Nəticədə bu qərarlar türkoloji elmi statistik, etnoqrafik, antropoloji və mədəni-tarixi tədqiqatların vahid plan üzrə əlaqələndirildiyi çoxşaxəli elmi sistem kimi formalaşdırmaq məqsədini daşıyır və Türkoloji Qurultayın elmi institutlaşma prosesindəki mərkəzi rolunu aydın şəkildə ortaya qoyur.

## Türk xalqlarının indiki vəziyyəti və onların tarixini öyrənmək üçün gələcək vəzifələr haqqında məruzə üzrə qətnamə

Komision məruzəçilərin tezislərini və komision iclasında olan fikir mübadilələrini nəzərə laraq aşağıdakı maddələri təklif edir:

1) Şuralar İttifaqı türk xalqlarının maddi mədəniyyət abidələrini öyrənməyə ciddi diqqət vermək lazımdır. Birinci növbədə qədim əsərlərin siyahısı alınmalı və onlar qeyd edilməlidir. Bir çox tarixi abidələrin pozulmasını nəzərə alaraq, onların mühafizəsi üçün ciddi tədbirlər görməli.

2) Şərq cümhuriyyət və vilayətlərində nəşriyyat işinin təşkilini müəyyən plan üzrə aparmalı: birinci növbədə arxeoloji tədqiqatların.

Orta Asiyadan Edil boyuna, Qara dəniz sahilinə və İrandan Xəzər dənizi sahillərinə qədər olan ticarət karvan yolunun tədqiqi arzu olunur. Yaxın 5 il üçün arxeoloji iş planı tərtibi arzu olunur.

3) Arxeoloji heyəti təşkilində əhalinin içərisindən çıxmış məhəlli işçilərin heyətə geniş surətdə cəlb olunması lazımdır.

4) Arxeoloji heyətləri ilə bərabər yazı materiallarını toplamaq üçün heyətlər lazımdır.

5) Türk xalqlarının tarixini öyrənmək sahəsində monoqrafi tədqiqatı qüvvələndirməklə bərabər, sosioloji düşünüşündə ümumi tarixi xülasələr süzəlməlidir.

6) Tarixi tədqiqdən son dövrlərdəki tədqiqata xüsusi əhəmiyyət verməlidir. Burada ən əhəmiyyətlisi bu vaxta qədər az məşğul olunan iqtisadi və ictimai tarix məsələləridir.

7) Türk xalqları arasında xalq və inqilabçılıq hərəkatının öyrənilməsinə ciddi diqqət yetirilməlidir.

8) Türk xalqları mədəniyyətini öyrənmək üçün çalışan heyətlərin əldə etdiyi nəticələrin elan edilməsi və Şuralar İttifaqının Şərq cümhuriyyətləri və vilayətlərindəki abidələrin elmi təsviri və arxeoloji xəritələrin nəşri.

9) İstər vəqnamələrdə, qanun məcəllələrində, jurnallarda və başqa yerlərdə nəşr olunan və dağınıq şəkildə bulunan və istərsə də bu vaxta qədər arxivdə qalan və məhəlli türk ləhcələrinə tərcümə olunan türk xalqları tarixinə aid mühüm məxəzlərin müntəzəm şəklində nəşrinə başlamaq lazımdır.

10) Şuralar İttifaqları, türk xalqları tarixinə aid arxiv materiallarının tərtibnaməsi əmələ gəlməlidir.

11) Rus və xarici alimlərin türk xalqları tarixinə dair mühüm əsərlərin türk dilinə tərcüməsi arzu olunur.

12) İkinci Türkoloji Qurultayına qədər arxeoloji heyətlərin çalışması və Şuralar İttifaqında türk xalqlarının yaşadıqları Şərq cümhuriyyət vilayətlərindəki tarixi materialların nəşr edilməsi arzu olunur.

Bu qətnaməyə akademik Bartoldun fikri əlavə olunur. Bu nitqin qətnaməyə əlavə şəklində qəbul edilməsini qurultay qərara almışdır.

* * *

Bu sənəd Türkoloji Qurultay çərçivəsində fəaliyyət göstərən komissiyanın türk xalqlarının maddi mədəniyyəti, arxeologiyası və tarixi üzrə tədqiqatların istiqamətləndirilməsinə dair hazırladığı proqram-qətnamə xarakterli mətndir. Maddələr türk tarixinin öyrənilməsinin təsadüfi və parça-parça deyil, planlı, mərkəzləşdirilmiş və elmi-metodoloji əsaslı şəkildə aparılmasının vacibliyini ortaya qoyur.

Birinci maddədə türk xalqlarının maddi mədəniyyət abidələrinin qorunması məsələsi prioritet kimi müəyyən edilir. Qədim abidələrin siyahıya alınması və qeydiyyatı tələbi, dövrün sürətli sosial dəyişiklikləri fonunda tarixi irsin məhvolma təhlükəsinə qarşı elmi-mühafizəkar yanaşmanı ifadə edir. Burada arxeologiya təkcə tədqiqat sahəsi deyil, eyni zamanda, mədəni yaddaşın qorunması aləti kimi dəyərləndirilir.

İkinci maddə arxeoloji tədqiqatların coğrafi miqyasını geniş şəkildə müəyyənləşdirir. Orta Asiyadan Volqa (Edil) boyuna, Qara dəniz və Xəzər hövzəsinə qədər uzanan ticarət yollarının araşdırılması türk tarixinin regional deyil, sivilizasiya miqyaslı proses kimi dərk edildiyini göstərir. Beşillik arxeoloji planın hazırlanması Sovet elmi idarəçiliyinə xas planlı elmi istehsal modelini əks etdirir.

Üçüncü və dördüncü maddələrdə arxeoloji işlərə yerli kadrların cəlb edilməsi və yazılı materialların paralel toplanması vurğulanır. Bu, tədqiqatların yalnız "kənardan baxış" əsasında deyil, yerli bilik və təcrübə ilə zənginləşdirilməsi məqsədini güdür və arxeologiya ilə filoloji-tarixi tədqiqatların qarşılıqlı əlaqəsini təmin edir.

Beşinci və altıncı maddələr türk tarixinin öyrənilməsində monoqrafik dərinliklə ümumiləşdirici sosioloji yanaşmanın birləşdirilməsini tələb edir. Xüsusilə iqtisadi və ictimai tarixə diqqətin artırılması, ənənəvi siyasi-din mərkəzli tarixçiliyin aşılaraq sosial tarix modelinə keçid niyyətini açıq şəkildə göstərir.

Yeddinci maddə xalq hərəkatları və inqilabi proseslərin tədqiqini ön plana çəkir ki, bu da dövrün ideoloji kontekstində tarixin sinfi və kütləvi hərəkətlər prizmasından yozulmasını şərtləndirir.

Səkkizinci və doqquzuncu maddələr elmi nəticələrin nəşri və mənbələrin sistemli şəkildə dövriyyəyə buraxılması problemini qaldırır. Dağınıq vəziyyətdə olan qaynaqların toplanması, arxiv materiallarının, vəqnamələrin və qanun məcəllələrinin nəşri türk tarixşünaslığının mənbəşünaslıq əsaslarını möhkəmləndirməyə yönəlmişdir.

Onuncu və on birinci maddələr arxiv materiallarının inventarlaşdırılması və rus, eləcə də xarici alimlərin əsərlərinin türk dilinə tərcüməsini nəzərdə tutur. Bu, türk xalqlarının tarixi biliklərə öz dillərində çıxışını təmin etməklə yanaşı, türkoloji elmi beynəlxalq elmi irslə əlaqələndirir.

On ikinci maddə II Türkoloji Qurultaya qədər konkret arxeoloji və nəşriyyat fəaliyyətinin həyata keçirilməsini tələb etməklə bu sənədin bəyannamə deyil, icraedici proqram xarakteri daşıdığını göstərir.

Sonda akademik Bartoldun fikirlərinin qətnaməyə əlavə edilməsi Türkoloji Qurultayın elmi nüfuz sahiblərinin mövqeyinə xüsusi əhəmiyyət verdiyini və qəbul olunan qərarların elmi legitimliyinin gücləndirilməsinə çalışıldığını göstərir.

Bu qətnamə türk xalqları tarixinin öyrənilməsini arxeologiya, mənbəşünaslıq, sosial tarix və ideoloji çərçivə daxilində sistemləşdirən genişmiqyaslı elmi proqram kimi çıxış edir və Türkoloji Qurultayın türk tarixşünaslığının institutlaşmasında oynadığı əsaslı rolu aydın şəkildə ortaya qoyur.

*(ardı var)*

# Texnoloji tərəqqi və çağdaş peşə təhsilinin hədəfləri

**Peşə təhsili ölkənin sosial-iqtisadi inkişafına təkan verən əsas amillərdən biri hesab olunur. Müasir dövrdə əmək bazarının sürətlə dəyişməsi, yeni texnologiyaların tətbiqi və iqtisadiyyatın müxtəlif sahələrində ixtisaslı kadrlara artan ehtiyac peşə təhsilinin əhəmiyyətini daha da yüksəldir. İqtisadiyyatın dayanıqlı inkişafı üçün yalnız investisiyalar və texnoloji yeniliklər deyil, həm də bu prosesləri həyata keçirə biləcək peşəkar insan resursları vacibdir.**

Məhz peşə təhsili sənaye, kənd təsərrüfatı, xidmət, enerji, tikinti, nəqliyyat və digər sahələr üçün praktiki bacarıqlara malik mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır. Müasir çağırışlar isə peşə təhsilinin qarşısında yeni vəzifələr qoyur. “Yaşıl” iqtisadiyyat, rəqəmsal texnologiyalar, innovativ istehsal və ekoloji yanaşmalar yeni peşə istiqamətlərinin formalaşmasını tələb edir. Bu baxımdan peşə təhsilinin əmək bazarının gələcək ehtiyaclarına uyğunlaşdırılması ölkənin inkişaf strategiyasının mühüm hissəsinə çevrilir.








**Mövzu ilə bağlı təhsil eksperti Şəmsi Qoca XQ-yə bildirdi ki,** bəşəriyyətin intellektual və texnoloji intibah keçirdiyi müasir epoxada peşə təhsili, sadəcə, quru bir ixtisas qazanmaq mexanizmi deyil. Ölkənin sosial-iqtisadi inkişafına birbaşa təkan verən, daxili və xarici bazarlar arasındakı balansı tənzimləyən əsas, strateji amillərdəndir.



Keyfiyyətli peşə təhsili fərdin peşəkar sahədə elmi-texnoloji biliklərini vizioner şəkildə genişləndirir və onun rəqabətədavamlı mütəxəssis kimi formalaşmasına təkan verir. Dövlət səviyyəsində peşə təhsilinin inkişafına istiqamətlənmiş hər bir addım, əhalinin fəal və gənc hissəsinə yerli və beynəlxalq əmək bazarındakı tektonik dəyişikliklərə anında və sürətlə reaksiya vermək üçün mükəmməl bir manevr imkanı yaradır. Əgər biz gələcəyin rəqəmsal dünyasında və intellektual rəqabətdə yerimizi möhkəmlətmək istəyiriksə, peşə təhsilini insan kapitalının ən böyük investisiya sferası kimi dəyərləndirməliyik.

Əsrin bu qaçılmaz çağırışları və trendlərinə müvafiq olaraq, ölkəmizdə də təhsil sahəsində aparılan genişmiqyaslı islahatlar çərçivəsində peşə təhsilinin müasirləşdirilməsi istiqamətində məqsədyönlü, fundamental tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin keyfiyyət etibarilə tamamilə yeni müstəviyə qaldırılması dövlətin prioritet istiqaməti kimi möhürlənib. Bu sahədə peşəkar və beynəlxalq standartlara uyğun tədris prosesinin qurulması, əmək bazarının, xüsusən də real işəgötürənlərin strateji tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran ən ali vəzifələrdən biridir. Sevindirici haldır ki, son dövrlər bu canlanma yalnız paytaxt Bakı ilə məhdudlaşmır, bölgələrimizdə də modern peşə təhsili müəssisələri qurulub gənclərin ixtiyarına verilir.

Zaman dəyişsə də, bəzi peşələrin iqtisadiyyatdakı rolu dəyişməz qalır. İKT, turizm-xidmət, avtomobil diaqnostikası, elektrik qaz qaynaqçısı, bərbər, avtomatika, dərzi, qrafik dizayner və aqroservis mütəxəssisi kimi ixtisaslar artıq uzun müddətdir ki, əmək bazarının dəyişməz və stabil tələbatı olaraq qarşımıza çıxır. Bu sahələr həm də müasir gəncliyin ən çox yiyələnmək istədiyi ixtisaslar cərgəsindədir.

Azərbaycan gəncliyinin peşə bacarıqlarının beynəlxalq arenada nümayişi baxımından ölkəmizin WorldSkills hərəkatına qoşulması mühüm tarixi hadisədir. Bu qlobal platforma yerli tələbələrimizə rəqəmsal dizayn, aşpazlıq, İT sahələri və texniki peşələr üzrə dünya gəncləri ilə eyni cərgədə yarışmaq, öz potensiallarını beynəlxalq münsiflər qarşısında sübut etmək imkanı verir.

Son illərin dinamikası göstərir ki, İKT sahəsi üzrə ixtisaslara — xüsusilə veb dizayner, kibertəhlükəsizlik və kompüter sistemlərində proqramlaşdırma istiqamətlərinə kütləvi və qarşısıalınmaz maraq dalğası mövcuddur. Maraqlıdır ki, bu müxtəlif ixtisaslar palitrasında gender üstünlükləri də zərif çalarları ilə seçilir. Dayə, qrimçi-pastijor, laborant-mikrobioloq və moda dizaynı kimi incəlik və dəqiqlik tələb edən sahələr qızların ən çox maraq göstərdiyi ixtisaslar kimi önə çıxır. Xanım tələbələr öz gələcək seçimlərində həmçinin kimyəvi analiz laborantı, geyim üzrə dizayner, xalçaçı, kargüzar, tədbir təşkilatçısı və qənnadçı-şirniyyatçı ixtisaslarına da böyük üstünlük verirlər.

Şəmsi Qoca vurğuladı ki, süni intellektin və robotların insan əməyini əvəz etdiyi bu intellektual sınaq dövründə, gənclərimiz robotlarla yalnız mexaniki bilik müstəvisində yarışa bilməzlər. Kompüterlərin sahib ola bilmədiyi yeganə bir sahə varbu, insanın milli-mənəvi məsuliyyət hissi, yaradıcı təfəkkürü, emosional zəkası və ətraf mühitə qarşı duyarlılığıdır. Müasir peşə təhsili gənclərə sadəcə dəzgahı idarə etməyi və ya kod yazmağı öyrətməməlidir; o, eyni zamanda gələcəyin mütəxəssisində yüksək vicdan, peşə etikası və milli dövlətçilik təfəkkürü formalaşdırmalıdır. Çünki ruhsuz texnologiyanın qarşısında yalnız yüksək mənəviyyata və itilənmiş zəkaya malik olan insan qalib gələ bilər.

Dövlətin bu sahədəki gələcək hədəfləri rəsmi sənədlərdə və hesabatlarda da öz əksini tapıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il fəaliyyət hesabatına əsasən, əmək bazarının ən müasir tələblərinə uyğun peşə və ixtisasların elmi əsaslarla müəyyənləşdirilməsi istiqamətində işlər sürətlə davam etdirilir. Dövlət hesabatının ən diqqətçəkən məqamı odur ki, artıq qlobal dünyanın əsas hədəfi olan və yüksək texnoloji inkişaf sahələrinə aid peşələr siyahısı planlı şəkildə genişləndirilir.

Peşə hazırlığı proqramlarının əmək bazarının həm mövcud, həm də perspektiv çağırışlarına uyğunlaşdırılması məqsədilə ölkədə ixtisas təsnifatının yenilənməsi istiqamətində fundamental analitik təhlillər aparılmışdır. Əldə edilən elmi və statistik nəticələr əsasında dövlət strukturları tərəfindən müvafiq strateji təkliflər paketi



hazırlanıb. Hazırda “yaşıl iqtisadiyyat”ın, ekoloji tarazlığın və gələcəyin vizioner peşələri istiqamətində müəyyən edilmiş tam 25 yeni ixtisasın, mövcud olan 175 aktual peşə və ixtisasın rəsmi siyahısına əlavə edilməsi üzrə müvafiq institusional işlər davam edir.

***Mustafa KAMAL***
***XQ***

# Şirvanda hüquqi maarifləndirmə



**Şirvan Şəhər İcra Hakimiyyəti və Dövlət Miqrasiya Xidmətinin Şirvan Regional Miqrasiya İdarəsinin birgə təşkilatçılığı ilə “İnsan hüquqları aylığı” çərçivəsində “Azərbaycan Respublikasının ərazisində yaşamaq üçün icazələr verilmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri, onların inzibati məsuliyyəti” mövzusunda maarifləndirmə görüşü keçirilib.**

Tədbiri giriş sözü ilə açan şəhər icra hakimiyyəti başçısı aparatının hüquq və kadr məsələləri sektorunun müdiri Azər Hüseynov “İnsan hüquqları aylığı”nın ölkəmizdə insan hüquq və azadlıqlarının təbliği, hüquqi maarifləndirmənin gücləndirilməsi və cəmiyyətdə hüquq mədəniyyətinin inkişafı baxımından əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycanda insan hüquqlarının qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edən sektor müdiri bu sahədə həyata keçirilən islahatlar və görülən işlər barədə məlumat verib.

Şirvan Regional Miqrasiya İdarəsinin rəis müavini Bəhman Quliyev, idarənin vətəndaşların qəbulu və müraciətlərə baxılması şöbəsinin rəisi Seyhun Məmmədov çıxış edərək Dövlət Miqrasiya Xidmətinin fəaliyyət istiqamətləri, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri, qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri və bu istiqamətdə görülən işlər barədə məlumat veriblər.

Görüşdə Azərbaycan Respublikasının ərazisində yaşamaq üçün icazə verilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə qanuni qalma qaydaları, əmək fəaliyyəti, qeydiyyat məsələləri və inzibati məsuliyyət tədbirləri barədə iştirakçılara ətraflı məlumat təqdim edilib.

***Mikayıl NƏRİMANOĞLU***
***XQ***

**Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü sessiyasında müzakirə edilən əsas aktual məsələlərdən biri də sürücüsüz, yəni avtonom idarəetmə sistemli nəqliyyat vasitələrinin Azərbaycana gətirilməsi və şəhər infrastrukturuna inteqrasiyası idi. Bu qabaqcıl texnologiyaların ölkəmizdə tətbiqini hüquqi cəhətdən tənzimləmək və sahə üzrə mövcud qanunvericilik boşluqlarını aradan qaldırmaq məqsədilə hazırda Milli Məclisdə yeni qanun layihəsi müzakirə edilir.**

# Bakıya sürücüsüz avtomobillər gətiriləcək

*Yeniliyə yol-infrastruktur və hüquqi tənzimləmə hazırlığı*



Bu maşınlar mənzil başına çatmaq üçün nə sürücünün diqqətinə, nə də onun fiziki müdaxiləsinə ehtiyac duymurlar. Təyinat nöqtəsi daxil edildikdən sonra avtomobil yolu özü tapır, sürəti tənzimləyir və təhlükəsiz şəkildə hərəkət edir. Bu mexanizmin iş prinsipi şərti olaraq 3 əsas ardıcıl mərhələyə bölünür.

Prosesin ilkin mərhələsi ətraf mühitdən gələn vizual və fiziki məlumatların qəbuludur. Bu məqsədlə nəqliyyat vasitəsinin üzərində yüksək dəqiqlikli optik kameralar, radar sistemləri və lazer şüaları vasitəsilə məsafəni ölçən xüsusi cihazlar quraşdırılır. Onlar yol nişanlarını, hərəkət zolaqlarını, işıqforları, piyadaları və digər maşınları real vaxt rejimində təsbit edərək ətraf mühitin rəqəmsal xəritəsini formalaşdırır.

Növbəti mərhələdə toplanmış məlumatlar avtomobilin mərkəzi idarəetmə blokunda, yəni onun daxili kompüterində emal edilir. Bu mərhələni sistemin "düşünmə" və ya analiz prosesi kimi xarakterizə etmək olar. İlk addımda cihazların ötürdüyü quru rəqəmlər və görüntülər mərkəzi sistemdə birləşdirilir.

Yüksək dəqiqlikli kameralar ətrafın təsvirini, rənglərini və formalarını qeydə alır. Məsələn, kamera yolun kənarında bir insanın dayandığını və ya hərəkət etdiyini vizual olaraq görür, onun geyimini, yol nişanının üzərindəki yazını seçir. Lakin kamera həmin insanın maşından tam olaraq neçə metr uzaqlıqda olduğunu və hansı sürətlə hərəkət etdiyini santimetr dəqiqliyi ilə ölçməkdə çətinlik çəkir.

Burada işə radar sistemi qarışır. Radar ətrafa xüsusi dalğalar göndərir və bu dalğalar obyektə “toxunub” geri qayıdır və həmin obyektin avtomobilə olan dəqiq məsafəsini və onun hərəkət sürətini hesablayır. Lakin radar da qarşıdakı obyektin canlı və ya cansız olduğunu ayırd edə bilmir.

Avtomobilin mərkəzi kompüter sistemi bu 2 fərqli mənbədən gələn məlumatı eyni anda emal edir. Kameralardan gələn vizual fotoşəkillə radardan gələn dəqiq məsafə ölçüsü üst-üstə qoyulur. Nəticədə, sistem rəqəmləri və görüntüləri birləşdirərək tam və dəqiq hökm çıxarır: “Avtomobildən 15 metr irəlidə, saatda 5 kilometr sürətlə yola doğru addımlayan piyada var”.

Kompüter üçün “görmək”, “birləşdirmək” və “qərar vermək” prosesi insan fəaliyyətindəki kimi zaman tələb edən mərhələlər deyil, sadəcə mikroprosessorun daxilindəki elektrik siqnallarının anlıq yerdəyişməsidir. Məhz bu riyazi və texniki təminat sayəsində maşın yoldakı qəfil dəyişikliklərə insanın fiziki imkanlarından daha çevik reaksiya vermək qabiliyyəti nümayiş etdirir.

**Milli Məclisin deputatı Vüqar Bayramov bildirdi ki, qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin əsas mahiyyəti avtonom nəqliyyat vasitələrinin dövriyyəyə buraxılması üçün hüquqi bazanın formalaşdırılmasıdır:**



– Qanun layihəsi məhz bu istiqamətdə ümumi prinsipləri müəyyənləşdirir və sonrakı mərhələdə bu sahəni tənzimləyəcək daha detallı qaydaların hazırlanmasını nəzərdə tutur. Xüsusilə inkişaf etmiş ölkələrdə bu sahə artıq strateji və gəlirli istiqamət kimi formalaşıb. Özəl sektor nümayəndələri bu texnologiyalara ciddi investisiyalar yönəldir, çünki gələcək perspektivlər baxımından yüksək iqtisadi potensial mövcuddur.

Qanunvericilikdə aparılan dəyişikliklər yalnız avtonom nəqliyyat vasitələrinin istifadəyə verilməsini deyil, eyni zamanda, onların ciddi nəzarət mexanizmləri ilə tənzimlənməsini də təmin edəcək. Milli Məclisdə müzakirə olunan yeni qanun layihəsi bu sahədə mövcud boşluqları aradan qaldırmağı və qabaqcıl texnologiyaların ölkə daxilində hüquqi baxımdan tətbiqini təmin etməyi hədəfləyir.

Layihəyə əsasən, qanunvericiliyə “avtonom nəqliyyat vasitəsi”, “operator” və “məsafədən idarəetmə mərkəzi” kimi yeni anlayışların daxil edilməsi nəzərdə tutulur.

Eyni zamanda, bu qaydalar yalnız avtomobillərə deyil, həm də qatar, metro, tramvay, gəmi, təyyarə və mülki pilotsuz uçuş aparatlarına (dronlara) şamil olunacaq.

Yollarda hərəkət edən avtonom nəqliyyat vasitələrinin tanınması üçün xüsusi nişanların tətbiqi də planlaşdırılır.

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynovun sözlərinə görə, tətbiq ilkin mərhələdə lokal ərazilərlə məhdudlaşdırılacaq:**



– Bu, şəhərin müəyyən bir hissəsi və ya ayrıca seçilmiş bir zona ola bilər. Dünya təcrübəsində də məhz bu yanaşma tətbiq edilir.

Burada ən vacib məqamlardan biri odur ki, avtomobil nəqliyyatı digər nəqliyyat növlərinə nisbətən daha mürəkkəb mühitdə fəaliyyət göstərir. Məsələn, dəmir yolu və dəniz nəqliyyatında trayektoriyalar daha sabit və əvvəlcədən müəyyən olunduğu üçün idarəetmə nisbətən daha asandır. Avtonom sistemlər də ilk olaraq məhz belə daha sadə və nəzarət olunan mühitlərdə tətbiq edilir.

Hazırda bir çox ölkədə metro sistemlərində sürücüsüz qatarlar artıq istifadə olunur. Lakin “avtonom” anlayışı tam müstəqil sistem demək deyil. Əksinə, bu sistemlərdə insan nəzarəti mövcuddur və zərurət yarandıqda operator dərhal müdaxilə edə bilir. Yəni burada insan və texnologiya paralel şəkildə idarəetməni həyata keçirir.

Yol hərəkətinin təhlükəsizliyinə təsiri məsələsi isə hələ tam aydın deyil. Bəzi ölkələrin təcrübəsi göstərir ki, müəyyən hallarda sıxlıq yarana, digər sürücülər üçün çətinliklər meydana çıxa bilər. Digər tərəfdən isə təhlükəsizliyin artması ilə bağlı müsbət nəticələr də müşahidə olunur.

Bu sahə hələ tam formalaşmadığı üçün qəti nəticə çıxarmaq tezdir. Həm müsbət, həm də mənfi istiqamətdə risklər mövcuddur və proses davamlı şəkildə sınaqdan keçirilir.

Əsas problem ondan ibarətdir ki, mövcud avtomobil parkını qısa müddətdə tamamilə avtonom sistemlərlə əvəz etmək mümkün deyil. Bu, böyük maliyyə və uzun zaman tələb edir. Buna görə də bir müddət həm ənənəvi, həm də yeni sistemlər paralel şəkildə fəaliyyət göstərəcək. Bu balans düzgün qurulmadığı halda müxtəlif problemlər yarana bilər.

Ümumilikdə isə bu sahədə görüləcək işlər çoxdur və proses hələ ilkin mərhələdədir. Hazırkı vəziyyətdə onun geniş tətbiqi üçün şərait tam formalaşmayıb.

***Fidan ƏLİYEVA***
***XQ***

**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi Prezident İlham Əliyevin 14 yanvar 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın qarşıya qoyduğu məqsəd və hədəflərin işığında "Dilimiz milli-mədəni kimliyimizin təməlidir" mövzusunda silsilə seminarlardan ibarət yeni layihəyə start verib.**

# "Dilimiz milli-mədəni kimliyimizin təməlidir"



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında təşkil olunan ilk seminarda kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək bildirib ki, dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkəmizin mədəni siyasətinin gələcək onilliklər üzrə strateji istiqamətlərini müəyyənləşdirən mühüm sənəddir. Konsepsiya yalnız bu günü deyil, gələcək nəsillərin mədəni düşüncə və estetik zövqünün formalaşmasını da hədəfləyən uzaqgörən bir baxışın ifadəsidir.

Daha sonra Milli Məclisin sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov "Dilimiz milli-mədəni kimliyimizin təməlidir" mövzusunda məruzə ilə çıxış edərək Azərbaycanın müstəqillik tarixindən və inkişaf yolundan danışıb.

"Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasının müstəqilliyimizin və suverenliyimizin tam bərpa olunduğu bir zamanda qəbul edilməsinin təsadüfi olmadığını söyləyən alim bildirib ki, konsepsiya qlobal və daxili çağırışlar nəzərə alınmaqla Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin formalaşdırılması, inkişaf etdirilməsi və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədi daşıyan strateji planlaşdırma sənədidir.

Onun sözlərinə görə, Azərbaycan mədəniyyətinin müasir modeli qlobal çağırışlara cavab verməklə yanaşı, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasını təmin edən mədəniyyət modelidir. Bu məqsədlə konsepsiya milli mədəniyyətə yeni strateji baxışı şərtləndirir. Sənədin uğurla həyata keçirilməsi və müasir mədəniyyət modelinin işlək olması üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, idarəetmə formasının, müasir sosial-iqtisadi yanaşmanın təmin edilməsi zəruridir.

Akademik Rafael Hüseynov qeyd edib ki, Azərbaycan dilinin zənginliyi, tarixi kökləri və ifadə imkanları haqqında danışan Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, ana dilimiz sadəcə ünsiyyət vasitəsi deyil, milli kimliyimizin və dövlət müstəqilliyimizin mənəvi dayağıdır. Dövlət başçısının dilimizlə bağlı çağırışları, həm tarixi köklərimizə sədaqətin, həm də milli birliyin möhkəmləndirilməsinin bariz nümunəsidir. Onun sözlərinə görə, ölkə başçısının Azərbaycan dili ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq internet mühitində digər dillərin Azərbaycan dilini sıxışdırmaması, dilimizin saflığının, təhlükəsizliyinin qorunması və ona olan müxtəlif növ təhdidlərin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi vacibdir.

***Q.YUSİFOĞLU***
***XQ***

*Beynəlxalq həyat*

# Yaxın Şərq yenə barıt qoxuyur

**Yaxın Şərqdə təhlükəsizlik vəziyyətinin daha da mürəkkəbləşdiyi bir vaxtda beynəlxalq media ABŞ-İran qarşıdurmasının mümkün nəticələrini və bölgədə yaratdığı riskləri diqqətlə izləyir. Xarici medianın yaydığı məlumatlara görə, Hörmüz boğazında ABŞ-a məxsus hərbi helikopterə edilən hücumdan sonra Vaşinqton İrana qarşı yeni hərbi əməliyyatlara başlayıb. Buna cavab olaraq Tehran bölgədəki Amerika hərbi obyektlərinə və qüvvələrinə zərbələr endirdiyini, həmçinin ABŞ-yə məxsus pilotsuz uçuş aparatını vurduğunu bəyan edib...**

**"The New York Times":** ABŞ Prezidenti Donald Tramp İranı Hörmüz boğazı ərazisində Amerika helikopterinə endirilən zərbəyə cavab verəcəyi ilə hədələyib. "Silahlı Qüvvələrimiz mənə indicə məlumat verdi ki, ötən gecə iranlılar Hörmüz boğazı ərazisində patrul xidməti aparan yüksək texnologiyalı "Apache" helikopterlərimizdən birini vurublar. Göyərtədə iki pilot olub, onlar xəsarət almayıb. Bununla belə, ABŞ, zəruri olaraq, bu hücuma reaksiya verməlidir", - o yazıb. Daha əvvəl bildirilmişdi ki, ABŞ-ın "AH-64 Apache" zərbə helikopteri Hörmüz boğazı yaxınlığında qəzaya uğrayıb. Həmin vaxt insidentin səbəbi açıqlanmamışdı.

**"Axios":** ABŞ-ın hərbi qüvvələri İrana növbəti hücuma başlayıb. Hazırda üçüncü hücum dalğası həyata keçirilir. ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı (CENTCOM) Hörmüz boğazı üzərində "Apache" helikopterinə edilən hücuma cavab olaraq İrana hücumların başladığını elan edib.

**"Tasnim":** İranın xarici işlər naziri Abbas Əraqçi "X" hesabında yazıb: "Döyüş meydanındakı məğlubiyyətlərinə baxmayaraq, ABŞ qətiyyətimizi sınamaq qərarına gəldi. Güclü ordumuz heç bir hücumu və ya təhdidi cavabsız qoymayacaq. Təhlükəsiz olmaq istəyirsinizsə, bölgəmizi tərk edin. Fars körfəzi tarixində müdaxilə edən kənar şəxslərin acınacaqlı taleyi haqqında bir çox əsərlər var".

**"SEPAH":** İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) İran ərazisi üzərində Amerikaya məxsus "MQ-9 Reaper" pilotsuz təyyarəsinin vurulduğunu və ABŞ-ın bölgədəki obyektlərinə raket zərbələri endirildiyini elan edib. SEPAH-ın məlumatına görə, Hərbi Dəniz Qüvvələri Buşehr əyalətindəki Cəm dairəsi səmasında "MQ-9 Reaper" pilotsuz təyyarəsini vurub. Həmçinin ABŞ-ın regiondakı hərbi bazalarındakı 21 hədəfə zərbələr endirilib. Bundan əlavə, SEPAH-ın Aerokosmik Qüvvələri uzaqmənzilli raketlərdən istifadə edərək İordaniyadakı Əl-Əzraq aviabazasındakı F-35 təyyarələrinin anqarları daxil olmaqla 4 hədəfi vurub.



**"The Washington Post":** Donald Tramp "Truth Social"da yazıb ki, İran Tehran üçün əlverişli olan razılaşma ilə bağlı danışıqları uzatdığına görə bədəl ödəyəcək. Tramp bəyan edib ki, İranın Silahlı Qüvvələri sarsıdıcı məğlubiyyətə uğrayıb, Hərbi Dəniz və Hava Qüvvələri daxil olmaqla potensialın əhəmiyyətli hissəsi məhv edilib.

**"Al Jazeera":** İran Prezidenti Məsud Pezeşkian bəyan edib ki, Tehran müharibəyə can atmır, lakin suverenliyini qorumağa hazırdır. Onun sözlərinə görə, İran hakimiyyəti ölkəni gələcək sarsıntılardan qorumağa kömək edəcək qərarlar qəbul edir. Pezeşkian müharibə və böhranlar şəraitində ölkəni idarə etməyin çətin olduğunu bildirib. O, İranın qarşısında duran çağırışların öhdəsindən gəlmək üçün cəmiyyətin bütün təbəqələrinin birlik və əməkdaşlığının vacibliyini vurğulayıb.

**"Nour News":** Tehran Vaşinqtonun hava hücumuna cavab olaraq İraqın şimalındakı Əl-Hərir aviabazasına hücum edib. Nəticədə ABŞ hərbi radarı məhv edilib. Həmçinin, İranın Hörmüz boğazında ABŞ gəmilərinə və Fars körfəzində bir qayığa atəş açdığı bildirilib. İran dövlət televiziyasının məlumatına görə, ölkənin Silahlı Qüvvələri Bəhreyndə ABŞ HDQ-nin Beşinci Donanma qüvvələrinə hücum etmək üçün dronlardan istifadə edib. Nəticədə "Patriot" hava hücumundan müdafiə sistemlərinin rabitə antenaları və radarları zədələnib.

**"Fox News":** ABŞ lideri "Fox News"a bilidirib ki, ABŞ İrana qarşı yeni hücumda 49 "Tomahawk" raketindən istifadə edib. Tramp əlavə edib ki, vurulan hədəflərin bəziləri Tehrandan 65 kilometr məsafədə yerləşir.

**"CENTCOM":** Birləşmiş Ştatların Mərkəzi Komandanlığı ABŞ qüvvələrinin İranda bir neçə hədəfə qarşı hərbi əməliyyat həyata keçirməsi barədə məlumat yayıb. Qurumun açıqlamasına görə, zərbələr İranın əsassız və davamlı təcavüzkar hərəkətlərinə cavab olub. Komandalıq əlavə edib ki, hücumlar İranın rabitə, hava hücumundan müdafiə və kəşfiyyat sistemlərini hədəf alıb.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

# "Diri Baba" türbəsi – iman və inanc hücrəsi

**Qobustan rayonu ərazisində, dağ döşündə qərar tutmuş ikimərtəbəli "Diri Baba" türbəsi buraya gələn ziyarətçilərin və turistlərin maraqla tanış olduqları tarixi abidədir. Bu türbə eramızın 1402-ci ilində Şirvanşah Şeyx İbrahimin əmri ilə onun müridinin xatirəsinə tikilib.**



Abidənin adının mənşəyi barədə müxtəlif rəvayətlər mövcuddur. Belə ki, bu türbədə dəfn olunmuş şəxsin sufi Baba olduğu qeyd edilir. O, ömrünün son günlərini mağara-hücrəyə çəkilərək ibadət etməklə keçirib. Burada müqəddəs kitabdan ilahi kəlamları oxuya-oxuya haqq dünyasına qovuşub, lakin onun öldüyündən bir qədər sonra – növbəti çilə vaxtı xəbər tutulub. Yəni ölsə də, bir neçə gün "diri qalıb". Bu səbəbdən qəbri üzərində türbə tikiləndən sonra buraya "Diri Baba" adı verilib.

Şirvanı qonşu ölkələrə bağlayan karvan yolunun yaxınlığında yerləşən türbə ötən əsrlərdə bir çox səyyahların diqqətini cəlb edib. XVII əsrin 30-cu illərində Qolştin səfirliyinin İran şahlığında elçisi Adam Oleari, ondan bir qədər sonra türk səyyah Övliya Çələbi, XVIII əsrin əvvəllərində alman həkim və naturalisti Engelbert Kempfer, holland səyyah və tədqiqatçısı Kornelius de Brüyn və başqaları yol qeydlərində həmin abidədən yazıb və hətta türbənin nadir qravür rəsmlərini də çəkiblər.

Qafqazın qədim keçmişinin araşdırmaçılarından olan italyan əsilli Yohan Bartolomeyin təlimatı əsasında XIX əsrdə rusiyalı alman akademik Berhard Dorn ətrafında xeyli məzar daşı olan abidə ilə maraqlanmışdır. Məşhur azərbaycanlı tarixçi-epiqrafist və şərqşünas alim Məşədixanım Nemətova da vaxtilə bu türbəni geniş tədqiq edib. O yazırdı ki, türbənin daş kitabəsi Peterburqdakı Ermitaj muzeydə saxlanılır.

Tarix elmləri doktoru, professor, Əməkdar jurnalist Qafar Cəbiyev yazır ki, Azərbaycan tarixinin bir növ vizit kartı sayılan Qobustan rayonunda rəvayət dolu mağara labirintləri, Tunc dövrünə aid Qədirtəpə kurqanı, çoxsaylı pirlər və digər müqəddəs yerlər, dağlıq və aran Şirvanı əslər boyu mədən daşı ilə təmin edən zəngin yataqlar hər kəs üçün maraq kəsb edə biləcək ünvanlardır. Qonaq-qaranın çox olmasının bir səbəbi də yolların rahatlığı və məsafənin digər yerlərlə müqayisədə Bakıya yaxın olmasıdır. Buranın kəklikotusu, zirinci, sayı-hesabı bilinməyən başqa dərman bitkiləri min bir dərdə əlacdır.

Sözügedən abidə isə Qobustan şəhərindən 2 kilometr aralıda - qayanın içərisində yonulub. Alt mərtəbəsi dəhlizdən və türbə xidmətçisinin otağından, üst mərtəbəsi isə salondan ibarətdir. Fonu qaya olduğu üçün binanın yalnız cənub tərəfə baxan fasadı var. Həmin fasadın quruluşunda Şirvan abidələrinin memarlıq əlamətləri ilə yanaşı, fərqli detallar da mövcuddur. Eyni zamanda, Şirvanşahlar saray kompleksinə bənzər dekorativ dəstxətt hiss olunur. Türbənin üstündə günbəz tikilib. İnşaat kompozisiyasının təkraredilməzliyi və təbiətlə sıx əlaqəsinin olmasına görə bu abidə Azərbaycan memarlığında xüsusi yer tutur. Günbəzin içəri tərəfində bir neçə yerdə memarın adı qeyd olunsa da, "zamanın külәkləri" həmin hissələri silib aparıb. Yalnız bir divarda "Ustad Hacı oğlu" yazısı qalıb.

"Diri Baba" düz 25 ildir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi qorunur. Hələ 1955-ci ildə dağılmaq təhlükəsi olduğu üçün türbənin bərpa-konservasiya və möhkəmləndirilməsi həlli hazırlanıb, uçuq pilləkən, fasad və digər dekor elementləri bərpa edilib.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva 2022-ci il avqustun 12-də İsmayıllı rayonuna səfər zamanı yolüstü Qobustan rayonundakı "Diri Baba" türbəsinə baş çəkiblər. Dövlət başçısı həmin gün Basqal qəsəbəsində Azərbaycan televiziyasına müsahibəsində "Diri Baba" türbəsindən də danışıb: "Bu gün yolüstü "Diri Baba" türbəsində gedən işlərlə tanış oldum. Bir müddət bundan əvvəl mənim tərəfimdən göstəriş verilmişdir ki, bu tarixi abidəmiz bərpa edilsin, onun ətrafında turizm infrastrukturu yaradılsın. "Diri Baba" türbəsi öz unikallığı ilə bütün Qafqaz bölgəsində seçilir. Yaşı 500 ildən çox olan bu türbə əsrlər boyu Azərbaycan xalqı tərəfindən müqəddəs yer kimi tanınıb. Əlbəttə, bizim borcumuzdur ki, bu qədim tarixi abidəni yaşadaq, ona yeni həyat verək, bərpa edək. Onun ətrafında mövcud olan şərait də müasir standartlara cavab verməlidir".

Azərbaycanın şimal-qərb turizm dəhlizində ilk müham dayanacaq olan türbə artıq 4 ildir ki, Dövlət Turizm Agentliyinin balansına verilib. Burada geniş bərpa və infrastruktur işləri aparılıb. "Diri Baba" ətraf ərazidə yerli kiçik sahibkarlığın və icma əsaslı turizm zəncirinin formalaşmasına, bölgənin digər əhəmiyyətli abidələrinin ziyarətinə və regional turizm klastrının yaranmasına töhfə verir.

Qədim abidəyə müntəzəm səyahət turları təşkil olunur. Hər il 10 minlərlə yerli və xarici turist türbəni ziyarət edir.

***Ə.DOSTƏLİ***
***XQ***


## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## Azərbaycan Texniki Universiteti

***kafedralar üzrə aşağıdakı vakant vəzifələri tutmaq üçün***

# MÜSABİQƏ ELAN EDİR

| Kafedralar | Elan yerləri | | | |
|---|---|---|---|---|
| | Professor | Dosent | Baş müəllim | Müəllim |
| Kompüter texnologiyaları | 1 | 4 | 3 | 1 |
| Kibertəhlükəsizlik | | 3 | | 3 |
| Mühəndis riyaziyyatı və süni intellekt | 1 | 5 | 4 | 3 |
| Radiotexnika və telekommunikasiya | | 3 | 2 | 2 |
| Rəqəmsal iqtisadiyyat və maliyyə texnologiyaları | | 3 | 2 | 1 |
| Sənaye mühəndisliyi və davamlı iqtisadiyyat | | 3 | 1 | 2 |
| Biznesin idarə edilməsi | | 2 | 2 | 1 |
| Xarici dillər | | 2 | 1 | 6 |
| Humanitar fənlər | | 1 | 1 | |
| Xüsusi texnologiyalar və avadanlıqlar | | | | 1 |
| Müdafiə sistemləri və texnoloji inteqrasiya | | 2 | 2 | 1 |
| Maşınqayırma texnologiyası | | 3 | 3 | 1 |
| Maşın dizaynı, mexatronika və sənaye texnologiyaları | 1 | 5 | 3 | 1 |
| Mexanika | 1 | 1 | | |
| Metallurgiya və materiallar texnologiyası | | 3 | 3 | 2 |
| Kimya texnologiya, təkrar emal və ekologiya | | 3 | 1 | 2 |
| Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi | 1 | | 1 | 2 |
| Nəqliyyat texnikası və idarəetmə texnologiyaları | | 2 | 2 | 1 |
| Elektrotexnika | | 2 | 3 | 1 |
| Enerji effektivliyi və yaşıl enerji texnologiyaları | | 2 | 2 | 1 |
| Mühəndis fizikası və elektronika | | 2 | | 1 |

Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun elan olunduğu gündən başlayaraq 30 gün müddətində qəbul edilir:

– *rektorun adına ərizə;*
– *kadrların şəxsi qeydiyyat vərəqəsi;*
– *tərcümeyi-hal;*
– *ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti;*
– *dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı;*
– *həmin ali təhsil müəssisələrində işləyən şəxsin müsabiqədə iştirak etmək üçüm yalnız rektorun adına ərizə, elmi əsərlərin, kəşf və ixtiraların siyahısını təqdim etməsi kifayətdir.*

**Ünvan:** AZ 1073, Bakı şəhəri, H.Cavid prospekti 25.

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 102 (31071) 12 iyun 2026-cı il, cümə

İDMAN

## "Dünya futbolu"na start verildi



**2026-cı il futbol üzrə Dünya Çempionatı dünən Bakı vaxtı ilə saat 23:00-da start götürdü.**

48 komanda iştirak ediyi turnirin Meksikadakı məşhur "Asteka" stadionunda reallaşan açılış matçında "A" qrupunda Meksika və Cənubi Afrika Respublikası (CAR) yığmaları üz-üzə gəlib. Qrupun digər oyunu isə bu gün səhər Cənubi Koreya – Çexiya görüşü ilə davam etdirilib.

Bu axşam futbolsevərlər daha bir oyunu izləyə biləcəklər. Saat 23:00-da "B" qrupunda Kanada və Bosniya Hersoqovina komandaları qarşılaşacaq.

## Afrikada badmintonun inkişafına dəstək



**Azərbaycan Badminton Federasiyası Afrikada badmintonun inkişafına dəstək layihəsini davam etdirir.**

Bu dəfə Azərbaycan Badminton Federasiyası Dünya Badminton Federasiyası (BWF) və Afrika Badminton Konfederasiyası ilə sıx əməkdaşlıq çərçivəsində Ruanda Badminton Federasiyasını raketka, volan və digər zəruri idman ləvazimatları ilə təmin edib.

Layihənin məqsədi sosial məsuliyyət çərçivəsində Afrika ölkələrində badmintonun inkişafına töhfə vermək və bu idman növünün kütləviliyini artırmaqdır.

Ruanda Badminton Federasiyası Azərbaycan Badminton Federasiyasına ünvanladığı rəsmi məktubda göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib. Məktubda qeyd olunub ki, təqdim olunan yardım ölkədə badminton üzrə ilk çempionatın uğurla təşkil edilməsində mühüm rol oynayıb.

Bundan əlavə, Ruanda Badminton Federasiyası Azərbaycan Badminton Federasiyası ilə uzunmüddətli tərəfdaşlıq qurmaq niyyətində olduğunu bildirib. Məqsəd Azərbaycanın badminton sahəsindəki təcrübəsindən faydalanmaq, Ruandada bu idman növünü daha da inkişaf etdirmək və gələcəkdə beynəlxalq səviyyədə rəqabət apara biləcək idmançılar yetişdirməkdir.

## Məktəb və klublara hədiyyə



**Azərbaycan Ağırlıqqaldırma Federasiyası tərəfindən quruma müraciət edən idman məktəbləri və klublar bölgü əsasında ştanq dəsti avadanlıqları ilə təmin olunur.**

Federasiyadan verilən məlumata görə, növbəti avadanlıqlar "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt şəhər 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbi və "Təhsil" Respublika İdman Mərkəzinin Bakıda yerləşən 5 nömrəli ixtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinə təhvil verilib.

*Qabil YUSİFOĞLU*
*XQ*

Dünya çempionatı – 0

# Kanalı dəyişməyin...

## *"Yaşıl səhnə"də tamaşalar başlandı*

**Mexiko şəhərindəki 87 min 253 tamaşaçı tutumuna malik əfsanəvi "Estadio Asteka" stadionunun futbol bayramına çoxdan hazırlaşdığı ilk kadrlardan görünürdü. Zarafat deyil, 2026-cı il Dünya çempionatında 3 ev sahibi olduğundan, təşkilatçılar açılış matçının keçirilməsi şərəfinə Meksikanı layiq görüblər. 39 gün davam edəcək planetin möhtəşəm fubol tamaşasına Dünya çempionatının əzəmətli himni ilə start verilir. FİFA-nın Baş katibi Cani İnfantininin təbrik nitqindən sonra musiqi sədaları altında Meksika və CAR milli komandalarının futbolçuları meydana daxil olurlar.**

Braziliyalı Uilton Sampaio oyunun başlanmasını bildirən fitini səsləndirir və futbol üzrə 23-cü Dünya çempionatının ilk qarşılaşmasının baş hakimi kimi tarixə düşür.

Maraqlıdır ki, 16 il əvvəl də Cənubi Afrika Respublikasında keçirilən Dünya Kubokunun açılışına da məhz bu milli komandaların qarşılaşması ilə start verilmişdi. Həmin mundialın ilk turunun qarşılaşması 1-1 hesabı ilə başa çatmışdı və elə o vaxtdan bu günədək bu komandalar heç vaxt bir-biriləri ilə qarşılaşmayıblar.

Meksika – CAR matçının keçirildiyi "Estadio Asteka" stadionu 2026-cı il Dünya çempionatı oyunlarının keçiriləcəyi arenalar arasında əvvəllər də futbol üzrə Dünya çempionatı oyunlarına ev sahibliyi edən yeganə stadiondur. Bu mənada, "Estadio Asteka"nın xüsusi statusu onun tarixi ilə vurğulanır. Burada 2 final oyunu da daxil olmaqla 1970 və 1986-cı il Dünya çempionatlarının möhtəşəm oyunları keçirilib. 1970-ci ildə məhz bu stadionda futbol kralı Pele başda olmaqla Braziliya millisi, 16 il sonra isə Dieqo Maradonanın kapitanı olduğu Argentina yığması Dünya çempionatının qalibi olublar.

Hazırkı Dünya çempionatının, 1/16 və 1/8 final oyunları da daxil olmaqla, məhz bu stadionda 5 qarşılaşmanın tamaşaçısı olacağıq. Bütövlükdə isə Meksika 2026-cı il Dünya çempionatının 13 qarşılaşmasına ev sahibliyi edəcək. Turnirin həlledici mərhələlərinin digər oyunları ABŞ-da keçiriləcək.

A qrupu olduqca rəqabətli görünür. Meksika və CAR-dan əlavə, qrupda Çexiya və Cənubi Koreya da yer alıb. Qaydalara əsasən qrupda ilk iki yeri tutan komanda pley-offa vəsiqə qazanacaq. Bundan əlavə, qruplarında üçüncü yeri tutan 12 komandadan ilk 8 komandanın da 1/16 finala vəsiqə qazanmaq şansı olacaq.

Doğrudur, Meksika CAR millisinə qarşı matçın favoriti hesab olunurdu. Amma meksikalılar ilk dəfə ev sahibi olduqları mundialdan bu yana az qollu matçlar oynamağa meyilli olduqları üçün bu qarşılaşmadan da elə böyük hesab gözlənilmirdi. Əslində, futbol tarixi də göstərir ki, ümumiyyətlə, böyük turnirlərin açılış oyunları nadir hallarda həyəcanlı və ya çox qollu olur.

Aydın məsələdir ki, Meksika milli komandası doğma meydanda Dünya çempionatına yüksək gözləntilərlə başlayır. Onlar Dünya Kuboku tarixində ən yaxşı nəticələrini 1970 və 1986-cı illərdə məhz evdə qazanaraq dörddəbir finala yüksəliblər. Lakin ardıcıl 7 pley-off mərhələsindən sonra meksikalılar 2022-ci il Dünya çempionatında gözlənilmədən qrup mərhələsini adlaya bilməmişdilər. Hazırkı mundiala ev sahibliyi isə meksikalılara əlavə motivasiya yaradır. Futbol mütəxəssislərinə görə, Meksika futbolçularının doğma meydan amili və oyunçularının üstün keyfiyyəti səbəbindən qalib gəlmək şansı xeyli yüksək idi.




Meksikanın öz qrupundan qalib çıxması və 1/16 finala, potensial olaraq 1/8 finala vəsiqə qazanmaq şansı çox vacibdir. Buna nail olmaq üçün Meksika millisinin əsas üstünlüyü doğma divarlar arasında azarkeş dəstəyi olaraq qalır. Əgər qruplarında qalib gəlsələr, o zaman Xavyer Agirrenin komandası pley-off mərhələsinin ilkin mərhələlərində doğma meydan amilindən maksimum yararlana biləcək.

Baş məşqçi Agirrenin özü isə artıq Dünya çempionatlarında uğurlu məşqçilik təcrübəsinə malikdir. O, əvvəllər Meksikanı 2002 və 2010-cu illər mundiallarının pley-off mərhələsinə çıxarıb. 2024-cü ilin yayında milliyə rəhbərlik postuna yenidən qayıdan 67 yaşlı mütəxəssis 2 ildə olduqca əhəmiyyətli nəticələr əldə edib. 2025-ci ildə Meksika ilk dəfə KONKAKAF Millətlər Liqasını, daha sonra isə KONKAKAF Qızıl Kubokunu qazanıb.

Qarşılaşmanın digər komandası Cənubi Afrika Respublikası millisini isə mütəxəssislər A qrupunun əsas autsayderi hesab edirlər. "Bafana Bafana" (CAR milli futbol komandasının rəsmi ləqəbi–XQ) komandası üçün elə dünya çempionatının pley-off mərhələsinə çıxmaq özü ciddi nailiyyət sayıla bilər. Cənubi afrikalılar sonuncu dəfə 2010-cu ildə Dünya çempionatında iştirak ediblər və bu şansı da onlar turnirə ev sahibliyi etdikləri üçün əldə ediblər. Sonrakı illərdə isə komanda heç zaman qrup mərhələsini adlaya bilməyib.

CAR millisinə rəhbərlik edən 74 yaşlı belçikalı Uqo Bros 2026-cı il Dünya çempionatından sonra məşqçilikdən gedəcəyini açıqlayıb. Əlbəttə, o, təqaüdə çıxmazdan əvvəl CAR millisinə Dünya çempionatında ilk dəfə pley-offa, hətta 1/8 finala belə vəsiqə qazandırmaq istərdi. Amma komandanın buna imkanı çatacaqmı? Futbol sürprizlərlə dolu olsa da, bu suala müsbət cavab vermək çətindir.

Meksika millisi A qrupundan pley-offa yüksələcək əsas namizədlərdən biri hesab olunur və mundiala A qrupunun favoriti kimi qatılıb. Doğma meydan amili və böyük turnirlərdə iştirak təcrübəsi müəyyən mənada meksikalıları qrupun favoritinə çevirir. Digər tərəfdən Xavyer Agirrenin yetirmələri böyük turnirin startına yaxşı hazırlaşıblar. Uğurlu seçmə mərhələsindən sonra meksikalılar 8 yoldaşlıq oyunu keçiriblər və heç birində məğlub olmayıblar. Bir neçə gün əvvəl şimali amerikalılar Serbiyanı 5-1 hesabı ilə məğlub edərək təkcə ikinci hissədə 3 qol vurublar.

Meksikalıların qapısını olduqca təcrübəli 40 yaşlı Gillermo Oçoa qoruyur. Bu, onun Dünya çempionatlarında 6-cı iştirakıdır.

Yeri gəlmişkən, tarixdə hələ heç bir futbolçu 6 dəfə Dünya çempionatında oynamayıb. Turnirin keçirilməsinə başlanan 1930-cu ildən bəri belə bir uğura heç vaxt heç kim imza atmayıb. İndi – 2026-cı il Dünya çempionatında isə məhəllədəki qonşularımızdan daha yaxşı tanıdığımız iki futbolçu bu göstərici ilə tarixə düşəcək: Lionel Messi və Kriştiano Ronaldo.

Hər ikisi artıq 5 dəfə mudialda oynayıb. Başqa bir iddiaçı isə bir qədər əvvəl adını qeyd etdiyimiz əfsanəvi meksikalı qapıçı Guillermo Oçoadır. Amma bu statistikanın kiçik bir nüansı var: Oçoa turnirə 2006-cı ildə getsə də, həmin turnirdə yaşıl meydana çıxıb oynamayıb. Beləliklə, formal olaraq Oçoa 6 Dünya çempionatında iştirak edib, lakin 6 mundialda faktiki oyun dəqiqələri yoxdur. Messi və Ronaldo isə əvvəlki 5 çempionatın hər birində oynayıblar, bu günlərdə isə altıncısında oynayacaqlar. Aralarındakı yeganə fərq budur.

Bu baxımdan, təcrübəli qapıçı milli komanda ilə vacib turnirlərə necə hazırlaşacağını yaxşı bilir. Onun təcrübəsi də komandası üçün çox vacibdir. Millinin hücum xətti də xoş təsir bağışlayırdı: Raul Ximenez və cinah oyunçuları əla formadadırlar. Ötən ildən bəri "Estadio Asteka"da uduzmayan Meksika millisi, məsələn, Argentinadan fərqli olaraq, elə də çətin komanda deyil. Meksikalılar "güləşməkdən" daha çox futbol oynayırlar. Argentina millisi isə həmişə çətin oynayır, amma Meksika rəqiblərinə futbol oynamağa imkan verir.

Meksika – CAR matçının start fitindən sonrakı gedişi də mundialın ev sahiblərinin açılış matçına açıq-aşkar favorit kimi çıxdıqlarını göstərirdi. Doğma stadion, son illərdəki uğurlu nəticələr və yüksək motivasiya meksikalıları qələbəyə əsas namizəd edirdi. CAR millisi isə 2026-cı il Dünya çempionatının ilk sensasiyalarından birini yaratmağa çalışırdı. Amma çətin buna nail olsun, çünki qrupda Cənubi Koreya və Çexiya kimi rəqiblər var. Buna baxmayaraq, futbol analitikləri CAR-ın qrupdan çıxmaq şansını, demək olar, 50-nin 50-yə qiymətləndirirlər. Uqo Brosun yetirmələrinin 1/8 finala çıxmaq şansı isə çox aşağıdır.

Doğrudur, CAR millisi 16 ildən sonra ilk dəfədir ki, Dünya çempionatının final mərhələsində iştirak edir, lakin onların hazırkı forması nikbinlikdən daha çox narahatlıq doğurur. Onlar seçmə turnirdə qalib gələrək öz qruplarında birinci yeri tutsalar da, bundan sonra problemləri başlayıb: Afrika Millətlər Kubokunun 1/8 finalında məğlub olublar, sonra isə qeyri-sabit bir yaz mövsümü keçiriblər. Panama, Nikaraqua və Yamayka ilə yoldaşlıq oyunlarını heç-heçələrlə başa vuran "Bafana Bafana" panamalılara qarşı cavab matçında məğlub olub.

Komandanın heyəti güclü görünsə də, ulduzlar sarıdan çox kasıbdır. Meydandakı oyunçuların demək olar ki, hamısı yerli klubları təmsil edir və yalnız bir neçəsi Avropada oynayıb. Onlardan ən diqqət çəkəni İngiltərə primyer-liqasının "Bernli" klubunun hücumçusu Layl Fosterdir.

Onsuz da çətin olan vəziyyətləri turnir öncəsi əlavə problemlərlə daha da ağırlaşıb: komanda viza problemləri səbəbindən Meksikaya xeyli gec gəlib və yüksəkliyə uyğunlaşmaq üçün demək olar ki, vaxtı qalmayıb.

Futbol şərhçilərindən biri yazır ki, "Cənubi Afrika komandası məğlub ediləcək komanda deyil, xeyr. Onlar ingilis üslubunda futbol oynayan sərt uşaqlardır. Düşünmürəm ki, onlar Meksikaya asanlıqla təslim olsunlar. Maraqlı və bərabər oyun olacaq"...

Əvvəldə qeyd etdyim kimi, ilk qarşılaşmanın baş hakimi braziliyalı Uilton Sampaio idi və ona həmyerliləri Bruno Pires və Bruno Boşilya kömək edirdi. İlk oyun onlar üçün də çox məsuliyyətli idi, çünki məhz bu hakimlər ilk dəfə FİFA-nın yeni qaydalarını oyunda tətbiq edəcəkdilər.

Stadionda boş yer gözə dəymirdi. Bu, onu göstərirdi ki, "Asteka"nın tribunalarına bütün yerlərin biletləri satılıb. Mundialın açılış matçında tamaşaçıların əksəriyyətinin meksikalı azarkeşlər olduğu da şübhə doğurmurdu. Bu isə o deməkdir ki, Meksika öz meydanında Dünya çempionatının ilk matçını qələbə ilə başa vurmalıdır və oyunun gedişi də göstərirdi ki, məhz belə olacaq.

*İlqar RÜSTƏMOV,*
*XQ-nin futbol şərhçisi*

HAVA

# Bakıda yağmursuz, rayonlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz yarımadanın bəzi yerlərində arabir güclənəcək.**



Havanın temperaturunun gecə 18-22, gündüz 26-30 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların bir qədər intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 17-21, gündüz 29-34, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 25-28 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 727
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00